TOFİQ FİKRƏT

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

"ŞƏRQ-QƏRB"
BAKI-2006

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

*Bu kitab "Tofiq Fikrət. Seçilmiş əsərləri" (Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1969) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

**894.35/1-dc22**
**AZE**
**Tofiq Fikrət. Seçilmiş əsərləri.** Bakı, "Şərq-Qərb", 2006, 176 səh.

Bəşəriyyətin səadəti, sülh və demokratiya uğrunda mübarizə edən xalqlar, tarixin müxtəlif dövrlərində bu mübarizəyə öz istedadı, öz mətanəti ilə kömək etmiş sənətkarları minnətdarlıq hissi ilə xatırlayır, onların adlarını əziz tuturlar. Tofiq Fikrət də belə şairlərdən biridir. Onun ilhamlı sözü, bədii və fəlsəfi təfəkkürü bütün kökləri ilə xalqa, Vətənə, qabaqcıl bəşər mədəniyyətinə bağlıdır.

Bu topluda Tofiq Fikrətin "Rübabi-şikəstə", "Xəluqun dəftəri" və "Şərmin" kitablarından seçilmiş şeirlər nəşr olunur.

**ISBN10 9952-34-018-4**
**ISBN13 978-9952-34-018-1**

© "ŞƏRQ-QƏRB", 2006

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# TOFİQ FİKRƏT VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

Böyük türk şairi Tofiq Fikrətin zəngin və mənalı yaradıcılığı yalnız türk xalqı üçün deyil, bütün bəşəriyyət üçün dəyərlidir.

Tofiq Fikrətin yaradıcılığının əsas mərhələləri, mütəfəkkir şairin dərin fəlsəfəsi, yaradıcılığının zəngin xüsusiyyətləri, bütün həyatını şeirə, sənətə sərf edən, xalqın dərdinə qalan, xalqı üçün və bəşəriyyət üçün xoşbəxt günlər istəyən sənətkarın türk ədəbiyyatının inkişafındakı yeri haqqında az yazılmamışdır[1]. Ancaq şairin sənətinin özünəməxsusluqları, böyük humanizmi lazımınca, elmi şəkildə aydınlaşdırılmamışdır. Xüsusilə Fikrətin təsiri, Türkiyənin xaricində onun yaradıcılığına verilən dəyər uzun illər tədqiqatdan kənarda qalmışdır[2].

Fikrət hələ öz sağlığında Yaxın Şərq ölkələrində böyük şöhrət qazanmış, xüsusilə Azərbaycan ədəbiyyatının inkişafına mühüm təsir göstərmişdir. Azərbaycanda şairin əsərləri uzun bir müddət məktəb dərsliklərində şərəfli yer tutmuş, dərgi və qəzetlərdə çap olunmuş, onun haqqında müxtəlif mülahizələr irəli sürülmüşdür. Fikrətin yaradıcılığı yenə sevilir və məhəbbətlə öyrənilir.

Yeri gəlmişkən bunu da qeyd edək ki, Azərbaycan ədəbiyyatına təkcə Fikrətin deyil, başqa türk şair və yazıçılarının da qüvvətli təsiri olmuşdur. Onların əsərləri Azərbaycan məktəblərində tədris edilmiş, qəzet və jurnallarda dərc olunmuş, ayrıca kitab şəklində nəşr edilərək oxuculara çatdırılmışdır. Türk dramaturqlarının pyesləri Azərbaycan səhnəsində uzun müddət oynanılmışdır.

Azərbaycan ziyalılarının ən çox oxuduqları türk sənətkarları arasında Namiq Kamal, Ziya Paşa, Rəcizadə Əkrəm, Əbdülhəq Hamid, Rza Tofiq, xüsusilə Məhmət Əmin və Tofiq Fikrət əsas yer tutur. Azərbaycan oxucuları Rəşad Nuri və Xalidə Ədibin əsərləri ilə yaxından tanışdırlar. Ölkəmizdə Nazim Hikməti tanımayan, əsərlərini əzbər bilməyən oxucuya çətin rast gəlmək olur. Əziz Nesin və Yaşar Kamalın əsərləri də böyük məhəbbətlə qarşılanır.

Azərbaycan ziyalıları Fikrəti "Sərvəti-fünun" məcəlləsindən tanıyırlar. Onların bir çoxu "Rübabi-şıkəstə"ni elə nəşr olunduğu gündən bəri (1899)

[1] *T.Fikrət haqqında aparılan araşdırmaların biblioqrafiyası Ankara Universitetinin* professoru Kənan Akyüzün "Tofiq Fikrət" (Ankara, 1947) monoqrafiyasında verilir.

[2] T.Fikrətin ideya və fəlsəfi görüşləri Sabihə Sertelin qiymətli monoqrafiyasında işıqlandırılır.



oxumuş olsalar belə, Fikrətin şeirləri Azərbaycan mətbuatında ilk dəfə 1906-cı ildə "Füyuzat" jurnalının ikinci nömrəsində nəşr olunmuşdur. Bu jurnalda şairin "Köyün məzarlığında", "Ramazan sədəqəsi", "Şəhidlikdə" adlı şeirləri mənsur şəkildə tərcümə edilmişdir. Jurnalda "Müsahibeyi-ədəbiyyə" başlığı altında oxuculara Əbdülhəq Hamid, Namiq Kamal, Rəcizadə Əkrəmin əsərlərindən və "Sərvəti-fünun"dakı yazılardan ədəbi örnəklər veriləcəyi bildirilməkdədir[1].

"Füyuzat"ın baş redaktoru Əli bəy Hüseynzadə yazırdı: "Şimdilik zərafətibəyane və hissiyati-rəqiqeyi-şairanəyə misal olmaq üzərə ədəbiyyati-cədideyi-osmaniyyənin ən bəliq şairi olan Tofiq Fikrət bəyin mənzumələrindən bir qaçını nəsrə təvil ilə "Füyuzat"ın möhtərəm qarelərindən ədəbiyyat maraqlısı olanlara təqdim ediyorum"[2].

Bundan sonra Əli bəy Hüseynzadə Fikrətin sənətindən bəhs edən yazılar yazmışdır. Əli bəy "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" başlıqlı yazısında Fikrəti dekadent kimi göstərir və deyir ki, "Füyuzat"ın ikinci nömrəsində Tofiq Fikrət bəyin nəsrə təbdil edilmiş "Əşari-cədidi"ni oxursunuz, tərzi-əcibi-ifadəsinə, üslubi-qəribi-bəyanına təəccüb edərsiniz, ehtimal heç bəgənməmək istərsiniz. Sizə bildirərlər ki, "Rübabi-şikəstə"dən məxuz olan bu şeirlər dekadent üslubunda şeirlərdən olub, Tofiq Fikrət bəy də osmanlı dekadentlərinin tərəfdarlarındandır"[3].

Bu yazının bir başqa yerində deyilir: "Osmanlı dekadenti nəzminin ən məşhur şairi "Rübabi-şikəstə"yi yazan Tofiq Fikrət bəy olduğu kibi, nəsrin də ən bəliq ədibi "Mavi və siyah" mühərriri olan Uşaqlıgil Xalit Ziya bəydir. Hər ikisi də naqabili-təqlid, hətta bəzi Avropa lisanlarına faiq bir surətdə dərəceyi-kisveyi-təkmilə isal edib, üslub və ifadələri qayət səlis, qayət ahəngdar, qayət parlaq, fikir və xəyalları kibi qayət ruhlu və müəssirdir"[4].

Buradan anlaşılır ki, Fikrətin əsərlərini ilk nəşr edən "Füyuzat" jurnalının baş redaktoru Əli bəy Hüseynzadə o zaman Fikrətin sənətinə böyük qiymət vermişdir.

Bundan sonra hələ Fikrətin öz sağlığında "Şəlalə", "Birlik", "Övraqi-nəfisə" kimi jurnal və qəzetlərdə, "Bürhani-həqiqət" məcəlləsində onun əsərləri şəkli ilə birlikdə nəşr olunur, haqqında kiçik, ancaq məzmunlu məlumatlar verilir.

Məsələn, 1903-cü ildə şairin "Xəstə çocuq" adlı şerini nəşr edən "Şəlalə" dərgisi[5] Fikrətin əksinin altında onun həyatına dair qısaca məlumat verərək,

[1] "Füyuzat". Bakı, 1906, №2, səh.28-30.

[2] Əli bəy Hüseynzadə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. "Füyuzat". №5, *səh.66.*

[3] Yenə orada

[4] Yenə orada

[5] "Şəlalə". Bakı, 1913, №24, səh.2-3.

"Talein kəndilərinə yar olmasını xalisanə təmənna edəriz" cümləsini də əlavə etmişdir.

Bu zaman Fikrət o qədər böyük şöhrət qazanmışdı ki, onun misraları bir çox ədəbi əsərlər və tərbiyəvi yazılarda epiqraf kimi verilərək istiqamətverici bir rol oynayırdı.

Fikrətin əsərləri 1912-ci ildən başlayaraq dərs kitablarına salınmış və uzun müddət orta məktəblərdə tədris edilmişdir. Azərbaycanın görkəmli şair, ədib, dramaturq və müəllimlərindən olan Abdulla Şaiq Talıbzadə hələ 1912-ci ildə dərc etdiyi "Gülzar"[1] adlı dərs kitabında Tofiq Fikrətin "Xəstə çocuq", "Ramazan sədəqəsi", "Çəlik parçası", "Bir əyyaşın qarşısında", "Balıqçılar", "Sərxoş", "Sabah əzanında" şeirlərini daxil etmiş, yenə həmin ildə Fərhad Ağazadə tərəfindən çıxarılan "Ədəbiyyat məcmuəsi"ndə "Xəstə çocuq", "Həsənin qəzası", "Çəlik parçası" əsərləri də nəşr edilmişdir[2]. Uzun bir zaman məktəblərdə oxunulan bu kitablar minlərlə azərbaycanlı tələbəsinə T.Fikrəti tanıtmış, onun mənalı şeirləri ağızdan-ağıza keçərək yayılmışdır.

Sonrakı dövrdə də orta məktəb kitablarında Fikrətin humanist ruhlu ictimai mündərəcəli şeirlərinə çox yer verilmiş, onun haqqında daha ciddi, daha maraqlı elmi əsərlər yazılmışdır.

Onu da qeyd etmək istəyirəm ki, Fikrət hələ 1911-ci ildə "Doxsan beşə doğru" şerini yazdığı vaxtlarda onun əleyhinə çıxanlar da olmuş, hətta şairin əleyhinə məqalələr yazıb şerin son:

Qopsun səni bir haq deyə alqışlayan əllər –

misrasını

Qopsun səni Fikrət deyə alqışlayan əllər –

şəklinə salmışlar. O vaxt Tofiq Fikrəti dərindən sevən, onun təsiri altında şeirlər yazan Azərbaycan şairi Məhəmməd Hadi Fikrəti alqışlayıb, onun müarizlərinə cavab olaraq:

Ey dəsti-hünər, dəsti-ədəb, dəsti-rəhasaz,
Alqışlayan əllər səni, əlbəttə, qırılmaz[3] –

demişdir. Fikrətin əsərləri yalnız məktəb dərsliklərində deyil, "müntəxəb parçalar", "seçmə əsərlər" şəklində də basılmış və geniş şəkildə yayılmışdır. Bu da maraqlıdır ki, Fikrətin "Tarixi-qədim" əsəri ilk dəfə 1920-ci ildə Bakıda,

[1] Abdulla Şaiq. Gülzar. Bakı, 1912, səh.259-267.

[2] Fərhad Ağazadə. Ədəbiyyat məcmuəsi. Bakı, 1918, səh.167-179.

[3] Məhəmməd Hadi. Tofiq Fikrət. "Maarif və mədəniyyət". Bakı, 1923, №2, səh. 15-16.



yenə şairin "Tarixi-qədimə zeyl" adlı şeri Naxçıvanda, 1923-cü ildə ilk dəfə Azərbaycan alimləri tərəfindən Moskvada nəşr olunmuş və geniş oxucu kütləsinə çatdırılmışdır.

Abdulla Şaiq orta məktəb üçün hazırladığı kitablarda şairin həyatı haqqında geniş məlumatlarla yanaşı onun gənclər üçün yazdığı şeirlərindən də nümunələr vermişdir[1].

Əli Əjdər Səidzadə də Fikrətin "Tarixi-qədim" şerini Moskvada çap olunan "Qızıl Şərq" jurnalında nəşr etdirərək onu yüksək qiymətləndirmişdir. Fikrətin:

Topraq vətənim, növi-bəşər millətim, insan
İnsan olur ancaq buna izanla, inandım

misralarında da Azərbaycan alimləri onun geniş sənətkar qəlbini görmüş, onun insanlığın səadətini arzulayan böyük dühalarla yanaşı durduğunu, insana və insanlığın gələcəyinə inandığını iftixarla söyləmişlər[2].

Ancaq böyük humanist, vətəninin taleyini düşünən, onu dərindən sevən həqiqi vətənpərvər belə misraları yarada bilər.

Şübhəsiz ki, Fikrət böyük bir humanist olaraq xalqının kədərini daha dərindən düşünür, vətənini ürəkdən sevir və sözün tam mənasıyla həqiqi bir vətənpərvər kimi yazıb yaradırdı. Təkcə məşhur "Həsənin qəzası" və "Qılınc" kimi şeirlərində deyil, onun vətənsizlikdə günahlandırılmasına səbəb olan "Xaliqin amantüsü"ndə də Fikrətin misilsiz vətənsevərlik duyğularının şahidi olmaqdayıq. Şairin "Sis" əsəri də onun vətən haqqındakı düşüncələrini əks etdirir. "Bimi-təcəssüslə kilidlənmiş ağızlar"ın, "qanun əfsanəsi ilə məhkəmələrdə sürünən haqqın", qılınc və qələmin – bu iki "məhkumi-siyasi"nin müqəddəratından söz açdığı zaman da Fikrət vətənini düşünürdü. Şair "Sabah olursa" şerində vətənindəki qaranlığın aradan qalxacağına və millətin yenə üzü güləcəyinə inandığını bildirir. "Fəzayi-fəryadın kiçik günəşlərini" oyanmağa səsləyən şair vətəni düşünür, gəncliyə müraciətlə yazırdı:

Ümidimiz bu, ölürsək də biz yaşar mütləq
Vətən sizinlə şu zindan qaranlığından uzaq.

Şairin "Fərda", "Xaluqun vidai", "Prometey", "Göydən yerə", "Tarixi-qədim" şeirləri də böyük humanist və vətənsevərlik duyğularının bir ifadəsidir.

Xalqını, vətənini dərin məhəbbətlə sevməyənlərin insanlığı sevdiyi tarixdə görünməmişdir. Əksinə, Fikrət kimi xalqını sevənlər isə böyük insanpərvər olaraq, yüksəlmişlər.

[1] Abdulla Şaiq. Türk ədəbiyyatı. Bakı, 1920.

[2] Sultan Məcid Qənizadə. Seçilmiş əsərləri. Bakı, 1965, səh.95.

Azərbaycanda Fikrətin hürriyyətə, vicdan azadlığına, milli istiqlala, milli oyanışa çağırışlarını yüksək qiymətləndirir, müstəmləkəçiliyə, milli təhəkkümə qarşı mübarizəsini alqışlayırlar. Bu baxımdan "Tarixi-qədim" şerindən gətirilən aşağıdakı sətirlər bu gün daha mənalı səslənir:

Başda, ən başda qanlı bir bayraq,
Onu bir qanlı tac edər təqib.
Sonra xunin vəsaili təxrib.
Mızraq, yay, qılınc, topuz, balta,
Mancanaq, top, sapan, tüfəng arada...
Qanlı amirləri ilə cündi-vəqa,
Sonra artıq alay-alay üsəra.
Mütləqa bir müzəffər, on məğlub,
Çiynəyən haqlı, çiynənən məyub.

Sonra

Qəhrəmanlıq – əsası qan, vəhşət!
Bəldələr çignə, ordular məhv et!
Kəs, qopar, qır, sürüklə, əz, yax, yıx,
Nə aman bil, nə ah eşit, nə yazıq.
Keçdiyin yer ölüm, ələm olsun,
Nə əkindən əsər, nə ot, nə yosun.
Sönsün evlər, sürünsün ailələr,
Qalmasın xırpalanmadıq bir yer.
Hər ocaq bənzəsin məzar daşına,
Damlar ensin yetimlərin başına.
Bu nə vicdan qüdaz şəniə nə ar
Yerə keç sətvətinlə, ey sərdar!

Şairin bu misraları bu gün belə əhəmiyyətini itirməmişdir. Bu misralar tarixin hər çağında və hansı ölkədə olursa olsun, istilaçılara qarşı açıq bir ittihamdır.

"Xaluqun vidai" şerində:

Adəm övladı bıqmamış cəddən
Nə əzilmək, nə haqqı əzməkdən.
Duymamış heç bir işdə yorğunluq,
Bir təşəkki həmən toqat yumruq.
Yumruq əl verməmiş, toppuz vurmuş,
Haq deyən ağzı daşla susdurmuş.
O da kafi deyil, bu gün qaralar
Və dənizlər zəhərli qumbaralar,
Bombalar, güllələrlə malamal... –



deyə bütün aləmin "əsiri-qüvvət" olduğunu söyləyən şair insan ağlının zülmə razı olmayacağını, ən böyük qüvvətin həqiqət olduğunu bildirərək gələcəyin azadlıq ordusunda çarpışacaq qəhrəmanlara xitab etməklə onları öncədən alqışlayır.

Bütün bunlar Fikrəti bu gün də oxucuların gözü önündə yüksəldir.

Fikrətin şəxsi həyatında meydana gəlmiş hadisələrə ictimai bir məna verməsi onun sənətkarlığının heyrətləndirici bir cizgisidir. Bacısının ölümü münasibətilə yazmış olduğu şeirdə qadın əsarətinə qarşı etirazlarını bildirən şair:

Əlbət, degil nəsibi məzəllət qadınlığın,
Əlbət, səfil olarsa qadın, alçalır bəşər –

deyərək şerin sonunda belə müraciət edir:

Siz toplanın başında bu nəşi-mükərrəmin,
Siz ey qadınlığın ədəbi iştikaları!
Ey zəfi-zillətin mütəvəhhiş büqaları,
Siz toplanın və ağlaşalım... Siz bu matəmin
Ən doğru, ən yaxın, ən əsil aşinaları.

Fikrətin bu misraları qabaqcıl Azərbaycan şairləri üçün bir örnək olmuşdur. Məhəmməd Hadi 1914-cü ildə qadın hürriyyəti haqqında yazdığı bir şerində Fikrəti belə xatırlayır:

İşdə Fikrət o dahiyi-fəyyaz,
Aləmi-fikri-inqilabi-riyaz.
Nə gözəl söylüyordu son susdu,
O böyük şair aqibət küsdü.
Olmadı zülmətin ki məddahi,
Küsdürüldü o parlayan dahi.
O böyük Fikrəti dəha-nisar
Göstərirdi cahanda gər asar,
Fikri daim bahar bir Fikrət,
Zibəha, zirəha və ziqüdrət
Və diyordu o şairi-əzəm
Qadının açmağı əvət əlzəm,
Qadın alçaq qalırsa, yüksəlməz
Bəşəriyyət, səfalət əksilməz.[1]

Məhəmməd Hadinin son misraları Fikrətin "Əlbət, səfil olursa qadın, çeynənir bəşər" misrasının açıqlanmasıdır.

[1] Məhəmməd Hadi. Seçilmiş əsərləri. Bakı, 1958.

Tofiq Fikrətin qabaqcıl fikirləri və sənət qüdrəti hələ şairin sağlığında geniş şöhrət qazandığı kimi o dövr bir çox Azərbaycan şairlərinin yaradıcılığına da böyük təsir göstərmişdir. Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq kimi yazıçılar Fikrətin sənətindən çox şey öyrənmiş, öz yaradıcılıqlarında ondan faydalanmışlar.

Azərbaycan ədəbiyyatı tarixinə bir romantik şair və istedadlı dramaturq kimi daxil olmuş Hüseyn Cavid yaradıcılığının hələ ilk dövrlərində Fikrəti dərin bir məhəbbətlə sevmiş, dil, üslub və ifadə özəllikləri ilə Fikrətə yaxınlaşmışdır. Onun imperialist müharibələrinə qarşı etirazını əks etdirən "Hərb və fəlakət" və 1914-cü ildə yazdığı "Yenə məzlumlar üçün" şerində Fikrət təsiri qabarıq duyulmaqdadır.

Yaşadan kainatı qüvvətdir,
Gücsüzün həp nəsibi zillətdir.
Həp cahan qanlı bir kitab olan,
Bu fəqət bir səhifədir ondan.
Kürreyi-ərzi qaplamış həyəcan,
Verilir hər dəqiqə min qurban.
Parlayır hər tərəfdə bir vulkan,
Şərqü Qərb işte püskürür al qan.
Məhv edən, məhv olan, kəsib, kəsilən,
Qəhr edən, qəhr olan, əzib, əzilən.
Anlamış çünki hər nəfər mütləq
Qalib olmaqdadır bu gün hər həqq.
Yoxsa fəryadü-nalə zaiddir
Bir həqiqət bu "əzməyən əzilir"[1].

Fikrətin təsirilə yazılan bu şeir böyük türk şairinin "əzməyən əzilir" sözlərilə bitir.

Hüseyn Cavidin "Məsud və Şəfiqə" başlıqlı şerində də Fikrətin "İnandım" rədifli şerinin təsiri özünü göstərir. Şəfiqənin yoxsulların əməyi bahasına varlanan dövlətlilərin lütfüylə yaşamağa qarşı etirazında deyilir:

Bütün bəşər nə hüquq istiyorsa alacaq,
Qəvi zəif ilə bir yerdə kamran olacaq.
Demək ki, qalmayacaq zülmdən cahanda nişan,
Aman nə tatlı bir əfsanə, həm nə süslü yalan.
Əvət nə nəşəli, həm şairanə bir xülya,
Xəyalə hissə pək uyğun sevimli bir röya.

[1] Hüseyn Cavid. Bahar şəbnəmləri. Bakı, 1917, səh.31-32.



Fikrət də insanlığın qardaşlığına bəslədiyi inamını belə ifadə edir:

Əbnayi-bəşər bir-birinin qardaşı... xülya
Olsun, bən o xülyaya da bin canla inandım.

Hüseyn Cavid sonralar mənzum pyeslərilə daha çox şöhrət qazanmış, xüsusilə yaradıcılığının son illərində yazmış olduğu "Səyavuş", "Xəyyam" kimi əsərləri ilə (Burada onun "Şeyda", "Maral", "Ana" kimi ilk pyesləri ilə də uğurlar qazandığını qeyd etməliyik) orijinal bir sənətkar olaraq parlamışdır. Cavidin "Şeyx Sənan" və "İblis" əsərləri dramaturgiya tarixində yeni bir yol açmışdır. Bunu da əlavə etmək istəyirəm ki, bu mənzum faciələrdə dil, ifadə, hətta ayrı-ayrı misralarda Fikrətin təsiri duyulur.

Şairin dram əsərləri içərisində geniş tədqiqat aparan Hənəfi Zeynallı hələ 1926-cı ildə yazdığı bir məqalədə belə deyir: "Cavid şəkli baxımdan Hamidə, üslub baxımından Fikrətə və fəlsəfi baxımdan Rza Tofiqə bənzəyən bir əsər yaratmağa çalışmışdır. Bəlkə də Cavid əsərlərini yazdığı zaman bu üç şairin heç birini düşünməmişdir. Fəqət bunların cızdığı dairə dışına çıxmamışdır". Hənəfi Zeynallı dediklərini təsdiq etmək üçün "Peyğəmbər" pyesindən örnəklər verir:

Öylə bir əsr içindəyəm ki, cəhan
Zülmü vəhşətlə qovrulub yanıyor.
Məhv edən haqlı, məhv olan haqsız,
Başçıdır xalqa bir yığın cani,
Həp münafiq, şərəfsiz əxlaqsız.

Yaxud:

Onu duymaq, duyurmaq istərkən
Gərirəm hər bəlaya köksümü mən.
Daş, dikən, ox, qılınc, toqat, yumruq
Həpsi xoş, hər nə gəlsə, dönmək yox.

O, bu misralardan sonra "Tarixi-qədim"dən və Fikrətin başqa əsərlərindən örnəklər verərək Peyğəmbərin skeletlə olan söhbətini də Fikrətin misraları ilə qarşılaşdırır və "bunların skeletin rəmzi-tarix olduğunu Fikrətdən bir az daha şairanə öğrəniriz", – deyir.

Münəqqid fikrini belə tamamlayır: "İştə bu örnəklərdən bir Fikrət dili, bir Rza Tofiqin təsəvvüfə qapılaraq yapdığı təkyə ədəbiyyatı qokusu gəlir"[1].

[1] Hənəfi Zeynallı. Hüseyn Cavidin yazdığı "Peyğəmbər" haqqında mülahizələrim. "Ədəbi parçalar". Bakı, 1926, səh.80-91.

İstedadlı tənqidçinin bu nəticəsi şübhəsiz ki, doğrudur. Fikrətin əsərləri Hüseyn Cavid şerinə böyük təsir göstərmişdir. Məqsədimiz bu iki sənətkarı geniş ölçüdə qarşılaşdırmaq deyil. Verdiyimiz nümunələr Fikrətin Cavid yaradıcılığındakı qüvvətli təsirini göstərməyə kifayət edər.

Fikrət sənətinin təsiri Məhəmməd Hadinin əsərlərində də aydın görünür. Bu haqda Azərbaycan ədəbiyyatı tarixindən gətirilən aşağıdakı cümlələrə baxaq:

"XIX-XX yüzilliklərin türk ədəbiyyatı tarixini yaxından bilən Azərbaycan şairi Məhəmməd Hadi öz doğma klassikləriylə birlikdə Namiq Kamal və Tofiq Fikrətin də şeirlərini sevirdi. Türk ədəbiyyatından Hadinin aldığı əsas motiv zülmə qarşı etiraz ruhu idi. O da "fikri hür, irfanı hür, vicdanı hür bir şair" olmaq arzusu ilə yaşayırdı. M.Hadi zülm və əsarətə qarşı meydan oxuduğu, hürriyyət həsrətiylə çırpındığı anlarda həmən Namiq Kamal və T.Fikrətin eyni ruhda yazılmış alovlu şeirlərini yada salır, gah öz əsərlərində hörmətlə onların adını çəkir, gah iqtibas üsuluna baş vurur, bəzən də bu iki sənətkarın əsərlərindən parçalar verirdi. "Canlı şəkillər", "Facieyi-həyat", "İranın hürriyyət qəhrəmanlarına" və s.[1]

Beləliklə, M.Hadinin poetik üslubunun təşəkkülündə görkəmli türk şairləri N.Kamal və T.Fikrət sənətinin qüvvətli təsiri olmuşdur.

Bunun üçündür ki, bəzi hallarda Füzuli və Seyid Əzimin şerinə yaxınlaşan M.Hadinin şeirləri, əsas etibarilə Fikrətin üslub və dilini xatırladır.

Fikrətin cəsarətli tənqidlərinə baxmayaraq, Hadi ittihadçıların fəaliyyətinə böyük ümidlər bəsləyirdi. Bu səbəbdən Hadi 1910-cu ilin əvvəllərində İstanbula getmiş və Fikrətlə tanış olmuşdur[2]. 1910-1912-ci illərdə baş verən hadisələrlə bağlı olaraq M.Hadi də Türkiyə dairələrini bürüyən geriliyə qarşı bir sıra şeirlər yazmışdır. Bu səbəbdən polisin təqibinə uğramışdır. Sonralar Türkiyədə başına gələnləri Abdulla Şaiqə belə anlatmışdır: "Mən çar istibdadından qaçdım və geniş nəfəs almaq və sərbəst yaşamaq ümidiylə oraya getdim. Amma orada da eyni halı, eyni istibdadı gördüm. İttihadçılar yazıçılardan sadəcə mədhiyyə bəkliyorlar. Şübhəsiz, mən bunu bacarmazdım".

Bir çox çətinliklərlə qarşılaşan və ittihadçılar tərəfindən Salonikə sürülən bu böyük vətənpərvər Azərbaycan şairi 1914-cü ildə Bakıya qayıda bilmişdir.

*T.Fikrətin təsiri Hadinin son əsərlərində daha qüvvətlidir. Onun 1918-ci* ildə qələmə aldığı və bitirə bilmədiyi "İnsanların tarixi faciəsi, yaxud Əlvahi-*intibah" şeri Fikrətin "Tarixi-qədim" əsərinin təsirilə yaranmışdır.*

[1] Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1960, II c., səh.804.
[2] Məhəmməd Hadi. Seçilmiş əsərləri, səh.293, 310, 313.



Əvət tarixin ovrağı tamamən xak ilə xundur,
Zamanlar keçsə də, hali-bəşər mədfundur.
Bəşər tarixi xunin sərgüzəşti-adəmiyyətdir,
Bəşər tarixi matəmdir, bəşər tarixi möhnətdir.
Yazılmış qissələr başdan-ayağa həp müsibətdir,
Bizə nəql etdiyi keçmiş zamanlar həp fəlakətdir.
Bu gün mazi xəyal olmuş, hekayətlər həqiqətdir,
Bu torpaq qanlıdır, vulkanlıdır, cayi-ədavətdir,
Bu bədbəxt ərzimiz ciddən də bir meydani-vəhşətdir,
Nəsibi-əhli-dünya dərddir, qəmdir, məlalətdir.
Bəşər simasına hər gün qonaq zilli-səfalətdir,
Bəni-adəmdən ayrılmaz olan sürət bu sürətdir.
Baxışlar kölgəli, yüzlər bütün naşad şəklində
Bu matəmgahı kim görmüş sürurabad şəklində.
Təvarixi-həyati-maziyə qandır, fiğandır həp,
Bu adəm oğlu qatildir, işi hərb ilə qandır həp,
Əzəl gündən torpaq pərişan bir cahandır həp,
Cahan pir olsa da bədbəxtiyi-adəm cavandır həp.
Əvət övladi-adəm qəm nişan, matəm nişandır həp,
Sitəmlər, qəhrlər zahir, ədalətlər nihandır həp,
Ədavət doğrudur vardır, məhəbbətlər yalandır həp,
Qədimi vəhşəti-fitriyə insanda əyandır həp,
Ürəklər odludur hala, bu gözlər əşkdandır həp.

Bu sətirlərdən də anlaşılır ki, yeni bir "Tarixi-qədim" yaratmaq istəyən M.Hadi Fikrət kimi insanların fəlakətlərini anlatmağa çalışır. M.Hadi Fikrətin:

Yüksəlməli, toxunmalı alnın səmalara,
Doymaz bəşər dedikləri qoş ittilalara –

misralarına cavab olaraq "Böyük Tofiq Fikrətə kiçik ərməğan" başlıqlı bir şeir yazmış və bunu 1914-cü ildə yayınlamışdır. Bu şeirdə Hadi:

Yüksəlməli, fəqət nə ilə ey böyük ədib,
Ey bağını xəzan görərək susmuş əndəlib.
...Yüksəlməyə təmədünün əflaki-pakinə,
Ermək gərək isə səhəri-tabnakinə,
Sərbəst ərlər istiyor ol aləmi-bülənd,
Bizlərsə hər cihətdən əvət bənd dər kəmənd.
Əfkarımız əsiri-xürafati-əvvəlin,
Azadədir də cəhlimiz ey şairi-güzin![1]

[1] Məhəmməd Hadi. Seçilmiş əsərləri, səh.264.

Bu örnəklər bütün həyatını xalqın hürriyyəti üçün mübarizəyə vermiş olan alovlu bir sənətkarın – böyük Fikrətin sənətindən necə faydalandığı haqqında aydın bir təsəvvür verir.

Fikrətin sənəti Abbas Səhhətə də dərin təsir göstərmişdir. Səhhət ilk kitabına Fikrətin "Rübabi-şikəstə"sini təqlid edərək "Sınıq saz" adını vermişdir və bunu kitabın ön sözündə də belə bildirir: "Əsərlərim qırıq ürəkdən çıxan iniltilər olduğu üçün türklərin böyük şairi Tofiq Fikrət bəyin "Rübabi-şikəstə"sini təqlid edərək "Qırıq saz" adını verdim"[1].

Fikrətin şeirlərini dərin bir sevgi ilə sevib, Azərbaycan gənclərinə sevdirən Abdulla Şaiq də Fikrət yaradıcılığından çox təsirlənmişdir. Onun Sabirin ölümü münasibətilə yazdığı şeri gözdən keçirək:

O geniş alnı bir günəşli səma,
Bir sevimli düşüncəli sima,
Gözlərində dərin bir ülviyyət,
Bir üfüqsüz səbat, ciddiyyət.
Bir təbəssüm dodaqlarında əyan,
Oynuyor titrəyən kibi hər an.
Zahiri sanki şən, gülər kibidir,
Batinisə yetimlər kibidir.
Gülür o, hıçqırıqla ağlayaraq,
Ağlayır hey gülür kibi duraraq,
Oylə bir ol qiyafətiylə yenə
Şairanə dəqiq rəmzi ilə,
Güldürür bir lətifə tərzi ilə.
Bizə dərindən o, hekayət edər,
Qələm əldə acı şikayət edər.
Bax, bu sima o Sabirə yaraşır,
O böyük şanlı şairə yaraşır.[2]

Şübhəsiz ki, bu misraları oxuyarkən Fikrətin Füzuliyə həsr etdiyi şeri xatırlamamaq mümkün deyildir:

Gözündə şölənümə mehri-atəşini-İrak
Baxışlarında hüveyda həzin bir istiğrak –

misraları ilə başlayan bu şerin Abdulla Şaiqə nə qədər böyük təsir göstərdiyi aydındır. Hətta son misralar Fikrətin "Füzuli" şerindən gəlir.

[1] Abbas Səhhət. Sınıq saz. Bakı, 1912.
[2] Abdulla Şaiq. Əsərləri. I c., Bakı, 1960.



Fikrətin sənəti təkcə onun öz müasirləri olan sənətkarlar deyil, bugünkü Azərbaycan şairlərinin də əsərlərinə qüvvətli təsir göstərmişdir. Görkəmli dramaturq C.Cabbarlının ilk yaradıcılıq dövrü şeirlərində – "Qürub çağı bir yetim"[1], "Boranlı qış gecəsi" kimi əsərlərində Fikrət sənətinin təsiri açıq görünməkdədir.

Böyük şair Səməd Vurğunun gənclik şeirlərində də Fikrətin təsiri vardır. Onun "Bayram gecəsi" şeri Fikrətin "Forda"sını xatırlatdığı[2] kimi "Əyilmə" başlıqlı əsəri də Fikrətin təsiri altında yazılmışdır.

Ər oğlu ər kimi tab et bəlayə,
Çırpıl üfüqlərə qoş itilayə –

misralarıyla Fikrətin:

Yüksəlməli, dokunmalı alnın səmalərə,
Doymaz bəşər dedikləri qoş itilalərə –

misraları arasındakı bənzərlik bunu açıq göstərir.

S.Vurğunun ictimai məzmunda yazdığı ilk şeirlərində Fikrətdən gələn ifadələr çoxdur. Bu təsir gənc yaşlarında bir sənətkar kimi parlamış olan Mikayıl Müşfiqin sənətində də görünür. Fikrəti dərin bir məhəbbətlə sevən, əsərlərində onu dönə-dönə anan Mikayıl Müşfiq ona öz ustalarından biri kimi baxırdı.

Azərbaycan gəncləri Fikrətin mübarizəyə çağıran şeirlərini məktəblərdə nəğmə kimi oxuyurlardı. Bunun üçündür ki, o illərdə təhsil görmüş ziyalılar şairin aşağıdakı şerini əzbər bilirlərdi:

Çeynəndi yetər varlığımız cəhl ilə qəhrə,
Doğrandı mübarək vətənin bağrı səbəbsiz.
Birlikdə bu gün bulmalıyız dərdinə çarə,
Can qardaşı, qan qardaşı, şan qardaşıyız biz.

Zülmün topu var, gülləsi var, qələsi varsa,
Haqqın da bükülməz qolu, dönməz üzü vardır.
Göz yumma günəşdən nə qədər nuru qaralsa,
Sönməz əbədi, hər gecənin gündüzü vardır.

[1] Cəfər Cabbarlı. Əsərləri. I c., Bakı, 1958.
[2] Səməd Vurğun. Qızıl Gəncə. 1928, №2, səh.8, №5, səh.7.

Fikrətin Azərbaycan ədəbiyyatına təsirini göstərmək üçün ayrıca bir kitab yazmaq lazım gəlir. Bütün dediklərimizi yekunlaşdırdığımız zaman qeyd etməliyik ki, türk xalqının yetirdiyi böyük humanist, bəşəriyyətin taleyi haqqında düşünən, xalqların xoşbəxt gələcəyinə inanan şair Tofiq Fikrət öz zəngin yaradıcılığı ilə yalnız Türkiyədə deyil, Yaxın Şərq xalqları ədəbiyyatının inkişafında da mühüm rol oynamışdır.

Fikrət sənətinin mütərəqqi təsiri özbək, türkmən, tatar və başqırd ədəbiyyatlarında özünü qüvvətlə göstərməkdədir. Azərbaycanda Fikrət sevgisini yayan Əli Əjdər Səidzadə 1923-cü ildə yazdığı məqalədə belə deyir: "Tarixi-qədim" çox zamanlardan bəridir ki, Azərbaycan, Tatarıstan, Başqırdıstan və digər yerlərdə əlyazması şəklində əldən-ələ dolaşmaqdadır. Bizim Azərbaycan Tofiq Fikrəti bütün bu yerlərdən daha dərin və daha yaxın tanıyır"[1].

Bizim fikrimizcə, qabaqcıl türk ədəbiyyatının, xüsusilə Fikrət sənətinin təsiri XX əsr fars ədəbiyyatında da görünməkdədir. XX əsrdə yetişən Mirzadə Eşqi, İrəc Mirzə, Arif Qəzvini və başqalarının əsərləri bu baxımdan diqqətlə tədqiq olunarsa, Fikrət sənətinin nə qədər geniş bir dairədə şöhrətləndiyini müəyyənləşdirmək olar.

İnanırıq ki, Fikrət mütəxəssisləri şairin Şərq ədəbiyyatına göstərdiyi təsiri daha dərindən incələyib geniş aydınlaşdıracaqlar.

Həmid Araslı<br>1966

[1] Əli Əjdər Səidzadə. Tofiq Fikrət və "Tarixi-qədim". "Qızıl Şərq". № 2, 3, səh.114.



## OXUCULARIMA

Sizə, ey bilmədiyim, görmədiyim qarelər,
Sizə ithaf ilə nəşr eyləyirəm bunları mən.
Sizə ithaf ilə, çünki nə üçün gizlədirəm,
O sizin görmədiyim, bilmədiyim gözləriniz,
Şerimi görməyə öz vaxtını sərf eylər ikən,
Bəlkə bir nöqtədə birdən duraraq vəlvələsiz,
Göstərişsiz iki-üç qətrəcik isar[1] eylər.
Mən bu ümid ilə öz ömrümü təşyi[2] edirəm.

İki-üç qətrə yaş olsun... Bu təsəlli yetişir.
Belə qovğalar içində bu acı dövranla,
Bu ələmlərlə, əzablarla keçən günlərimin
İki-üç qətrə azaldar, yatırar qəmlərini.
Siz ki ən doğru görən bir nəzəri-vicdanla
Ta uzaqdan mənə baxmaqdasınız, müstəğni[3]
Sizi mədh eyləməyimdən, nə səmimiyyətdir
O baxış çöhreyi-əşarıma sakin-sakin!

Bu əsərlər, bu yazılmış, unudulmuş şeylər
O səmimiyyətə hörmətlə bu gün nəş edilir.
Kim bilir, bəlkə içindən biri alamınızın[4]
(Bəli, alamınızın, çünki ələmdən xali
Yaşayan yox, bunu biçarə bəşər yaxşı bilir)
Bir kiçik aynası, bir əksi olar, ən ali
Yaşayanlar belə hiss etmədə ən müstəhqər[5]
Yaşayanlar kimidir... Eyni çamırdan bu yığın!

[1] İsar etmək – saçmaq
[2] Təşyi – yola salma, ötürmə
[3] Müstəğni – ehtiyacı olmayan
[4] Alam – ələmlər
[5] Müstəhqər – həqir, zəlil

## BALIQÇILAR

– Bu gün acıq yenə övladlarım, deyirdi ata,
Bu gün acıq yenə, lakin sabah ümid edirəm,
Sular bir az daha sakitləşər... nə çarə, qəza!..
– Xeyr, sular nə qədər coşqun olsa, mən gedərəm,
Deyirdi oğlu, sabah sən bir az anamla otur.
Zavallı, bax, neçə gündür bu halda xəstə...
– Olur,
Bir az da sən çalış, oğlum, bir az da sən, bax, atan,
Atan, anan iki miskin, biz artıq ölməliyik...
Oğul düşündü şikayətli bir baxışla;
– Bu heç
Olarmı? Bəs o zaman biz nə eylərik?..
Bu zaman
Dişarda gurlayaraq hirslənən bir ordu kimi
Döyürdü sahili minlərcə dalğalar əsəbi.
– Sabah sən ağları[1] gün çıxmamış hazırlarsan.
Fəqət çalış bir az ip, mantar almadan getmə.
Açınca yelkəni heç baxma, oynasın, varsın,
Qayıq uşaq kimidir: oynayırmı, dərd etmə,
Toxunma keyfinə, ancaq çox arxayın olma:
Dəniz qadın kimidir, heç inanmaq olmaz, ha!

Dəniz bayırda uzun nərələrlə bir xırçın
Qadın gurultusu, bir küy salırdı ortalığa,
– Sabah uşaq gedəcək yalnız, eyləmi, balığa?
– O getmək istəyir, "sən evdə qal" deyir...
– Aydın!
O gəlmədən mən ölərsəm?..
Qadın bu son sözlə
Düşündü qaldı. Balıqçılə oğlu yan gözlə
Soluq dodaqlarının xəstə titrəyişlərinə
Baxıb sükuta dalırlar və başlarında uçan
Qəzanı sanki dəyirlərdi böylə bir-birinə.

[1] A ğ – balıqçıların işlətdikləri müxtəlif torlar



Bayırda fırtına getdikcə güclənir, tufan
Coşub da hər yanı dəhşətlərilə titrədərək
Uğuldayırdı...
– Sabah tək uşaq nə cür gedəcək?
Şəfəq sökərkən o, yalnız bir əski təknəciyin
Düyünlü, kirli, çürük iplərilə uğraşaraq
İrəliləyirdi. Dəniz eyni şiddətilə şaraq
Şaraq döyüb aparır köhnə təknənin şişkin
Zəif qabırğasın... Aclıq, ümid, aman, bu nə hal?
Kənarda bir daşın üstündə bir dumanlı xəyal
Əlilə əngini guya işarə eyləyərək,
Deyirdi: "Haydı, həyatın o dalğalarda, yürü!"
Yürür zavallı qırıq təknəcik, yürür.
"Yürümək,
Nəsib olan sənə, bax, bu!.. Gözün kənarda, yürü!"
Yürür, fəqət dənizin, dalğanın bu hiddətinə,
Nə cür dözüb dayanar əski, xəstə bir təknə?..
Dəniz üfüqdə, qadın evdə can verir çox ağır,
Ataysa çırpınaraq çöldə axtarır oğulu,
Bütün fəlakətinin dəhşətilə ruhu dolu.
Budur: fələkzədə boş təknə, yox oğuldan əsər.
Balıqçı göyləri yumruqla göstərib bağırır,
Üzündə yaşlara batmış boğuq şikayətlər...

## NƏSRİN

– İndi mən doğrusu əvvəlki uşaqlıqlardan
Peşmanam, könlümü mən boş yerə sərf etdiyimi
Acılıqlarla bu gün anlayıram, bir vicdan
Mənə duydurmadadır böylə bitib getdiyimi.
Mən ki bitməz düşünürdüm bu həyatın şövqü...
– Etmə, Nəsrin, mənə zəhr etmə bu bir an zövqü!
Qız bu son aşiqinin, istəmədən, ən coşqun
Bir məhəbbətlə alovlar saçan ağuşunda.
Bu şikayətlər içində gözüyaşlı, solğun,
İnləmiş, inləyərək sonra düşünmüş: – Bunda
Bir təsəlli taparam bəlkə... – Bu fikr ilə bütün
Öz zəif cismini sərf etmiş idi:
– "Bax, hər gün,
Hər zaman mən səninəm, hər nə desən, tabeinəm,
Fəqət artıq yetişir, eşqdən iyrəndim mən,
Cana doydum, belə eşqi daha mən istəmirəm,
Mənə bəhs eyləməsinlər belə sevməklərdən"–
Deyə, həm eşqini töhmətləyərək, həm yorğun
Bir vərəm xəstəsidir, sanki ümidsiz və uzun
Bir şikayətlə bərabər, yenə ondan əbədi
Bir səfa gözləyərək son gecələr nifrətlə
Xoşa gəlməz acı bir zövq alıb əylənmiş idi.
İndi artıq bu məişətdə böyük zillətlə
Bir səfalət görür, ah, ağlaya bilmək... Lakin
Bu da çoxdan bəri olmuşdu o bədbəxtə çətin.
– "Ağlasam, ah, azacıq ağlaya bilsəm. Ömrüm
Qoy ələmlərlə, kədərlərlə bürünsün, yanmam.
Ağlasam, ah, bir az yağsa o baran ki, görüm
Bu dumanlarla keçən gündə açıq bir axşam..."
Fəqət əfsus!..
Bəli, əfsus ki, biçarə sənin
Əbədiyyən qalacaq böylə müləvvəs bədənin,
Əbədiyyən qalacaq böylə müləvvəs ruhun.
– "Ağlamaq... Heç o səadət mənə qismətmi olar?



Mən ki əyləncəsiyəm gah onun, gah bunun,
Mənə ölmək yaraşır, başqa səadətmi olar?
Ah, mən, mən ki hələ qönçə ikən solmuş gül
Kimiyəm, böylə mülevvəs mənə ölmək belə zil!.."

Ta uşaqkən sığınıb qaldığı, az çox sevgi
Gördüyü bir qucağın rəhmi uzun çəkməyərək
Əbədiyyən soyudu, ən acı, ən incidici
Bir məişət onu basdırdı... Bu bir əqrəbtək
Uşağın güllənəcək qəlbinin istəklərini
Külə döndərdi, əziz varlığının cövhərini
Bir kömür halına qoydu, ona artıq yaşamaq
Bir fəlakət kimi olmuşdu, bütün amalı
Bir soyuq tərbiyənin qarları altında uzaq
Və ağır bir yola düşmüşdü, şərəfdən xali
Bu ağır yol hara getməkdə idi? Bəlkə yarın
Bir gözəl göz, iki diqqətli baxış, bir bayğın
Görünüş aldadaraq, sadə qızın bakir-ü tam
Nə qədər duyğusu qalmışsa tutub məhv edəcək.
Sonra biçarə qadın dul, bacarıqsız, bədnam,
Bir çürük meyvə qədər xar, dəyərsiz bitəcək...

Böylə Nəsrin hələ bir tazə açılmış gül ikən
Düşdü bəd taleyinin pəncəsinə gözləmədən.
İndi artıq yaşamaqdan da o bədbəxt utanır,
İndi artıq bütün amalını təhlil etsən
Bir udum zəhr olacaq, bir acı nifrətlə qaçır
Ən səfa gördüyü, ən sevdiyi aləmlərdən...

Bir sabah evdə bütün cansıxıcı bir gecənin
Qara bədbəxtliyi altında əzilmiş, qəmgin
Oturarkən, qapıdan örtülü dilbər bir qız
Qorxaraq girdi:
– "Xanım, mən çalışan bir uşağam,
Anam ölmüşdür, atam yox, mənə bir vicdansız
Pul verib təhqir edir, mən sizə qurban olaram,

Məni rədd eyləməyin, yalvarıram, xidmətdən
Heç yorulmam... Məni siz qurtarınız zillətdən...
Of, xain!.." deyə sarsıldı. Bu hiddət, bu ələm
Qəlbini rəhmə gətirmişdi o ev sahibinin.
Yandı biçarə qızın dərdinə, kövrəldi, o qəm
Gözlərindən iki yaş saldı. Bu axşam Nəsrin
Yeni bir aşiqi rədd eylədi, sildi yaşını,
Yaxşı bir pərdə onun örtdü yaman keçmişini.



## XƏSTƏ UŞAQ

Bu gün bir az daha rahətdi, çox şükür...
– Əlbət,
Keçər, bu qorxulu bir şey deyil.
– Fəqət növbət[1]
Zavallı yavrucuğun halini xarab eləyir,
Vücudu atəş içində yanıb-yanıb əriyir.
Nə çarə eyləyirəm təsir etməyir dərman.
Bir həftə keçdi...
– Xanım, qorxmayın, bu, qızdırma...
– Xeyr, pənah ona! Allah bilər, nə qorxacağam?
Fəqət, quzum, nə qədər olsa mən də bir anayam!
Bir həftə keçdi hərarət davam edib də durur,
Baxın nəbizləri biçarənin nə güclə vurur.
Saraldı, qorxur adam çox baxanda əllərinə.
– Üzülməyin siz, uşaqdır, gələr qanı yerinə.
Uşaqdır o...
– Gecə tez-tez sayıqlayır.
– Nə olar?
– Verin bu dərmanı!
– Yox, istəməz...
Qadın ağlar.
Onun bu bircə uşaq, ömrünün hədiyyəsidir,
Sevinci, nəşəsi ondan gəlir, onunla gəlir.
Fəqət bu gün ana növbətçidir başında onun.
Evində sanki məzar lallığı, ürək tutqun.
Nədir uğultusu xaricdə ruzgarın, soyuğun?
Yağış da xəstə üçün ağlayırmı böylə uzun?
Bəşər qəmilə fəqət qəmlənirmi heç dünya?
Əcəb yalançı təsəvvür, əcəb çətin xülya?
Anam...
– Nə var gözəlim?
– Qaldırın bu pərdələri,

[1] Növbət – qızdırma, isitmə

Kəfənmidir, nədir onlar?
– Yenə baş ağrıları
Yataqda xəstəni candan üzür sayıqladaraq.
Qadın bu sözləri duyduqca ağlayır yataraq.
Ümidlə qorxu içində yanır, zavallıya bax,
Önündə gözlərinin bir yığın qara torpaq.
Görür o torpaq içində zavallı körpəsini,
Məzar iniltisi zənn eyləyir boğuq səsini.
Dilər yetimi üçün tanrıdan səhətlə həyat,
Yetimələr kimi eylər için-için fəryad.
Bu dul qadın bir o məhsuli-ömr üçün yaşayır,
Onun həyatına aid ümidlər daşıyır.

– Anam!
– Nədir mələyim?
– Ağlayır uşaqlar bax...
Burax, burax məni arsız uşaq!.. Anam, torpaq!
– Sayıqlayır yenə, ya rəbbi, sən əsirgə bizi,
Bağışla yavrumu, rəhm et, qoparma nələmizi!

Zavallı arvad üzülmüş, saralmış inləyərək,
Bir həftə keçdi, yazıq bilməyir nə dincəlmək.
Yeganə şövqü, sevinci yataqda xəstə yatır,
Onu sağaltmaq ümidilə hər yana can atır.
Tutub xəyalını bağrında iztirablarla,
Gəzər bütün gecə ətrafını əzablarla.
Bu, kim bilir nə qədər böylə hey davam edəcək,
O yaşlı gözlərinə uyqunu haram edəcək.
– Uşaq ayılmayacaq bəlkə heç bu bəd yuxudan...
– Çəkin, xanım, bu qara fikrə düşməyin heç, aman!
Baxın hava nə gözəl açdı, parlayır göylər,
Bayaqkı vəlvələlərdən görünməyir bir əsər.
Tapar uşaq da şəfalar, gülərsiniz artıq,
Böyükdür Allah, alar matəmi, verər şadlıq...

Uşaq, o indi qoçaq bir cavan olub evdə,
Fəqət ana onun üstündə titrəyir yenə də.



## TƏZƏLƏNƏN İZDİVAC

Evləndilər, sevişdilər, amma... nədən, nədən,
Sövda sükuta başladı beş həftə keçmədən?
Evləndilər, neçin? Bunu qız bilmədi, neçin?
Evlənməsiylə madəri[1] güldü için-için...
Gəncin də verdi nəşə bu toy əqrabasına
Lakin bu toy toxundu onun kef havasına.
Nahaq idi onun nəzərində bu toy günü,
Bir şəxsə verməк istəməyirdi o, ömrünü.
Evləndilər, sevişdilər, amma... nədən, nədən,
Sövda sükuta başladı beş həftə keçmədən?

Əndişədən könülləri azad olammadı,
Oğlan, yarıylə xoş danışıb, xoş dolammadı,
Biganə bir qadınla bir erkəkdi xanədə,
Biganəlik içində donub susdu xanə də.
Cismani hissə eyləsələr də həvəs az-az,
Bənzərmi eşqə adicə çılğın bir ehtiras?
Çıxmazdı evdən heç o soyuqluq bütün-bütün,
Getdikcə yadə gəlməməyə başladı dügün.
Bir gün qoyuldu nöqtə bu bəzmi-məhəbbətə,
Çıxdı sabahi tifli-məhəbbət səyahətə...

Keçdi zaman da... böylə güzar etdi günləri,
Dönmüşdü bir məzarə evin gərçi hər yeri.
Gün keçdi, aylar ötdü, yenə... Bir səhər yenə
Göstərdi arvad oğlunu hiddətli zövcünə[2]:
"Bax oğlumuz!" – O dəm qadının doldu gözləri,
Gəncin də güldü onda, qürur ilə gözləri.
Nəslin davamı insan üçün şanlı ehtiyac,
Busəylə tazələndi həmən köhnə izdivac.

[1] Madər – ana
[2] Zövc – ər

## KİÇİK AİLƏ

Son yarpağını tökdü ağaclar budağından,
Şeh dürrü ilə son dəfə süsləndi çəmənlər.
Bir körpə doğuldu belə bir gündə, lüt-üryan,
Gəldi bu kiçik ailəyə qışla bərabər,
Gəldi, gəlişi gənc atanı etdi mükəddər.

Artıq qonağa yoxsul ocaq tab eləməzdi,
Artıq qab o boş süfrəni bir dağ kimi əzdi.

– Yox, etmə təəssüf buna, ey qayğıkeş insan;
Körpən atalıq hissi bağışlar sənə, şəksiz,
Hərdən yumulan yumru, qəşəng əlləri bir hiss,
Bir qüvvə verər, sən daha artıq çalışarsan.

Şəfqətli ata bir yeni qüvvətlə çalışdı,
Coşdu atalıq hissi, məhəbbətlə çalışdı...

Son yarpağını tökdü ağaclar budağından,
Şeh dürrü ilə son dəfə süsləndi çəmənlər.
Lakin bu dəfə qış – o soyuq üzlü zimistan[1]
Əsla o kiçik ailədə görmədi dərd-sər,
Şadlıqdı, qonaqlıqdı, hamı şən və gülümsər.

[1] Zimistan – qış



## KƏNAN

On beş il bundan əvvəl bu daxmada kimsəsiz
Bir kəndli qadın, oğlu Kənanla yaşayırdı.
Bir ulaqları vardı... Oğlan cılız və aciz,
Ayaqları şikəstdi, gəzəndə axsayırdı.
Tay-tuşları sataşır, ürəkciyi yanırdı,
Yazıq, adam içinə çıxmağa utanırdı.

Kənan... Çöhrəsi solğun, anadangəlmə məğmun,
Zahiri nöqsan ilə alçaqdı təbiətdə.
Ancaq ona sataşıb lağ etmək ilə məmnun
Olan o cahillərdən çox üstündü qeyrətdə.
Sanki onun cismini görüb qüsurlu, şansız,
İnsanlığı ruhuna toplanmış idi yalnız.

Kənan böyüdü, oldu boy-buxunlu bir cavan,
Ancaq yenə də sözü gəzirdi ağızlarda.
Biçarə tək gəzirdi, dinmədən, danışmadan,
Ən yamanı buydu ki, xor baxırdı qızlar da...
Həqarətdi, rişxənddi gördüyü hər nəzərdə,
Bir qönçə açılmazdı onun gəzdiyi yerdə.

Hərb başlandı, kənddəki igid, qeyrətli gənclər
Hamı cəbhəyə getdi... Kənan da içlərində.
Bir gün pusquda durub bir ovuc qoçaq əsgər
Bir bölük məhv elədi... Kənan da içlərində...

Kənan yaralanmışdı, dönüb kəndə gəlirdi,
Hər yandan şanlı alqış səsləri yüksəlirdi.

## ANA

Vərəmli rəngi üzündə əzab əlamətidir,
Kədərlə baxması şahid bəlakəş olduğuna;
Döşündə tutduğu körpə yeganə ziynətidir,
Soluq dodaqları bəd taleyinə qarğış edir...
Mükəddər eylədi qəlbən məni bu xəstə ana.

Tutub yazıq elə bir dərd ki, tapmayır dərman,
Yanır qərib ürəyi atəşi-zərurətlə,
Fəqət o körpə çıxardır məlalını yaddan,
Mələk sifətli o məsum uşaq edincə fəğan,
Öpür o gül dodağından onun məhəbbətlə.

Yetim də olsa uşaq, sanki incidir parlar,
Naxoş da olsa qadın bir sədəfdir incisinə.
Uşaq da, dul ana da toz içində yaş axıdar,
Edər bu lövhə ən avarə qəlbi dərdə düçar,
Kim olsa təsir edər bax, bu canyaxan səhnə.

Basanda bağrına öz doğma tiflini arabir,
Görən qürurunu bilməz dilənçi olduğunu;
Dərin baxışları tiflin nəzərlərində itir,
Və sanki dillənib hərdən o hali-məhzunu
Deyir: "Bəli, ana olmaq fərəhli bir dərddir!"



## VERİN ZAVALLILARA

*Balıkesir zərərdidələri üçün*

Xərabi-zəlzələ bir kənd... O yanda bir komanın
Çürük dirəkləri dəhşətlə doldurub küçəni.
Kəsək yığıntısı şəklində köhnə bir binanın
Uçuq təməlləri məhzun edir gəlib keçəni...
Odur, bir ev uçauçdur, odur, bu an çökəcək,
Önündə bir qadın... Of, artıq istəməm görmək!..

Bu lövhə qəlbimə təsir üçünsə, kafidir.
Ürək davam edə bilməz bu halə, olsa dəmir;
Dəmirürəkli bir insan da böylə bir hali
Görərsə sızlayar, ağlar; bu qəmli timsali,
Bu qəmli mənzərəni dəhşətilə bir an alın
Və yollanın vətənin qarlı, buzlu bir yerinə.
Ürək yaxan bu yaman sərgüzəşti xeyli qalın,
Qalın bir örtüyə bükməklə gizlədin ki, yenə
– İçində saxlayaraq öz ağır fəlakətini –
Yabançı gözlərə göstərməsin səfalətini...
Nə cür davam gətirər sonra qarşısında, deyin,
Bunun, bu qəmli, bu dəhşətli, dərdli səhnəciyin
Bəşər fəlakətinə dözməyən təmiz bir ürək?

Dərin uğultulu çırpıntılarla inləyərək,
Bu qəmli mənzərəyə ağlamaqda qəlbi yerin...
Sizin də qəlbiniz, əlbət, yanır, deyilmi? Verin,
Edin bu dullara, yoxsul yetim-yesirə kömək,
Verin iniltisinə son, bu bir yığın bəşərin!

## ORUCLUQ SƏDƏQƏSİ

*(Körpüdə)*

Soyuq... soyuq... acı bir növhənin boğuq nəfəsi –
Yolunda dərdli həyatın gəlir iniltilə.
Soyuq... soyuq dənizin titrəyən uğultu səsi,
Dolur ürəklərə xırçın sürəkli bir kinlə.
Yolüstü körpünün altında bir çocuq! Dinlə!
"Əfəndilər, – deyir o, – rəhm edin fəqirə..." Sükut!
"Əfəndilər acıyın bir!" Vüqarla, biaram –
Əfəndilər keçir hey... yavrucuq soluq, məhbut[1] –
Nəzərlərində həzin yalvarışlı bir eyham.
Çolaq əlilə verir hər keçən xəyalə səlam.
"Əfəndilər... rəməzandır[2] mübarək axşamdır..."
Səfalətin yazıq oğlu, zavallı bir xilqət!
"Əfəndilər... acıyın mən qəribü zarə!" Xeyr,
Axın-axın keçərək əylənən bu cəmiyyət,
Edir bu kirli, bu yırtıq səsə dərin nifrət.
Soyuq... yağış əsəbi zərbələrlə parçalayır –
Üfüqdəki buludu, zalimanə hiddətlə,
Hücum edib bu zavallı həyatı qamçılayır.
Soyuq... soyuq... bu dözülməz, soyuqda zillətlə –
Çocuq xərab olacaq ah... Ey səadətlə –
Qaçan o süslü, o isti gözəl otaqlarına,
Baxın budur yazıq insan ki, inləyir nəfəsi,
Baxın bu sısqı, bu çılpaq, bu əyri qollarına!
O artıq işləyəməz... sizsiniz kömək edəsi –
Yeganə qüvvə; verin susdurun bu xəstə səsi!

[1] Məhbut – heyran
[2] Rəməzan – orucluq ayı



## ŞƏKİL ÇƏKƏRKƏN

Fırçam şikəst bir ağacın xəstə bir qolu,
Daim əlimdədir, həyəcanlarla titrəyir;
Guya çiçək deyə
Göy otlar üstə tökdüyü qanlarla titrəyir.

On gündür əlləşir qələmim, fikrü sənətim.
Bir incə hissə vermək üçün rəsm ilə həyat,
Seyr eylərəm bu lövhəni mən bəlkə yüz saat,
Verdim əmək deyə.

Acizliyin bilib də bu gün mən bu sənətin,
Təqdisə canla səy edərəm süni-qüdrəti[1],
Lakin zaman olur
Çox ruhsuz görüb də bəyənməm təbiəti.

Mütləq o gün bəyənmək üçün xəstə, dərdəcər
Bir başqa çöhrə, qüssəli bir çöhrə istərəm,
Bundan deyilmi, şeir olacaq yerdə sözlərim,
Bəzən fəğan olur!

[1] Süni-qüdrət – yaradılış

## ÖZ-ÖZÜMƏ

Bir yarım, bir yarım saatdır ki,
Bir kiçik, ruhsuz nəşidə[1] üçün
Bu qədər zəhmət ilə əlləşirəm,
Quru bir qitə, ya qəsidə üçün.

Ah, ey quşları xəyallarımın,
Niyə məndən qaçırsınız? Durunuz!
Ey əvəzsiz dəqiqələr, sizi mən
Boşa sərf eyləməkdəyəm, əfsus!

Biliræm, bir nəfəsdə, bir dəmdə
Bu təbiətdə bir cahan yaranar,
Canlanar bir həyat, bir xilqət.

Öylə də canlı var ki, aləmdə
Bir saat müddətində həm doğular,
Yaşayar, həm də məhv olar... İbrət!

[1] Nəşidə – şeir, şərqi və b.k.



## GİZLİ DƏRD

Payız, payız... Yenə, sən, ey kədərli, fəsli-xəzan,
Bu qırdığın, xəfif, həssas, zərif budaqlardan
Bu tökdüyün sarı-solğun, zavallı yarpaqlar,
Zavallı göyrək həyat
Bilirmisən necə dərdin açıb tökər, ağlar?..

Əgər bu gün bürüyübdürsə qəlbi dağları çən,
Sabah da qarla təbiət kəfənlənər birdən,
Solar bütün bu çəmənlər, donar bu irmaqlar,
Donar, fəqət, heyhat,
İçin-için yenə hamısında bir məlal ağlar!..

## BİR ƏYYAŞIN QARŞISINDA

"Burax, – deyirsiniz, – əlbət cəzasıdır, çəkəcək,
Həmişə məstü xumarın cəzası zillətdir!.."
Bəli, buraxmalıyıq, bəlkə bir səadətdir
Ki, biz cəza deyirik qafilanə, bilməyərək.

Onun bu halı, bu çirkin, bu düşkün əhvalı,
Cəza da olsa, olur qarşısında xoşca gülən.
Ayılmayır ki, utansın bu pis əməllərdən...
O dərdli guşə onun öz xoşu, öz amalı!

Görün gözündəki rəngsiz soluq bu mənzərəni,
Nə cür görər bu nəzər kainatı?.. Bir boşluq!
Düşərmi xatirinə heç də ev, qadın və çocuq?

Cəzasıdır bu yazıqlar... Fəğanı varmı duyan?
Səfalətin acı zəhri onun diyarından –
Gəlir ki, məhv eləsin bir günahsız ailəni.



## QƏMGİN BAHAR

Bahar olsun, bahar olsun, bu könlüm
Bir az gülsün və şanlansın, deyirdim,
Bu dünya bir fərəhlənsin, deyirdim...
Bahar oldu bütün ləzzətlə, gördüm:
Cahan şandır, behiştdən bir nişandır,
Fəqət könlüm yenə solğun xəzandır.

Bütün rəngilə, ahəngilə gülşən
Gülür nəşəylə, lakin mənce qəmgin,
Təbiətsə gözümdə qəmli, çirkin,
Soyuq bir lövhə, bir dəhşətli mədfən...
Bəli, sərməst axır qarşımda çaylar,
Mənim könlüm deyil bundan xəbərdar.

Ağaclarla bəzənmiş gen üfüqdən
Əsir bir yel, soyuq, buz bir nəfəstək,
Gəlir göylər mənə dar bir qəfəstək,
Yağar sanki yerə hərdəm üfüqdən,
Gəzər bir dərd, müsibət bu havada,
Nədir bunlar, nələr vardır fəzada!..

Uzaqdan bir səda həsrətlə inlər,
Uşaq ağlar sanarsan, bir boğuq səs.
Dolur qəlbim, daha bir şey eşitməz,
Nə bülbül, nə gözəl bir mahnı dinlər, –
Gələn səslər bütün qəmdir, kədərdir,
Çiçəklər də açılmış yarələrdir.

Boğarkən ruhumu zülmətlə şaxta
Gecə artıq nahar[1] olsun, deyirdim.
Bahar olsun, bahar olsun, deyirdim.
Bahar olmaz, bəli, bundan da əla...
Neçin əskilməyir dərdim, məlalım?
Neçin şad olmayır könlüm, xəyalım?!

[1] Nahar – gündüz

## QƏM İNİLTİSİ

Tutarlı zərbələriylə qəzəbli ruzigarın
Düşür, düşür sarı yarpaq, qopub budaqlardan.
Gülür doğan günəşin gözləri uzaqlardan,
Gülür bu matəminə məhv olan zavallıların.

Hücum edir yenə şadlıq məlala, dərdə, yasa.
Dilənçi dul qadının qəmli rəhgüzarından.
Gülüb keçən o bəzənmiş qadınların insan
Gülüşlərində duyur bir amansız istehza.

Mənim də ağlayaraq yazdığım bu şeir ancaq
Ləbində çoxlarının bir fərəhlə titrəyəcək:
Nə ağlayışlar ölüb getmiş öylə, titrəyərək –
Dodaqlarında sevincin, səadətin bu sayaq.

Neçündür, ah, yer üzündə bu əkslik, bu təzad?
Neçün mənim kədərim zövq versin özgəsinə?
Neçün, neçün dönər olsun sevinc təranəsinə
Mənim bu qəmli sinəmdən qopan dərin fəryad?



## VARLIQ BATAQLIĞI

Bəzi çöllərdə gəzərkən görünür nifrətlə,
Bir çuxur yerdə yığışmış bulanıq çirk bir su
Ki, soxulcanla, zəlilərlə, ilanlarla dolu.

Adacıqlar kimi səthində bulaqtək həşərat,
Qamışın kölgəsi altında yığışmış qat-qat
Qaynaşır... Pis qoxusu qəlbinizi hiddətlə

Titrədir bəlkə, fəqət orda qalır gözləriniz,
O zəhər güzgüsünün seyrinə aludə, yenə
Sizi bir cazibə almış, elə bil, pəncəsinə.

Ruhunuz hər nə qədər etsə də, bundan nifrət,
Oraya bağlı qalar diqqətiniz bir müddət,
Ayrıla bilməyərək seyrə dalar gözləriniz.

Belədir, bax, bu həyat – qorxulu, zülmətli bataq,
Bəşərin cəhd ilə, ümmid ilə əl-qol ataraq
Dibinə düşdüyü girdab belədir... Hər nə qədər

Bu qaranlıq gecənin qoynuna daldıqca bəşər,
Çırpınır qeyz ilə, nifrətlə, fəqət qətiyyən
Bu gediş durmayacaqdır əbədi seyrindən.

## FƏNƏR

Uzaqda bir mütərəddid ziyayi-bimənə,
Yolun yağışla yaşarmış üzündə hey dolaşır.
Üzər, qopar, qırılar, bir kiçik nəfəslə həva,
Görər zavallıya min titrəyiş cəfası rəva.

Baxarsınız mütəfəkkir, sürəkli göz yaşına;
Bu indi bir nəzəri-aşiqanədir ki, daşır –
Zəif qanadları üstündə bir şəbi-xülya...
Baxarsınız nə tələşlı, işıqlı, bir röya.

Bu indi nəşəli bir qəmzədir, əmərpərvər;
Fənər o ruhların eynidir ki, qərqi-xəyal,
Yaşar bütün gecə ümmid ilə sabaha qədər.

Mənim xəyalıma ən çox bu halıdır toxunan
Ki, dan yeri ağararkən zavallının dili lal,
Sönər yağışların altında gözləri giryan.



## BALIQÇILAR

*(İkinci)*

Qəhrin hər zərbəsinə açıqdır sinələri,
Var-yox bircə qayıqdır bütün xəzinələri.
Bircə qayıq və bir də tükənməz cürət, hünər,
Çalbığlı, yanıqüzlü bu çalışqan igidlər
Ki, torun hər telində onları ölüm güdər.
Soruşun bu əzaba nə üçün qatlanırlar?
Qorxunc qəm girdabında nə üçün çalxanırlar?
Yox, yox... Sual nə lazım!.. Həqir görünən bəşər
Kəlləmayallaq gəzən bir oyunbaza bənzər
Ki, xalqı güldürməkçin əlləri üstə gəzər...
Bəli, güldürmək ilə qazanmaq üçün bir az...
Həyatdan doymaq üçün əlləş, yazıq oyunbaz...

## ZƏRRİŞTƏ

"Yaz eşqinə dair" – dediniz: xırda uşaqkən
Nadinc, yaramaz bir pişiyim vardı, gözümdən
Qoymazdım onu; mürgüləyərkən qucağımda
Qəlbimdəki şəfqət
Titrədi onunçün; gecə yumşaq yatağımda
Birlikdə yatardıq; buraxıb məktəbə getsəm,
Şiddətli bir həsrət
Mütləq məni diqqətsiz edər: "Hey qoca sərsəm!"
Töhmətlə, məzəmmətlə guruldardı başımda.
Mən aşiqi-şeyda
Hər zülmə edib səbir sevərdim... O yaşımda
Eşqin fərəhindən pay alıb məsud olardım
Hər kəs kimi, hətta
Bəzən qapılıb hissə, səbəbsiz tutulardım...

Zərriştə idi ismi onun... Olsa xəbərdar
gizlin kədərimdən,
Yaltaqlanar, oxşar, sürünər, sıçrayar, oynar,
Dərdim unudulsun deyə bir çarə tapardı.
Lakin üzərimdən
Qalxınca o qüssə, o kədər, qürrə satardı:
"Sayəmdə bu nəşən!" – demək istər kimi məğrur,
Məğrur və ədalı,
Başlardı vəfasızlığa; gördükdə bu halı,
Hər nazı, – deyərdim, mənə məqbul, mənə xoşdur.
Gah heyrət edər tək,
Gah hökm verər tək, fəqət hər halda onun mən
Ən şübhəli bir meylini görsəm, inanardım,
Biçarəliyimdən
Hey cırmalanar, cırmalanar, cırmalanardım!..
"Yaz eşqinə dair" – dediniz... Bax bu da eşqim!
Sevdiklərimin mən
Hamsında bu dırnaqlar ilə üz-üzə gəldim;
Hamsında bu nadinc pişik əhvalını gördüm,
Dünyası cəhənnəm bir ömür zövqünü sürdüm!



## AYRILIQ GECƏSİ

Oh, gəl biz də təbiət kimi sərməst, xamuş
Bu vəfasız gecənin qoynunda,
Gəl, qalaq bir əbədi saniyə dalğın, bihuş...
Kim bilir, bəlkə də bu son dəmidir sevgimizin,
Belə hər ləhzə səadət sayılır ömrə yəqin!..

Ooh, bax dalğaların cazibəli həmləsinə,
Elə bil hər biri sevdaya açıq bir sinə.

O qədər dinc və sakit, elə dalmış hər yan,
Sanki hər şey yuxuda, az qala qorxur insan.

Ooh, gəl, gəl də bu tənha yerə birlikdə gedək,
Orda sənsiz keçəcək günlərə bir çarə edək!

Qara bir quştək hər an uçmağa amada olan
Bu vəfasız gecənin qoynunda,
Gəl edək biz əbədi qalmağa əhdü-peyman...
Kim bilir, bəlkə də bu son dəmidir eşqimizin,
Belə bir ləhzə səadət sayılır ömrə yəqin!

## MÜVƏQQƏTİ BİR HİCRANDAN SONRA

Sakit soruşurdun məndən: "Giryan nə deməkdir?"
– "Giryan?.. Onu heç anlamıram mən də..." – deyirdim,
İnkar eləyirdim.

Dalğın soruşurdum səndən: "Hicran nə deməkdir?"
– "Hicran?.. Onu heç bilməyirəm mən də..." – deyirdin,
İsrar eləyirdin.

İnkar eləyib, saymayıb əsla bu həyatı,
Sevdamızı qəflətli bir aləmdə yaşatdıq.
Amalə bir əyləncə bilib cümlə büsatı,
Xülya beşiyi içrə uşaqlar kimi yatdıq...

Yatdıq, uyuduq, sevgiyə, röyaya inandıq,
Üfqün o dərin sinəsini oxşayan atəş
Hər gün bizi şəfqətlə qucaqlardı... Qaranlıq
Məchuldu bizə... gördüyümüz nuru-nəvaziş!

Xülyalar içində belə asudə uçarkən,
Bir zərbə ilə yıxdı həqiqət bu xəyalı.
Öyrətdi həyat ən acı bir dərs ilə birdən
Ən giryəli hicranı... bütün dərdü-məlalı!..

Bax, indi soruşsam səndən: "Giryan nə deməkdir?"
– "Giryan?.. Onu heç anlamadım mən də..." – deməzsən,
İsrar eləməzsən.
Məndən də soruşsan ki: "De, hicran nə deməkdir?"
– "Hicranmı? Bəli!.. Ah onu inkar edə bilsəm,
"Bilməm!" deyə bilsəm!.."



## SÜKUT İÇİNDƏ

Sükuta daldı bu bir həftə çırpınan, bağıran,
Haray salan dəli tufan yavaş-yavaş senərək.
Vücudunu gecənin bir sükutdur indi saran,
Dənizdə solğun, əzik bir nişanə tufandan.

Hava ağır... Yorulan bir əməl zəifliyi var
Fəzada, yerdə, nəbatatda; son yağan qarlar.
Bataqlı döngələrin zülmətində çox seyrək
Gəzən adamları qoymur açıqda... Qüssə, qubar

Saçan hürüşlə bu səssiz, bu nəşəsiz gecənin
Yatan rahatlığımı dişləyir bir it hərdən.
Evimdə pəncərəmin sisli arxasındasa mən

Sabah bu bir gecəlik intizara ağlayacaq,
Təranəmin acı laylalarında qıvrılaraq
Sabahı gözləyirəm... gəlməyir fəqət xain.

Sükut içində... Fəqət tək mənəmmi qüssələnən?
Təbiətin də böyük bir məlalı var bu gecə,
Onun da hüznü səmimi, dərin, zərif, incə.

Onun da matəmi bir dul qadın ki, yasla keçən,
Fəlakət ilə ötən bir həyatı nəql eylər,
Başında vaxtsız ağarmış gümüş kimi tellər.
Onun da gözləri yaşsız deyil; budaqlardan

Düşən bu damcıların səssiz ahı, əfqanı
Gileyli həsrətidir... Ey cəfama sirdaş olan,
Sən ağla, mən də bu göz yaşlarımla öz nigaran

Qapımda gözlərəm; əlbət, gələr, deyər: – Bu nədir?
– Sənin qəmin, – deyərəm, – sən eşitdiyin bu nəva
Amansız ayrılığındır; məni mükəddər edir
Siz olmayanda susan, boş qalan bu yurd, bu yuva!

## TƏSADÜF

Neçin o çöhrəni görməklə titrədim birdən,
O gözlər içrə neçin gizli bir baxış aradım?
Həvəs dalınca yüyürmək deyil mənim muradım,
Neçin o gözlərə baxdım həvəslə öylə ikən.

Neçin? Neçin? Bu "neçin"lərlə indi pürhəyacan,
Dilimdə titrəşir, inlər sitəmli nalələrim.
Qəbahətim bumu ki, seyr edib onu nəzərim,
Dodaqlarında sönərkən gülüşləri pünhan?!

Bu üz yabançı deyildir xəyalə getdikcə,
Fəqət, yazıq, nə xəyal var o nazlı dilbərdə,
Təsadüfüm nə həzin oldu öylə bir yerdə.

Sən, ey səfil və uğursuz kədərli, xoflu gecə!
Soyuq-soyuq nə baxırsan? Sənin o bəd nəzərin
Rəvamı hüsnünü pozsun bu saf təmiz gühərin?!



## İKİNCİ TƏSADÜF

Bu gün o çöhrədə xoş bir nəzərlə tuş gəldim,
Didişmədən qayıdırdım qəmi-həyatımla.
Dedim ki, sonra: "Bu qəmgin təəssüratımla
Açıqca gözyaşı töksəm... və olmasam nadim![1]"

O sanki fikrimi bilmişdi, nagahan hürkək
Qədəmlər ilə mənə baxmadan ötüb getdi,
Günəş sonuncu şüanı saçıb, qürub etdi,
Bu kirli torpaq ilə daimi vida edərək.

Səma buludlu, dumandı, o qız da qarşımdan
Keçib gedəndə soyuq bir yabançı görkəm ilə
Bütün qərarımı kafi göründü təbdilə...

Dedim ki: "Artıq həqiqət bu, hər qüsuru yalan;
Həvəs dalınca yüyürmək deyil mənim muradım
O gözlər içrə fəqət bir nikahi-eşq aradım".

[1] Nadim – peşman

## SON TƏSADÜF

Acıqlı oldu bu çox... bir qəribə xahişlə
O gün gəzintiyə çıxdım, səma da tutqun idi.
İçimdə bilmədiyim bir fərəhli təşvişlə,
Yerin bu qəm gətirən haləti də uyğun idi.

Gəzirdim öylə çəmən tazə, ortalıq tənha
Uzaq-yaxın bütün əşyada qəmli bir böhran
Təbiətin belə məhzun vəziyyətində, büka[1]
Gözəldi doğrusu, indi, bahar içində xəzan.

Önümdə bir üfüq parçalandı, qan etdi:
Rəfiqi bir sarışın, şux cəvanə söykənərək,
O keçdi, süslü, şətarətli, nazlı, duzlu mələk.

Bəli, o keçdi o həm baxmadan keçib getdi,
Günəş də indi üfüqdə gülüb saçırdı ziya
Edirdi sanki mənimlə uzaqdan istehza...

[1] Büka – ağlayış, nalə



## ÇİRKİN

Bürüşük xətləri şişkin üzünün
Açılır şübhəli bir saflıqla.
Zənn edərsən ki, gülümsər, amma
Bir çuxurdan baxışilə gözünün.

Ruhunun dərdi bütün hiss olunur,
Başqa bir möhnəti, bir zilləti yox,
O da hər kəs kimi, lakin mənfur,
Ah, çirkinlik! Onun rahəti yox!

Nə zaman baxsa sönən çöhrəsinə,
Gərilir inləyərək hər əsəbi,
Oxlanır sanki pərişan qəlbi.

Ən fəlakətli təsəvvürlərlə,
Tüpürür kirli təəssürlərlə,
Xilqətin saf görünən çöhrəsinə.

## TƏSƏLLİ PƏRDƏSİ

Baxın, həştad yaşında bir sail,
Yaşamış kainatı görməyərək.
Yaşamış, mövtə olmamış qail[1],
Yaşamaq ayrı, görmək ayrı demək.

Qara şeylər gözündə toplanmış,
Göz açıldıqca ruh pərdələnir.
Acı bir lövhə, şübhə yox, yaşayış,
Görməmək ən böyük təsəllidir.

Ey qoca, ey baba, sənin nə qəmin?
Səni görməklə mən, mən amacam[2]
Yenə bir çox əzaba, dərdə... Sevin,

Baxıram bil ki, qibtə ilə sənə.
Bax, bu gün mən də, mən də möhtacam
Səndəki o təsəlli pərdəsinə!

[1] Qail – razı
[2] Amac – hədəf, nişan



## BİR AN RAHATLIQ

Seyr eyləyirəm çeşmi-xəyalımla uzaqdan,
bir daxma diləfruz.
Üstündəki solğun və yanıq rəngli ocaqdan,
Yüksəlmədə bir incə duman, əyri və sonsuz.

Parlaq, ləkəsiz qarların altındadı hər yan,
sakitdi sərasər.
Bir kənd, o sükunətlə əzilmiş kimi pünhan
Hər yer o sükunətlə yenə cənnətə bənzər...

Mən sürmədəyəm indi xəyalimlə bu kənddə
bir kəndli həyatı.
Qarşımda ocaqdan çıxan ağ tüstü içində
Sanki əriyir, sisli həyatın zülümati[1].

[1] Zülümat – qaranlıqlar

## MAVİ DƏNİZ

Saf və sakit... Hanı axşamkı o coşqun həyəcan?
Bir uşaq ruhu qədər tez unudan,
Bir uşaq ruhu qədər saf, ləkəsiz
Uyuyur mavi dəniz.

Mən bütün bir gecəlik ah ilə fəryadımla,
O pərişanca xəyalatımla
Natəvan, yorğun, tək
O xumar saflığını seyr edirəm vurğuntək...

Yox, bulandırmasın əsla bu həzin, qəmli nəzər
O təmiz ruhunu, ey mavi dəniz!
Ah, lakin nə zərər,
Mən bu gözlərlə kədərli, aciz,
Sənə baxdıqca təsəlli tapıram, aldanıram, –
Mavi bir göz də mənim dərdimə ağlar sanıram.



## XƏLUQUN SƏSİ

Səsin xoş hər təranədən,
Nələr deyir, bilirmisən?
Deyir: "Hava toranlaşar, günəş doğar, nahar olar,
Boran keçər, bahar olar,
Cahan bənövşəzar olar,
Çiçəklərin təravətindən ətir alan bu gənc nəsil
Gəzər, qoşar, uçar, gülər... Gülər həyat, gülər fəsil;
Gülər bütün təranələr,
Gülər bu yurd-yuva gülər;
Bu qar, bu qış, bu şaxtalı külək ki, titrədir səni,
Bu atəşin soyuq, bu buz ki, yıxdı ruhi-gülşəni,
Bu ağ qanadlı qar ki, doğrusu, üşütməyir məni.
Bəli, bu ağ qanadlı qar
Sevincimə sevinc qatar.
Həyata istilik verən günəşdən etməyib təlaş,
Dönüb suya axar, yerə həyat verər yavaş-yavaş;
Zaman keçər, bahar olar
Cahan bənövşəzar olar".

Mələk balam, atan sənin səsinlə bəxtiyar olar
Səsin xoş hər təranədən,
Nə cansan, heç bilirmisən!

## XƏLUQUN BAYRAMI

Atan deyir ki: – Sevinmək uşaqların, yalnız,
Uşaqların payıdır, ey gözəl balam dinlə,
Fəqət sevincinlə
Nələr keçir xəyalımdan, bilirmisən?.. Atasız
Və naümüd nə qədər oğlanın, qızın indi
Dönüb təranəsi hüznə – kədərli, nisgilli!

Çıxart o paltarı, artıq sevindiyin bəsdir,
Çıxart bir az da bu öksüz geyinsin, əylənsin,
Bir az gözəllənsin,
Gülümsəsin üzü bir az... Dedim, sevinməkdir
Uşaqların payı, lakin sənin sevincinlə
Sevinməyir bu yetim, ağlayır... Xəluq, dinlə!



## SABAH

"Çalış, çalış ki, sabah bəlkə istirahət üçün
Bir istifadə edərsən bugünkü səyindən..."
Bir istifadə... Sabah... Bəlkə... Mən bu kəlmələrin
İfadə etdiyi xam bir ümidə aldanaraq,
Bugünkü zövqümü bir şübhəli səadət üçün
Tutub xarab edəcək, sonra sanki körpələrin
Əlilə qırdığı qiymətli bir oyuncağına
Peşiman olmasın tərzində ağlayıb duracaq
Qədər uşaq deyiləm; dəftəri-həyatın mən
Bu gün önümdə açılmış duran bu yarpağına
Bugünkü ömrümü qeyd etmək istərəm ki, sabah
O, bir uşaq ki, bu gündən təvəllüd etməyəcək
Nə cür bu halımı qurban edim sabah ki, ah,
Keçib yox olmuş həyatım təcəddüd[1] etməyəcək...

O gün dərincə düşünmüş, yaman yorulmuşdum,
Və: "Böylə boş yerə fikr etmədənsə bir kərrə
Bütün həqiqəti qurban edib ətalətimə
Bir az da rahat olaydım!" demiş, bu səfsətədən
Başım dönər kimi olmuşdu, sanki sərxoşdum,
Amansız isti də təsir edirdi halətimə.
Dayandığım yerə bitab düşmək üzrə idim,
Bu dəmdə gəldi Xəluqun səsi qulaqlarıma,
Bu səsdə vardı mənimçin xoş, incə bir məna...
– Xeyr! Mələk çocuğum bir yalandı söylədim,
Mənim olanca sevincim, fərəhlərimlə fəda
Çocuqca, nazlı, kiçik bir dəqiqə şövqün üçün,
Sabah gözümdə səninlə gülür bu dünyada,
Bu gün çalışmalıyam mən sabahkı zövqün üçün.

[1] Təcəddüd – təzələnmə

## YAŞAMAQ EŞQİ

Saf və məsum, sanki bir zanbaq,
O qədər saf idim ki, fikrimdən
Keçə bilsəydi bir gün aldanmaq,
Yaşamazdım, ölüb gedərdim mən.

O zamanlar bu ən asan şeydi:
Eyni bir zanbağın məmatı kimi
Soluxardım; fəqət bu gün, indi
Bu soyuq torpağın həyatı kimi

Solmayan bir həyatdır istədiyim,
"Yaxşı ya pis, fəqət həyat olsun".
Deyirəm, indi xatirim, fikrim
Bu əzablı ümidədir vurğun.

Yaşamaq... Başqa ehtiyacım yox,
Yaşamaq, həm uşaqtək aldanaraq,
Böylə illərcə daima bir çox
Qəmlər altında can çəkib yaşamaq...

Böyüyür get-gedə bu duyğu hələ,
Sanki bir tifil o, bir sevimli uşaq.
Yaşamaq eşqi məndə hər əmələ
Bir yeganə pənahgah olacaq.



## İNANMAQ EHTİYACI

Bütün boşluq: yer-göy boş, ürək də, vicdan da boş...
Əl atmaq istəyirəm, önümdə bir nöqtə yox.
Bütün boşluq... Hərlənir dövrəmdə qorxunc boşluq,
Beynim də hərlənməkdə, iradəm sanki sərxoş.
Ümidim hər addımda sürüşüb dəyir yerə...
Bu elə qürbətdir ki, düşmüşəm sanki qəbrə.
İnanmaq – bir mənəvi qucaqdır bu qürbətdə.

Qaranlıqdır: hər tərəf qorxunc, uzun bir gecə...
Qaranlıqdır: bilik, elm, zülmətdə əql-ürfan.
Bütün ruhuma acı bir soyuqdur hökmran,
Qatı zülmət içində hər şey nəzər etdikcə.
Həqiqətdən bir əsər görünməz bircə zərrə...
Bu dəhşətli qaranlıq bənzər qaranlıq qəbrə.
İnanmaq – bir işıqlı yoldur həmin zülmətdə.

## QILINC

Çəkic altında dəmadəm döyülür günlərcə,
Bir dəmir parçası heybətli qılınc olmaq üçün.
Sonra yatmaqla keçir ömrü meşin qında bütün,
Çəkərək işgəncə.

O dəmir parçası bir gün bir əhəmiyyət alar,
Qoca bir xalqın olar baisi-istiqlalı;
Qoca bir millətin heysiyyəti, namusu, malı,
Ona minnətdar olar.

O zaman sən elin azadlığı uğrunda müdam,
Çarpışan ən cəsur, ən zəhmli bir əldə əyan
Olaraq qan eləyirsən yağının bağrını, qan.
O zaman ən nakam

Qəlbə şövqünlə nicat hissi axır çağlayaraq.
Sənə baxdıqca baxışlar da parıldar birdən,
Ey zəfər şimşəyi, ey şölə çəkib şölələnən
Şanlı-şövkətli yaraq!



## QƏM QƏHQƏHƏSİ

Əsir payız küləyi, acı-acı ulayır,
Çırpınır pəncərəyə azğın nərə çəkərək.
Uyub bu azğınlığa bir-birini qovlayır,
Dalğalar coşub-daşır qudurmuş canavartək.

Başqa səs eşidilmir... Gecə, sakitcə hər yan...
Təkcə onun nərəsi uğuldayır durmadan.
Hər bir tərəf qaranlıq... Tufan, yağış və zülmət
Acı duyğular ilə verir qəlbimə dəhşət.

Elə bil qiyamətdir, dünya batacaq, heyhat,
Belə qorxunc röyalar doludur, bəli, həyat.
Sonra bircə təbəssüm, bircə parıltı bəzən
Ruhumun gecəsini döndərir sübhə birdən.

Çırpın, ey xəzan yeli, pəncərəyə, coş, gurla!
Sakit-sakit baxıram həqarətlə, qürurla.
Qudur sən də, ey zülmət, nə bacarırsan eylə;
Gülürəm mən bunlara qəmin qəhqəhəsilə.

## ZƏVALLI "ƏVƏT"

Xülasə... Dostumuzun müddəası aydındı:
"Nədir, – dedi, – bu fikirlər, bu səbkü tərzi-bəyan?
Məalı yox, yeni ali əsər qoyulmuş adı,
Adam ziyalıların cəhlinə qalır heyran".

"Nədir, – dedi, – yenilik, bu yeni söz icadı?
Nə gördünüz bu qəsidə, bu xoş qəzəllərdən?"
Gətirdi sonra misallar qalınca dəftərdən
Ki, bax budur dediyim müddəanın isbatı.

Mənim o dəmdə gəlirdi xəyalü diqqətimə
Səfalı əksi kimi gizli bir müşairənin
Həzin təranəsi bülluri bir kiçik dərənin.

Bununla hökm edin istərsəniz ləyaqətimə
O boş laqqırtıları dinlədim də bir müddət,
Axırda boynumu bükdüm dedim ki: "Düzdür, əvət!"



## PUL VƏ HƏYAT

"Bu çox gözəl, baxınız, çox gözəl bu, çox zəngin..."
Və bir uşaq kimi çiynində incə bir pelerin[1]
Bu qızcığaz dolanır qarşınızda, zorla gülür.
Bəyəndinizsə: "Gözəl!" Yoxsa, heç sıxılmayaraq;
"Gözəl deyil!" deyə rədd eyləyirsiniz... Bir haqq.
Bu haqq sizin cibinizdən parıl-parıl tökülür.

Parıl-parıl... Bizə hər haqqı bəxş edən bu dəni,
Bu yırtıcı, bu amansız parıltıdır ki, qəni
Və ya kasıb, ona hər kəs əsirdir, quldur.
Həyatı ondan, o zalımdan axtarır insan.
Zavallı qız, səni qarşımda döndərən də haman
Odur, o yırtıcı qüvvət, o biaman puldur.

[1] Pelerin – paltar üstündən geyilən çiyin örtüyü

## BİR AZ ÜMİD

Bir az həyat və hərarət – bu cismi-nalanə,
Bir az çiçək – bu həzin qəbrə bənzəyən canə;
Könül səadətə əsla inanmaq istəməyir
Bir az ələm bu donuq ruha, qəlbi-suzanə!

Həyat için çəkilən hər əzab, hər zillət
Soyuq bir hiss ilə oldu bu nəfs üçün afət.
Durur, baxır iki iyrənc nəştək indi,
Xəyalının qara küncündə qəhrlə şəfqət.

Bir az soyuq gecəyə bir günəş şüası dola,
Bir az bu köhnə qədəhdə yeni fərəh duyula.
Mühitimin məni yekparə səngixarə[1] kimi
Sıxıb əritdiyi dəmlər... bir az ümidim ola!

[1] Yekparə səngixarə – bütöv qranit



## HEYKƏLİ-SƏY

İşıqlı bir gülüş qopduqda yüksək zirvədən, zülmət
Pərişan bir bulud halında titrərkən biyabanda,
Səmada bir gurultu kainata doldurar dəhşət,
Qımıldar bir qara əjdər kimi səhrayi-tufanda.

Bütün dünyanı tutmuş boşluq içrə eyləyib şivən
Xəyalətlər gəzərlər, bir-birilə hey tutub əl-ələ;
Belə dəhşətli bir həngameyi-zülmətdə bir heykəl
Baxar laqeydü ülvi, bir dəmirdən payə üstündən.

Sus, ey dünyanı dəhşətlər içində saxlayan kabus!
Bütün xilqət sənin gah təmtəraqlı, gah da zillətlə
Taparkan ən kiçik nəfxəndə[1] bir şadlıq və ya matəm,

Bu ülvi uyqusuz heykəl durar hiddətli həm məyus
Sənin qarşında, hər şeydən uzaq, hər nəşəsi bir qəm
Əyilmək bilməyən bir surəti-məğruri sənətlə.

[1] Nəfxə – nəfəs, üfürüş

## HƏYAT

Bu gün həyatı tükənməz bir ehtiyaci-siyah,
Bu gün səadəti qafil bir halda puçluğa cəhd,
Bu gün tənəffüsü yorğun, üzüntülü min "ah!"
Olan bu cəmiyyət,
Bu gün zəhərli həyatın təkində xürrəm üzən,
Bu gün əziz balasından tərənə gözlərkən,
Fəğan duyan bəşəriyyət, bu zübdeyi[1] xilqət
Nədir, bilirmisən, oğlum? Önündə silkələnən
Bu mavi dalğaya bax, indi qəflətən səni mən
Götürsəm atsam onun tərki yox dərinliyinə,
Özün düşün, nə olar? Qorxu bilməsən də yenə,
Təhəmmül eyləməyib çırpınarsan, ağlarsan;
Sənin xilasın üçün olmaz əl-qolunda tavan.
O mavi şey səni udduqca istəyərsən aman,
Fəqət xilas olmazsan; çiyinlərindən hər an
Polad kimi mətin əllər tutub səni itələr.
Nə çarə, sonda batarsan... Budur həyati-bəşər!

Xeyr, bu taleyimə varis olma, övladım,
Sabah ümid eləyirlər ki, bir böyük addım,
Ya sıçrayış, – nə deyirlərdi, yaxşı anlamadım, –
Həyatı qurtaracaq;
Bəşər – bu gün sürünən, iztirab çəkən o naxoş
Sabah uçuş edəcək zirveyi-xilasə uçuş...

İnan, Xəluq, əzəli bir şəfadır aldanmaq!

[1] Zübdə – bir şeyin seçməsi



## İZLƏR

– Hürriyyət yolunda –
Gedirdim, bir az güclə dalğın, vəqur
Tikənlik, çətin, daşlı bir sahədən.
Önüm bir yoxuş, hər tərəf toz, tikən,
Gedirdim, fəqət mən inadlı, səbur[1].

Bu yol böylə qalxırdı bir minbərə,
Keçidlərdə heybətli bir məqbərə,
Səmasında al bir günəş görsənirdi...

İnamlı yerişlərlə aldım ayaq
Bayaq müztərib keçdiyim sahədən.
Yolum eyni şey: hər tərəf toz, tikən,
Gedirdim, fəqət mən yoxuş qalxaraq.

Keçirdim basıb yoldaki izlərə,
Əyildim bir az diqqət yetirdim yerə:
O izlər mənim, tək mənim izlərimdi.

[1] Səbur – səbirli

## SABAH OLARSA...

*Bu məmləkətdə də bir gün sabah olarsa,* Xəluq,
Əgər bu məmləkətin göylərində bir pərvin
Parıldayarsa və heç vaxt üzülməyən bir əlin
Şəfalı qüvvəti altında silkinib bu donuq,
Bu paslı üz, bu zavallı vətən gülərsə... – O gün
Mən ölməmiş belə olsam, həyatə bir ölgün
Əlaqəm olmalıdır, şübhəsiz, o gün məndən
Ümidi kəs, məni darğın və boş mühitimdə
Müsibətimlə unut, çünki qəmli, pəjmürdə
Nəzərlərim səni keçmişlə bağlar, amma sən
Bütün-bütün gələcəksən bu varlığınla, sənin
Tərənnüm eyləyir ələn qulaqlarımda səsin.

İnan, sabah olacaqdır, sabah olar, gecələr
Çəkib qiyamətədək sürməz, aqibət bu səma,
Kiçik günəşləri, artıq birər-birər oyanın!
Həyatə nəşə günəşdir, məlal içində bəşər
Çürür bizim kimi, siz ey sabahki dünyanın
Kiçik günəşləri, artıq birər-birər oyanın!
Üfüqlərin əbədi iştiyaqı var nura,
Oyanma əsrimizin ehtiyacıdır, gerçək!
Silin buludları, məhv eyləyin və bilmərrə
Ziya içində gedin bir nicatə yüksələrək.
Ümidimiz bu: ölürsək də biz, yaşar ancaq
Vətən sizinlə bu zindan qaranlığından uzaq!



## KEÇMİŞ... GƏLƏCƏK

*Keçmiş o gahi kölgə ikən, gahi bərhəyat*
Bir cism olan, o gahi ölən, gah da canlanan,
Varlıq, bəli, o dalğalı, pəjmürdə xatirat
İnsan için nədir? Bəli, insan doğulmadan.
Ölməklə çarpışıb da dözür hər bəlaya çox.
Keçmişdə bir səadətə çatmaq olarmı? Yox.

Ölmək həyatı tazələməkdir, biz ölməsək
Bədbəxtlik üz verər yəqin, ömrü cəmiyyətin
Bir cümleyi-təkamülüdür hikmətin, demək.
Bir fikri müştəreklə qımıldar bu həyətin
Sonsuz cisimləri: uyumuş, canlı zərrələr,
Bir sözlə, kainatı nizama salır bəşər.

Keçmişdə qabil olsa səadət, bəqa, sübut,
Ati[1] nə cür xəyal edilər? Qüvvəsiz xəyal,
Durğunluğun içində pozar aləmi sükut.
Ancaq cahanda mürgüləyər bir qəribə hal.
Bitmiş, dağılmış, həm yoxa çıxmış qərinələr,
Diqqət yetir, budur əbədi keçmişə nəzər.

Keçmiş o bir müəllim, o bir pir, o bir ata,
Halın tutub sinirli əlindən yox axtarır,
Təmkinlə hey çəkir gələcək günlərə... və ta –
Atinin üstünə səhərin feyzi nur saçır.
İdrak üçün nə varsa fəzada bilinməli,
Ati çıxınca ortaya, keçmiş silinməli!

[1] Ati – gələcək

## CAVAB

*Cənabın bir məktubuna*

"Ola bildinmi, barı, sən xoşbəxt?"
Deyə sordun, baxışlarında fəqət:
"Yox, bu mümkün deyil, deyil əsla!"
Söyləyən bir gülüş, bir istehza:
Yeridir, olmasaq bu gün xoşbəxt.

Mənə səndin deyən ki: cinsi-bəşər
Diri leşdir: yeyər, içər, söylər.
O nədir? Hey yalan qusan bir ağız,
Qan-irindir o, qan-irin, yalnız.

Yekəpər, bir qarın, kiçik bir baş,
Az düşün, çox tıxa, çalış, uğraş!

Quyudur qəlbi – ehtiras quyusu,
Torbadır – yoxsa ehtiras, arzu,

Beyni bir müztərib cihazdır lap,
Onu qaldır, qalar çürük bir qab.

Bir sinir pəncəsində hər istək,
Əzəlat[1] ehtizazıdır[2] gülmək.

Bir vüqar pərdəsində alçaqlıq,
Gözüac, ehtiyac və bədxahlıq.

Daima kirli, kirlənən bir əl,
Daima alçaq, alçanan bir əməl.

[1] Əzəlat – əzələlər
[2] Ehtizaz – titrəyiş



Daima zorlayan, qıran, devirən,
Məhv edən, sonra məhv olan bir tən.

Bu zəhər qarşısında sən "xoşbəxt
Ola bildim" desən də xülyadır.
Anlaşılmaz o kölgəli dəhşət,
Məsud olmaq, inan ki, röyadır...
Ola bilməz qanan, görən xoşbəxt!

## BACIM ÜÇÜN

*Anama*

Biz uşaqdıq. Səni dəfn eylədilər
Bivəfa torpağa bihiss əllər.
O zamandan bəri mən həsrətlə,
İztirablarla düşündükcə belə,
Səni bir guşədə giryan görürəm,
Sonra qumlarda pərişan görürəm.
Bir tikan bəlkə dəlili-qəbrin,
Dəvələr bəlkə ziyarətçilərin,
Kim bilir, bəlkə xəyaldır bunlar,
Nə tikan var, nə ziyarət, nə məzar,
Nə də sən... Mənsə bu gün dərdimlə
Səni inlətməyə gəldim, dinlə.
Hardasan, dinlə, nə halda varsan:
Toz, bulud, ruh, mələk, daş və tikan.
Bunların hər birini ağladacaq
Bir cinayət ki, qəvanin[1], ədyan[2]
Qoymamış ismini, lakin vicdan,
O böyük hakim, o Quransız din
Verəcək hökmünü lənət, nifrin!

* * *

Bu lənət ilə fəqət titrəyirmi vicdanın?
Sorun fəziləti təhqir edən səfillərdən,
Sorun təmizliyi kirləndirən rəzillərdən,
Bu lənət ilə bu gün inləyirmi vicdanın?
Sorun bu hüsnü zəhərləndirən o əjdərdən[3].

Yazıq, yazıq, bacım! İnsan təsəvvür etdikcə
Sonunda torpaq olan dərdini, fəlakətini,

[1] Qəvanin – qanunlar
[2] Ədyan – dinlər
[3] Əjdər – ilana bənzər xəyali bir heyvan



Dözüb dayandığın on səkkiz il müsibətini
Təhəmmül etməyir... Artıq bu böylə getdikcə
Könül zəhərlənəcəkdir, anıb kəramətini.

Həvəslə ilham alırdın sən hər gözəllikdən,
Kiçikliyində də çox incə hissə mail idin,
Dərin xəyalə, böyük qəlbə, ruha nail idin.
Ən ibtidada mənə şeri öyrədən sənsən,
Uşaqlığınla bərabər zərifü aqil idin.

Qarışmasaydın əgər sən bu çirkin ailəyə,
Qalardı bəlkə qadınlıqda bir böyük yadın,
Yaşardı bəlkə onun kölgəsində övladın.
Sən enmədin, səni endirdilər o məzbələyə[1]
Sən ölmədən, səni öldürdülər, zavallı qadın!

* * *

Öldürdülər, bu həm də bu gün, indi olmadı,
Çoxdan gömüldü gəncliyin, eşqin, gözəlliyin,
Qəlbin, qadınlığın, şərəfin, istirahətin,
Bir an didikləməkdən o xain yorulmadı,
Soldun tikanlı pəncəsi altında vəhşətin!

Yumruq, təpik, kötək... Bu sənin qismətin deyil,
Ey paklığilə eldə qürursuz misal olan!
Ey hər təbəssümündə həya nuru parlayan!
Yumruq, təpik, kötək... Sonu ömrün bu cür zəlil,
Yumruq, təpik, kötək... Sonu torpaqla yanbayan!

Əlbət, deyil nəsibi həqarət qadınlığın,
Əlbət, deyil mələkliyin ümidini zülmü şər,
Əlbət, səfil olarsa qadın, alçalar bəşər!
Lakin bu gün, bu hallara aid yığın, yığın
Əndişələr, kədərlər, əziyyətlər, iynələr!

[1] Məzbələ – zibillik, zibilxana

Ey çarəsiz bacım, əzilib bitdin, öyləmi?
Ən sonra əzdilər səni, öldürdülər səni.
Mən yıxmaq istədim qurulurkən bu mədfəni[1].
Lakin xəta buraxmadı: alçaq, cəhənnəmi
Bir qüvvətin əlində bəzənmiş, fəqət dəni.

Bir qəbr olan mühitə köçürdün həyatını,
Cəbrən sürüklənən kimi getdin addım-addım!
Arxanca mən bu hələ, bilirlər, çox ağladım.
Qaldın bir öylə yerdə ki, hətta vəfatını,
Mən yaşlı gözlərimlə uzaqdan salamladım.

Bilməm ki, indi hansı müsibətlə ağlayaq,
Bir gənc qızın bu məhv oluşu bir böyük kədər,
Məhv olmağın səbəbləri də başqa zərbələr.
Lakin bu gənc qızın əbədi eşqə müstəhaq[2]
Bir qəlb ikən əzilməsi... Məhv olmadan betər!

Bəzən fəlakətin də olurmuş xeyirlisi:
Qurtuldun hər dəqiqə də yüz kərə ölmədən.
Öldürdülər fəqət, məni yalnız bu, titrədən.
Ölmək deyil, bu öldürülüş ən qəhərlisi,
Çəkdiklərinlə inləyirəm ən ziyadə mən!

İsminlə, ey o pak qızı təhqir edən səfil,
Poz, başdaşından artıq o xətti-xəcaləti,
Kölgən qaraldacaq o təmiz alnı, səfvəti[3]...
Sən varlığında bir yara oldun, rəzil, çəkil,
Torpaqda barı inləməsin, ruhu, isməti!

Siz toplaşın başında bu nəşin, bu son qəmin
Siz ey qadınlığın əbədi iştikaləri[4],
Ey zillətin, zəifliyin irsi cəfaləri,
Siz toplaşın və ağlaşaq, ey siz, bu matəmin
Ən doğru, ən yaxın, ən əsil aşinaləri!

---
[1] Mədfən – məzar, məzarlıq
[2] Müstəhaq – haqqı olan
[3] Səfvət – təmizlik, saflıq
[4] İştika – şikayət etmə



## SİS

Sarmış üfüqlərini yenə qatı bir duman,
Ağappaq bir zülmət ki, qatılaşır durmadan.
Altında hər şey tutqun, sanki tozdan ibarət:
Hər lövhə, hər mənzərə toz basmış bir kəsafət,
Bir qorxunc kəsafət ki, dərinliyinə heç kəs
Nəzər salıb qorxudan diqqətlə baxa bilməz...
Ancaq bu qatı pərdə yaxşı yaraşır sənə,
Yaraşır, ey zülm-əzab ocağı, qanlı səhnə!
Ey zülm-əzab ocağı, bəli, ey par-par yanan,
Faciələrlə dolu, süslü-işıqlı meydan!
Sən, ey bəzək-düzəyin beşiyi və məzarı!
Sən, ey Şərqin əzəli, nazənin hökmdarı!..
Ey qanlı sövdaları iyrənib diksinmədən
Səfahətə susamış köksündə qəbul edən,
O mavi Mərmərənin qoynunda dalğın-dalğın
Ölmüş kimi yuxulayan, ey donmuş canlı yığın!..
Ey qoca, köhnə Bizans, ey füsunkar həyasız,
Ey min kişiyə gedib dul qalan bakirə qız!
Hüsnündə təravətin cazibəsi hələ var,
Hələ də məftun olur camalına baxanlar.
Uzaqlardan, kənardan hər baxana süzülən
O mavi gözlərinlə nə munis görünürsən!
Munis, ancaq ən çirkin qadınlar kimi munis.
Ucalan fəryadlara, şikayətlərə hissiz.
Sən qurulanda sanki bir xain öz əlini
Uzadıb zəhərləmiş lənətlə təməlini.
Murdarlıq, riyakarlıq dalğalanır sinəndə,
Təmizlikdən, saflıqdan bir zərrə yoxdur səndə.
Riya, həsəd, qərəz, kin... – bütün bu çirkinliklər,
Qoynunda yalnız bunlar, bunlar yer tapa bilər!
Milyonla bəslədiyin cəsədlər arasından
Neçə nəfər tapılar açıq alınlı insan?!

Örtün, ey qorxunc şəhər, bürün dumana qat-qat,
Ey qocalmış fahişə, örtün, həmişəlik yat!..

Ey hay-küylər, bəzəklər, ey şanlar, ey alaylar,
Siz, ey qatil güllələr, ey zindanlı saraylar!
Ey uca ulu məbəd, ey keçmişdən yadigar!
Ey zəncirli divlərtək duran məğrur sütunlar!
Ey keçmişin gələcək nəslə xəbərçiləri,
Ey dişləri tökülmüş qoca qala bürcləri!
Ey gümbəzlər ki sizdə münacatlar əks edər,
Ey doğruluğu sözdə zikr edən minarələr!
Ey uçuq mədrəsələr, çökük məhkəməciklər!..
Ey ağac kölgəsində özünə bir parça yer
Tapmış min-min dilənçi, ey dözüm sirdaşları!
"Keçmişə rəhmət" deyən köhnə qəbirdaşları!..
Ey türbələr, ey edən hərəsi bir dərdi yad,
Ey onların içində dinc-sakit yatan əcdad!
Ey qoynunda palçıqla toz çarpışan küçələr,
Hər viranəniz acı bir macəra nəql elər.
Ey quldurlar yatağı, soyğunçular həmdəmi,
Qapqara damlarilə canlanmış bir matəmi
Təmsil edən xaraba, səssiz-səmirsiz evlər!..
Siz, ey leylək və çaylaq yuvalarına bənzər
Ocaqlar ki hər biri qəmə batmış, yas tutmuş,
Yanıb tüstülənməyi illər var ki, unutmuş!..
Ey qarına qul olub vicdanı unudanlar,
Zilləti, rəzaləti ləzzət ilə udanlar!..
Təbii nemətlərin əsil sahibi ikən,
Ey ac, işsiz və aciz qalıb, hər şeyi göydən
Dilənən: azadəlik, fəzilət, kərəm uman
Təvəkkül və zəlillik... Tamamən saxta-yalan!..
Ey köpək hürüşməsi, ey dil bilən insanda
Şərəfsiz nankorluğa lənət yağdıran səda!
Ey faydasız ağlayış, ey zəhərli gülüşlər!
Ey acizlik və qəmdən doğan nifrətli nəzər!
Ey ancaq nağıllarda qalmış haqq-namus yolu!
Ey bəxtəvərlik yolu – ayaqöpmə üsulu!
Sən ey silahlı qorxu – dullarla kimsəsizlər
Sənin təxribatından inlər, şikayət eylər.



Ey hər şəxsə qorunmaq, azadlıq əvəzinə
Bir nəfəs haqqı verən qanun adlı əfsanə!
Ey boş yalan vədlər, daim satmaq, aldatmaq...
Sən, ey məhkəmələrdən həmişə qovulan haqq!
Ey hədəylə, övhamla kütləşmiş, biixtiyar,
Naəlac vicdanları pusan gizli qulaqlar!
Ey qorxudan yumulub kilidlənmiş ağızlar!
Mənfur, həqir sayılan ey milli qeyrət-vüqar!..
Siz, ey qılıncla qələm, iki siyasi dustaq!
Fəzilətin, ədəbin quru adı var ancaq!
Ey qorxudan əyilib gəzməyə etmiş adət
Varlısı-yoxsuluyla məşhur böyük bir millət!..
Ey qultək əyilən baş, qəşəngsən, amma iyrənc!..
Ey gözəl incə qadın, ey onu izləyən gənc!..
Ey hicran dərdli ana, ey küskün arvadla-ər...
Ey kimsəsiz, avara uşaqlar...Hələ sizlər!..
Hələ sizlər!..
Örtün, ey qanlı şəhər, bürün dumana qat-qat!
Ey qocalmış fahişə, örtün həmişəlik, yat!

## RÜCU

Yox, əsla sənə aid deyildir bu lənətlər,
Bütün dərdli-kədərli o acı şikayətlər.
Millətin həyatını korlayan, təhqir edən,
Ləkələyən nə qədər çirkablar varsa, birdən
Hamısını cəmləşdirən bir mühitə aiddi.
O lənətli gecədən uzaqdayıq biz indi.
Qarışdı müsibətlər o keçmiş gecələrə,
Açıldı gözlərimiz şəfəqli bir səhərə.
Sən, ey yeni saf mühit, o mənhus gecələrdən
Səndə bir iz də yoxdur, ulusan, şərəflisən!
Səndə nə sis, nə ləkə... Əksinə, səfa, vüqar,
Doğan günəş kimi saf, parlaq şəfəqlərin var!
Üfüqlər baxır sənə, nəzərlərində heyrət...
Bu gün sənindir saflıq, sağlamlıq, mədəniyyət!
Ədalət istəyən, o haqq çağıran səsinlə,
Bu gün sənin sükunət ya hərəkət tərzinlə
Gələcək asudəlik müəyyən ediləcək.
Sənin fikir saflığın – səlamətlikdir demək.
Gözəl düşün, düz hiss et, heç yanılma, aldanma!
Doğrudadır, nə varsa, doğruluq çaşar, sanma!
Çalış daim birliyə, yüksəlişə, iqbala,
Ancaq unutma ki, yol cəhd ilə, intizamla
Yaxınlaşar – qısalar... Düz at addımlarını!
Bil, bugünkü addımlar hazırlayır yarını!

Siz də, ey ordumuzun mərd, şanlı əsgərləri,
Siz, ey gözəl vətənin seçmə, igid ərləri!
Siz, ey açıq alınlar, siz, ey təmiz vicdanlar!
Siz, ey aslanürəkli, tuncbiləkli insanlar!..
Bilsəniz ürəyimdə nə hisslər, nə diləklər,
Necə nəşələr coşur... Bilsəniz ki, nə qədər
Şən təranələr coşur!.. Bütün bunlar sizindir!
Bunlardakı şeriyyət, mənə, vüqar sizindir!
Yaxşı-yaman sizindir, nə var, nə var sizindir!..



## BİR LƏHZƏ YUBANMA

Bir zərbə... bir duman... və bütün xalq kütləsi,
Birdən bu vurhavur bir əlin qanlı pəncəsi,

Dəhşətli qüvvəsilə dağıldı, bölük-bölük
Yüksəldi göylərə əl-ayaq, kəllə, qan, sümük...

Ey parlaq, ey şərəfli hücum, noldu? Bilmədim,
Kimsən? Nəsən? Bu cürətə birdən səbəb nə? Kim?

Arxanda min göz axtarır, amma bu anda sən
Göydən gələn bir əl kimi oldun, xilas edən.

Müdhiş səsində gurladı bir ildırım səsi,
Haqqın, ədalətin üzü dönməz köməkçisi,

Zərbənlə zalımın yeri tutmaz ayaqları,
Ən güclü bir tacın daşa çırpar yaraqları.

Zəncirlərin qırıb dağıdar əsrin, ən çətin
Bir uyqudan oyandırar əqvamı dəhşətin.

Ey şanlı ovçu, damını[1] bihudə qurmadın!
Atdın, fəqət heyif ki, heyiflər ki, vurmadın!

Dursaydı bir dəqiqəciyəz durmayan zaman,
Yaxud o durmasaydı, o qatil, o biaman,

Qanlarla bir cinayətə çox bənzəyən bu iş
Bir xeyir olardı misli əsrlərcə keçməmiş.

Lakin təsadüf, ah, budur incidən məni, –
Acizlərin, zavallıların əski düşməni.

---

[1] Dam – duzaq, pusqu

Birdən yetişdi məhvə bu tədbiri, fürsəti.
Söndürdü bir nəfəsdə bu ümmidi, "yox" dedi.

Kor taleyin əlilə yazıldı, aman demə:
Tarixi-zülmə bir yeni məğrur müqəddimə.

Qurtuldu, haqqıdır alacaq indi intiqam,
*Lakin* unutmasın bunu tarixi-sifləkam[1].

Bir xalqı çeynəməklə bu gün əylənən dəni
Bir ləhzəcik yubanmağa borclu bu keyfini!

[1] Sifləkam – alçaq nəsibli, pis taleli



## MİLLƏT ŞƏRQİSİ

Çeynəndi, yetər, varlığımız cəhl ilə qəhrə,
Doğrandı mübarək vətənin bağrı səbəbsiz.
Birlikdə bu gün tapmalıyıq dərdinə çarə,
Can qardaşı, qan qardaşı, şan qardaşıyıq biz.
Millət yoludur, haqq yoludur tutduğumuz yol,
Ey haqq, yaşa, ey sevgili millət, yaşa, var ol!

Gəl, *qardaş, anan, xalq sənə möhtac, onu qurtar.*
Yardım ona, qurtarmaq o bədbəxti vəzifən.
Qarşında anan bağrıaçıq, xəstə zarıldar,
Görmək bunu durmaq bizə bədtərdir ölümdən!
Hər an o gözəl sinəni xəncərləyir əllər,
İmdadına çatmazsaq əgər məhvi müqərrər.

Zülmün topu var, gülləsi var, qələsi varsa,
Haqqın da bükülməz qolu, dönməz üzü vardır.
Göz yumma günəşdən, nə qədər nuru qaralsa,
Sönməz əbədi, hər gecənin gündüzü vardır.
Millət yoludur, haqq yoludur tutduğumuz yol,
Ey haqq, yaşa, ey sevgili millət, yaşa, var ol!

Vaxtilə atan kimsəyə minnətmi edərdi?
Yox, qalmadı başa sənə zillət pədərindən.
Dünyada şərəfdir yaşadan milləti, fərdi,
Silkin, bu zəlalət tozu uçsun üzərindən.
İnsanlığı pamal edən alçaqlığı yıx, əz!
Billah yaşamaq yerdə sürüklənməyə dəyməz.

Hər rəng ilə haqsızlığı gördün... Bumu qanun?
Ən qəmli səfalətlərə düşdün... Bumu dövlət?
Dövlətsə də, qanunsa da, artıq yetər olsun,
*Artıq yetər olsun bu dəni zülmü cəhalət...*
Millət yoludur, haqq yoludur tutduğumuz yol,
Ey haqq, yaşa, ey sevgili millət, yaşa, var ol!

## VƏTƏN ŞƏRQİSİ

Biz fədayi-millətik, mərd oğlu, mərd insanlarıq,
Bürci-istibdadı yıxdıq, qorxu bilməz canlarıq.
Bir vətən, bir haqq bilən əhrarıq[1], aslan-canlıyıq,
Canla-başla, ey vətən, biz əhdinə peymanlıyıq,

Can da sən, şan da sən, hamsı sənsən, yaşa!
Ey vətən, ey mübarək vətən, min yaşa!

Torpağın cövhər, suyun kövsər, yazın görməz xəzan,
Heç bu dünyada tayın, bir bənzərin yoxdur, inan.
Müşfiq övladın tapır qoynunda hər gün, hər zaman
Başqa şəfqət, başqa nemət, başqa qüvvət, başqa can.

Can da sən, şan da sən, hamsı sənsən, yaşa!
Ey vətən, ey mübarək vətən, min yaşa!

[1] Əhrar – hürr, azad adamlar



## UNİVERSİTET MARŞI

Yüksəlməli, bəsdir daha bu zillətü zülmət,
Hər üzdə işıq saçmalı nuri-mədəniyyət.
Cəhl ölməli, zülm ölməli, haqq tapmalı qüvvət.
Haqqın üzü güldükcə gülümsər bəşəriyyət...
Qəflətlərə, zillətlərə, zülmətlərə lənət,
Sən gül bizə, sən gül bizə, ey sübhi-həqiqət!

Ey nuri həqiqət, səni sevmək bizə haqdır,
Xoşbəxt gələcək ulduzu səndən doğacaqdır.
Gülsün bəşəriyyət, bu cəhənnəmləri söndür,
Hər kəs əbədi nəşəli, hər kəs əbədi hürr...
Dəhşətlərə, zülmətlərə, zillətlərə lənət,
Sən doğ bizə, sən doğ bizə, ey nuri üxüvvət[1].

[1] Üxüvvət – qardaşlıq

## FÜZULİ

Gözündə şöləlenir atəşin günəşli İraq,
Baxar həmişə həzin bir düşüncəyə dalaraq,
Dühaya saf alını bir nümunədir parlaq,
Soluq dodaqlarının nəğməsi həmişə fəraq...
Əsərlərində bu sevdalı çöhrədir zahir,
Bu çöhrə məncə Füzuliyə çox münasibdir.

Bu çöhrə çöhreyi-qəm, çöhreyi-məhəbbətdir,
Məhəbbətin ona təsiri bir əlamətdir.
Sevər və sevdiyi şey dərddir, müsibətdir,
Səfası, nəşəsi yoxdur, bütün küdurətdir.
Könül səmasına ağlar bulud çökər hər an,
Gülümsəyirsə, yəqin bu davam edər bir an...

Zaman-zaman qapılar qəmli bir təsəllayə,
Dalar, gedər ürəyi bir kədərli sevdaya,
Salarsa üstünə bir nazənin gözəl sayə,
Olar bu, ruhu üçün ən sevimli bir qayə.
Şikəstə könlünü etmiş bütün diləklərə yad,
"Nə versələr ona şakir, nə qılsalar, ona şad"...

Şikayət eylər, işi nalə, ahü-əfqandır,
Düşəndə firqətə, aləm gözündə zindandır,
Cahana gəldiyinə anbaan peşimandır,
Səfərdə yoldaşı da bir kədərli canandır,
Onun dalınca gəzər hey xərabə yurdlarda
Onun gözüylə görər gözyaşı buludlarda.

Üzündə, bir də görərsən, ümidlər görünür,
Nədir ümidi? O, bundan da bixəbər görünür,
Həyata hər baxışında ələm-kədər görünür,
Həyatı eşqini duymaq üçün sevər görünür.
Nə varsa, eşqi üçündür, fəqət onunla yaşar,
Birər oyuncağıdır eşqinin xəzanla bahar.



Vurulduğu o gözəl də həmişə, hər yerdə
Çəkər gözəlliyə qarşı önündə bir pərdə.
Bütün gözəllik, əgər cəm olarsa bir yerdə,
Dönüb, qalar yenə də gözləri o əsmərdə...
O əsmər afətə vurğunluğu əzəldəndir,
Onun qəmilə Füzuli həyata düşməndir.

## AYLAR SİLSİLƏSİ

### I

### MART

Donmuş nəzərlərilə, soyuq çöhrəsilə qış –
Ayrılmaq istəyir, fəqət ayrılmayır qarı,
Örtər, açar, baxar, yenə örtər buludları,
Xeyli zaman sürər bu tərəddüd, bu nazlanış.

Quşlar, zavallı yavrucığazlar bu cilvədən
Sərsəmlənib də hey sığınarlar çəpərlərə.
Hər dəm soyuq vəziyyət alan xoşca mənzərə,
Bir ləhzə öncə aldanaraq inkişaf edən.

İlk güllərə fəlakət olur, indi şad baxar
Bir tablo, sonra ağlar olur hər qədəm başı,
Bir an içində həm gülüşü, həm də gözyaşı.

Çirkin deyil, fəqət acı bir üz ki, onda var
Ən incə xətlər üstə kobudluq əlaməti...
Xırçın, sinirli bir qadının pis təbiəti.

### II

### APREL

Çiçəkli bir dala[1] qonmuş qanadlı bir xülya...
Qələm baharı bu sadə naxışlı təsvirlə
Xülasə eyləmək istər, görər ki, yarpaqlar
Yavaş-yavaş utanıb dirçəlir, bu təsirlə
Edər qələm də bu avarə cürətindən həya.

Həqiqətən o nə hikmətli tazəlik yoludur
Ki güllərilə, səmasilə, quşlarıyla bütün,
Bu köhnə torpağı canlandırar, qışın daha dün[2].

[1] Dal – budaq
[2] Dün – dünən



Əlində xırpalanırkən baxırsınız ki, bu gün
Təbiətin sinəsi gül-çiçəklə dopdoludur.

Sular axar, quzular oynaşar, səfasından
Həyat rəqsə gələr zənn edərsiniz, quşlar
Sərin yağışların altında çırpınar xəndan,
Bu şənlik ilə sanırsan açar camalı bahar,
Gözündə bir sarı nilufərin doğar nisan.

### III

### MAY

Mayıs bir kəndli qızdır safü dilbər, şuxu sevdakar,
Çiçəklər, quşlar ətrafında fövca-fövc[1], rəngarəng,
Çiçəklər xəndəsindən sərplən əlvani-rövnəqdar
Uçan ruhlar kimi quşlar onun rəqsilə həmahəng.

O nərgiz gözləri nurlu, gülər, eyni təravətdir,
O sünbül saçların ətri yayılmış bir şətarətdir[2],
O üryan sinəsi parlar, çiçəklənmiş məhəbbətdir,
Mayıs bir kəndli qız bir nazlı dildari-təbiətdir.

Mayıs bir kəndli qızdır safü dilbər, şuxu biaram,
Doğub, gül toplayarkən jalələr məstanə sübhündən,
Sönər biçarə, ən coşqun sevinci içrə bir axşam,
Qızıllanmış əkinlər eşqinin zövqilə titrərkən.

### IV

### İYUN

Altun başaqlı tarlasının bir kənarını,
Süsləndirən ağacların altında, bixəbər,
dalmış təxəyyülə.

[1] Fövca-fövc – axın-axın, bölük-bölük
[2] Şətarət – şuxluq, şənlik

Xoşbəxt o kəndlilər ki, üzündə qübarını[1]
Oxşar əsən külək; dodağında o xəndələr
bənzər təvəkkülə.

Gəl, sevgilim, səninlə bu zəhmətli guşədən
Bir ləhzəcik qaçaq... Gəzək asudə, könlü şad
gülşəndir hər tərəf.

"Xoşbəxt kəndlilər" deyə gülsün əkin, çəmən,
Coşduqca qarşımızda əkinlər, gülər həyat,
artar sevinc, şərəf.

### V

### İYUL

*Mavi rəng paltarının yenlərinə*
Silərək alnını yorğun, arğın
Gəzinir tarlada bir kəndli qadın.

O, başaq yığmağa çıxmış bəlli,
Başı üstündə günəş hiddət ilə,
Od səpər aləmə çox şiddət ilə.

Əyilib doğrularaq, dörd əlli
Toplayır quti[2]-məişət yerdən,
Torpağın verdiyi nemətlərdən.

Gah zövq ilə, şəfəqqətlə baxar
Ərinin sonsuz olan qeyrətinə,
Qızının nəşəsinə, iffətinə.

Bu səadət ona kafi görünər,
Güclü bir ailə, bol bir məhsul,
Başqa şey fikrini etməz məşğul.

[1] Qübar – toz
[2] Qut – yemək, azuqə



O kiçik ailədir bəsləyəcək
Aləmi bir sənə bol nemət ilə,
Öyünər bu azacıq xidmət ilə.
Məncə timsalı budur təmmuzun[1]:
Mavi paltarlı gözəl kəndli qadın
Çalışır tarlada yorğun, arğın.

### VI

### AVQUST

Sünbüli bir hava ki, məst, durğun
Durur, ancaq hüdudu yoxdur onun.
Acı bir hisslə titrəyəndə səsi,
Xəstə bir nəğmə inləyir məhzun,
Tökülür qətrə-qətrə gözyaşıtək.
Bu sönən
Mövsimin axırıncı xoş nəfəsi.

Bu sönük nəğmə söylər: "Ey bifər
İnləyən ömr, keçdi şən günlər,
Sən həvəslə baharı gözlərkən
Yay həyata vida edib də yenə,
Səni təhvil verir xəzan əlinə!"

### VII

### SENTYABR

Saralan dəmdə çöhreyi-eylul[2],
Ağladanda buludları bol-bol,
Ağladır qəlbimi bu şeri-məlul,
Mən bu təşbihi-zari çox sevirəm:
"Bir qızın can çəkişmə halında, –
Dolaşanda gülüş camalında,
Andırır haləti-zavalında...
Ah, mən son baharı çox sevirəm".

[1] Təmmuz – iyul ayı
[2] Eylul – sentyabr

### VIII

### OKTYABR

Soluq yarpaqlı bir nəxli[1]-xəzanın
Pərişan, qəm çoxaldan kölgəsində
Oturmuş, bəlli bir hissi-nihanın
Bütün dərdi yığılmış gözlərində,
Arar bir şeri-giryan dəftərində.

Müvafiq mövqeyin bu qəmli halı,
Bir az solğun, bir az sərməsti-sevda,
Düşən yarpaqların sirri-məlalı,
Əyan olmuş açıq alnında guya,
Kədər, həsrət dolu bir dadlı xülya.

### IX

### NOYABR

Dönər avarətək coşqun külək zərbilə peydərpey,
Əcəb bənzər birər pərvaneyi-lərzanə[2] yarpaqlar.
Budaqlar lüt, dağılmış aşiyanlar, sanki hər bir şey
Xəzanın qəhr edən daş pəncəsində sarsılıb ağlar.

Qışın donmuş nigahından əziyyətlər çəkib hərdəm,
Arar biçarə quşlar bir bahar sığnağını, heyhat,
Uzanmış xəstə üryan torpağın altında çox möhkəm,
Arar cismi-təbiət bir şəfa, bir feyz, bir imdad.

### X

### DEKABR

Hər yer ağardı, sanki kəfəndir, ölüm gəzir,
Ağ rəngin altda torpağın əfsürdə[3] meyyiti,

[1] Nəxl – fidan, ağac
[2] Lərzan – titrək, titrəyən
[3] Əfsürdə – donmuş



Ətrafı aldı çənginə ağlıq əsarəti,
Altında hər nə var qara tufanə müntəzir.

Guya bu intizarın o sakit nişanıdır,
Heçlik qədiditək neçə məşum qarğa-qarr...
Hərdəm çəkər bu səhnənin üstə qara hasar,
Bunlar qışın nümuneyi sirri-nihanıdır.

### XI

### YANVAR

Yenə qar... Bir donuq sükunətlə,
Yenə hər yer ölüm, kədər, girdab.
Bir donuq pərdə, bir inadlı niqab
Gizlədib çöhreyi-səmavati
Bəşərin gözlərindən. İndi budur,
Bəşərin inliyən minacatı
Titrəyir bir soyuq məşəqqətlə,
Onu da bu inadlı pərdə udur.

Budur üryan və kimsəsiz, aciz,
İki timsalı can didən fəqrin[1]...
Hər yanından bu qəmli lövhələrin
Axır ətrafa qəm, ölüm seltək.
İki miskin qədid, bax, hələ də
Yaşayışdan şikayət eyləyərək,
Çatlamış əllərilə aramsız
Axtarırlar həyatı məzbələdə[2].

### XII

### FEVRAL

Mövsüm vida edər kimidir, tez açıb qanad,
Son titrəyişlə tökmədədir torpaq üstünə
qarlar, ümidlər.

[1] Fəqr – yoxsulluq
[2] Məzbələ – zibillik

Sellər coşub axır yenə dağlar döşündə şad,
Hər çay həyat baharı izindən xəbər verər.

Hər mövsümün süqutu olur başqa mövsümə
bir dövr üçün nişan.
Mövsümlərin bu dövrünə baxdıqca hər zaman,
ey taleyi bəşər,
Bilməm nəçin kədərlənərək ağlaram sənə.



## ƏSKİ ŞEYLƏR

Solğun bənizli, boynubükük əski bir dəmət,
Üstündə bəlkə on sənənin tozlu dərdi var.
Bir kimsəsiz uşaq kimi möhtaci-mərhəmət,
Qarşımda yalvarır: "Məni məhv etmə, bağla, sar,
Səssizcə bir kənarına at köhnə qəlbinin,
Mən gənc və keçmiş illərinin irsiyəm sənin!.."

Biçarə əski xatirələr, məhv edərmiyəm,
Məhv eyləmək əlimdə də olsa, bu gün sizi?
Lakin zaman deyir ki: "Mən hər yerdə hakiməm!"
Zalım zaman unutduracaq büsbütün sizi.
Mən arxanızdan ağlaram ancaq və hər səhər
Nəzm eylərəm zavalıma matəmli nəğmələr.

## KEÇMİŞDƏ

Həsrət gözüylə keçmişimə hər baxanda mən,
Görməkdəyəm bu halımı indi xəzanda mən.
Keçmiş mənim həyatımın ən xoş baharıdır,
Ömrün səfası, nəşəsi bir laləzarıdır,
Keçmiş zamanda qaldı o şənlik, o ehtişam.
Bihudə indi onları yad eylər, ağlaram.
Ey xoş keçən ömür, səni andıqca gah-gah,
Qarşımda məhrəmanə gülümsər durursan, ah!
Bilməzmisən ki, aşiqiyəm mən xəyalının?
Mümkünmü bir də övdəti, bilməm, vüsalının?..

Biçarə mən, bu gün yenə artmış kədərlərim,
Min həsrət ilə keçmişə dalmış nəzərlərim.
Görməkdəyəm o gülşəni kim şəndi bülbülü,
Gənclik təbəssümüydü onun hər açan gülü.
Keçmişdədir nə varsa səadət, fərəh, sürur,
Keçmiş o bir günəş ki, saçardı həyata nur.
Hər bir baxışda cilvələnər bəxtiyarlığım,
Gül rəngini alardı nə görsəydi varlığım.
Ey vay, indi nəyə baxsam siyahrəng,
Durğun nəzərlərimdə yatıb sanki bir nəhəng...
Hər dəm sabah olan o gözəl günlərin, bu hal
Axşamıdır ki, bir də sabah olması mahal!



## İZTİRAB

Girdablar açar önümə bir dərin sərab,
Ruhum buludların şəfəqindən arar cəvab,
Qar-qar qarıldayar mənə dəhşətlə min qürab[1],
Bənzər məzar əzabına şiddətlə bu əzab,
Könlüm xərab, xəstə vücudim qədər xərab,
Ölməkdən, ah, məncə yamandır bu iztirab!

Yaxdı səmum yeli, yerə vurdu səbatımı,
Göz yaşlarıyla boğdu təsadüf nicatımı,
Axır cəhənnəm eylədilər kainatımı,
Min bir bəlaya uğradıram mən həyatımı,
Girdablar açar önümə bir dərin sərab,
Ölməkdən, ah, məncə yamandır bu iztirab!

Dəhşətlə hər gecə məni qaplar bir intizar,
Həsrətlə eylərəm ölümün sübhünə güzar[2],
Zülmət işıqlarıyla bürünsəydim öylə zar,
Çeşmim sitarələrdən arar nurlu bir məzar,
Ruhum buludların şəfəqindən arar cəvab,
Ölməkdən, ah, məncə yamandır bu iztirab!

Bəzən uyub könüldə olan intizarıma
Çıxsam yaşıl düzənlərə, baxsam civarıma,
Hər sərv bir ələm gətirir rəhgüzarıma[3]
Qar-qar qarıldayar mənə dəhşətlə min qürab,
Ölməkdən, ah, məncə yamandır bu iztirab!

Vicdanımın ümidinə səndin bir az səbəb,
Ey gözlərim ziyası, qaranlıqdın əcəb,
Kimdən, nəcür, səadətimi eyləyim tələb,
Olmaz mənə təsəlli nə gülşən, nə qönçələb,

[1] Qürab – qarğa
[2] Güzar – keçmə, getmə
[3] Rəhgüzar – keçilən yol

Bənzər məzar əzabına şiddətlə bu əzab,
Ölməkdən, ah, məncə yamandır bu iztirab!

Təbimdə bir sual ki, bənzər müsibətə,
Ruhumda bir məlal ki, bənzər məhəbbətə,
Qarşımda bir cəmal ki, bənzər xəyalətə,
Fikrimdə bir xəyal ki, bənzər həqiqətə,
Könlüm xərab, xəztə vücudim qədər xərab,
Ölməkdən, ah, məncə yamandır bu iztirab!



## TÜLUƏ QARŞI

Ey nurlu günəş, ki hər zühurun,
Süsləndirən aləmi, həyatı,
Nura bürüyər bu kainatı.
Lakin çəkilib gedincə nurun,
Zülmət gecədə itincə nurun,
Matəmlərə qərq olar təbiət.
Gah alsa da bir işıq qəmərdən,
Gündüzlərə dönsə də o hərdən,
Azad olamaz yenə kədərdən,
Parlaq olamaz gecə səhərdən,
İlhamımı söndürər o zülmət!

Batdıqda günəş, o mehri-taban[1],
Söndükcə şəfəq səmadə, hər an,
Olduqca qaraltıdan ibarət,
Guya çəkilər önümdən aləm,
Torpaq da məzar olar həmən dəm.
Lakin yenə, ey səhər cəlalı,
Açdıqda yenə gözəl cəmalı,
Nurun səpiləndə bu cahanda
Zülmətləri məhv edər bir anda.
Çulğar o dəm ərzi, asimani
Bir vəlvələyi həyati-fani...
Fani də olarsa, mövtə[2] nisbət –
Əlbəttə həyat bir səadət,
Hər sübh-səfası kainatın
Bir cilvəsi, şövqüdür həyatın!
Quşlar ötüşər, gülər mələklər,
Çağlar dərələr, açar çiçəklər,
Canlanmaq üçün bütün bu aləm
Səndən, demək, iltifat gözlər.

[1] Taban – işıqlı, parlaq
[2] Mövt – ölüm

Ey şanlı günəş, şüai-əzəm[1],
Parlaq gözüsən bu kainatın,
Feyzin olur hər yarayə məlhəm.
Canlandırar aləmi o hər dəm.
Sən mənbəyisən bütün həyatın,
Şövqün eləyər cahanı xürrəm...
Güllərdə də əks edər bu nurun
Bir qəbri də güldürər sürurun.

[1] Şüai-əzəm – ən böyük işıq, günəş



## ÇİÇƏKLƏR İÇİNDƏ

Şeri səmaya bənzədib eylərdim ehtiyat –
Pərvazə yoxdu qüdrəti tutqun xəyalımın.
Eşqin bu dəmdə ruhuma bəxş etdi qol-qanad,
Gördüm səmayə qalxdığını şahbalımın.

Olmaqdayam o şövq ilə artıq təranəsaz,
Ahəngi şeri andırır hər bir kəlamımın.
Eylər həzin könüllərə hər anda işvə, naz,
Hər nazənin bəlağəti sahir[1] kəlamımın.

Sənsən, xülasə, mənbəyi-feyzim cahanda, sən,
Sənsən bu qəmli ruhumu qəmdən xilas edən,
Eşqin oduyla qızdıran ilhami-şerimi:

Bir xoş gülümsəmən məni döndərdi vurğuna;
Olsun, – dedim, – kəlamım ənis incə ruhuna,
Verdim çiçək və güllərə ünvani-şerimi.

[1] Sahir – sehrli, cazibəli

## MƏHƏBBƏT ŞEİRLƏRİNDƏN

Həyata rəğbətim ancaq sənin üzündəndir,
Sənin saçındır, inan, bağlayan cahana məni.
Səmadə nur görürəmsə, sənin gözündəndir,
Məhəbbətin yaşadır qüssə məhbəsində məni.

O sönməz eşqini canlandırıb xəyalımdə
"Bu hiss ki var, – deyirəm, – kainat sonsuzdur!"
Səninlə qatlanaraq çarəsiz, çətin dərdə,
Bu şövq ilə, – deyirəm ki, "Həyat sonsuzdur!"

Baxıb camalına bir dəm yumunca gözlərimi,
Uçan görür nəzərim qarşısında kəhkəşanı.
Baxışların əridir şöləsiylə sislərimi,
Üzün günəşlər açır, nurə qərq edir cahanı.

Qaçıb məişətin hər fitnəvü fəsadından,
Könül gedib sığınır aşiyani-ismətinə.
Fərəh dumanına qərq olmaq ehtiyatından
Kədər uçuş eləmir asimani-ismətinə.

Əlin əlimdə, saçın tarimar sinəmdə,
Gözün gözümdə, ləbim qönçə ləblərində xumar.
Tutur bu hal ilə ömrüm qərar sinəmdə,
Təlatümə gətirir ruhumu o barmaqlar!



## TƏRƏNNÜM

Uşaqdın sən, o halın heç bir an çıxmaz xəyalımdan;
Mələkdin, çırpınır yadimdə hərdəm göydə pərvazın.
Nə günlər keçdi, bax, indi yenə eyni uşaqsan sən,
Keçən zövqü səfadən yadigardır incə avazın.
Uşaqdın, bir mələkdin sən,
Sən, ey məşuqeyi-Fikrət,
Duyur əlan
Dili-nalan
Güli-hüsnündə bir nəkhət[1]
Uşaqlıqdan, o cənnətdən!

Uşaqlıqdan, o cənnətdən bəri gözlərlə dostuq biz;
Mənim ruhum sənin eşqinlə birləşmiş əzəl gündən.
Nə anlardım məhəbbətdən, vəfadan, ah, mən sənsiz?
Bu gün sənsiz bəqayi-ruhu[2] da inkar edərdim mən...

Uşaqsan sən, mələksən sən,
Sən, ey məşuqeyi-Fikrət,
Duyur əlan
Dili-nalan
Güli-hüsnündə bir nəkhət
Uşaqlıqdan, o cənnətdən!

[1] Nəkhət – iy, qoxu
[2] Bəqayi-ruh – ruhun əbədiliyi

## ŞEİR SEVDASI

Həzin, fəqət nə gözəl bir səda bu, dinləyiniz,
Mənim yenə bu gecə ülvi bir məlalım var.
Gözəl, fəqət nə həzin öz sükutu ilə dəniz...
Mənim yenə bu gecə incə bir xəyalım var,
Mənim bu dəm yenə şairliyim, o halım var.

Sevimlidir qara gözlər, danış, danış ondan,
Aman, nə dadlı baxış var o parlaq ulduzda!
Çəməndə bülbüli-şeyda ötür; ötür, o səda
Qopub gəlir sanıram dərdli-qəmli ruhundan,
Qopub gəlir sanıram min sitəmli ruhundan.

Sənin də qəlbinə xoşdur, mələk, bu nalə yəqin,
Sənin də ruhuna ruhun sədası məhrəmdir.
Bir ittifaqı deməkdir sabah ilə gecənin:
Həyatı şeir ilə bəmd eyləmək nə aləmdir!
Həyat şeir ilə rövnəq tapır, müsəlləmdir[1].

Bu mavi qübbənin altından hay salan şerin
O gur sədası üçün yox hüdud, yox sərhəd.
Könül müqəddəs olan, üfqü pak olan şerin
Təsəvvür eyləməz xaricində ülviyyət,
Təsəvvür eyləməz xaricində bir cənnət.

[1] Müsəlləm – inkar və etiraz edilməz



## ŞAİRİN HÜCRƏSİ

Bir çox risalə, bir iki təsviri-yadigar,
Rəflərdə, taxçalarda varaqlar, qırıntılar...

Solmuş çiçək dəmətləri, durğun gülüşlər, ah,
Minlərcə xatirat ki qəmli və nəşədar.

Xülyalar, arzular, əməllər, ümidlər,
Cananələr ki hər biri bir zinəti-məzar,

Hər yanda bir baxış ki, verər ruha zövqü şövq,
Hər yanda bir dodaq ki, edər ruhlar nisar.

Şair bütün bu şeylərə baxdıqca qəlb ilə,
İlhamının pərisinə çəkməkdə intizar.

Nagah bir kitab arasında edər zühur,
Keçmiş – o tozların arasında itən nigar.

Titrər və sonra şövq ilə meylin salar ona,
Təbində bir qəribə rəvanlıq, fərəh duyar.

Bir şeir olar nə gəlsə o dəm qəlbü fikrinə,
Gördükcə qarşısında o dildarı aşikar.

Quşlar kimi təranəyə başlar, bu nəğmədə
Var həm xəzan təranəsi, həm ruhi-növbahar.

Şair bu hücrəsində tapar hər səfasını,
Şair bu hücrəsində edər seyri-laləzar.

Bir aşiyan ki hücrəsi sığmaz üfüqlərə,
İcad edər o hücrədə əşari-dilişkar
Bir qəlbi-atəşin ilə bir fikri-biqərar.

## BİR LÖVHƏ ÜÇÜN

Sahil yaşıl, hər bağça yaşıl, sanki təbiət
Vermək diləyibdir bura şayani[1]-pərəstiş
cənnət kimi bir rəng.
Göl sahilin əksiylə olubdur yenə cənnət,
Sanki bu yaşıl kölgəliyə rəng ilə vermiş
cənnət kimi ahəng.
Bir lövhi-məhəbbət bu ki üstündə xəyalın:
Məşuqə, o bir qönçə, gülərüzlü dilara
aşiq ona həmhal.
Saf eşqi məhəbbətlə bir, amali vüsalın
Olmuş qayığı sanki bu şən nəşəli sevda,
gülmüş ona amal.
Sevda bu nə halətdir, ilahi, nə səfadır?
Bir nəzrəyi[2]-heyran ilə, bir çöhrəyi-sakin
qarşımda dururkən,
Güllər və ağaclar belə sərməsti-həvadır.
Bir hissə alırlar bu iki ruhi-rəqiqin[3]
şövqü həvəsindən.

[1] Şayan – layiq
[2] Nəzrə – baxış
[3] Rəqiq – incə



## BİR YAY LÖVHƏSİ

Günün oğlan çağı... Yanır aləm,
Yerə bir atəşin ziya saçılır.
Yox olub otlara qonan şəbnəm,
Bir bulud gəlsə min ağız açılır.

Günəşin od saçan ziyası ilə
Əriyir rəngi sanki əşyanın.
Torpağın qapqara boyası ilə
Qarışıb mavi rəngi dəryanın.

Quruyubdur yaşıl libaslı çəmən,
Suya həsrət çəkir dərin dərələr.
Zərrələrtək axır üfüqlərdən
Bir qığılcım seli qüruba qədər.

Qeyb edib huşunu cahan çoxdan,
Bürküdən məst olub, deyil hüşyar.
Hardasa fit verir bir əfi ilan,
İstidən lal olub fəqət quşlar.

Yaxşı bax: gördüyün sükuta dalan
Bir dəniz, bir dumanlı-sisli səma,
Bir də sahil ki, hüznə qərq olub o,
Oynayır nazı ilə bir dərya.

Ot yeyib, aclığı rəf etmək üçün
Dolaşıblar neçə biyabanlar,
İndi də istini dəf etmək üçün
Suya girmiş zavallı heyvanlar...

Belə bir gündə, altı il əvvəl,
Keçmədəydim bu keçdiyim yerdən.

Yenə yay fəsli yandırıb ərşi,
Yerə od yağdırırdı göylərdən.

Yandırırdı şüası ətrafı,
Nə çayır vardı yanmamış, nə çəmən.

Hava durğundu, meh də əsmirdi,
Çatlayır dil-dodaq hərarətdən.

Darıxırdım, bir az gəzinmək üçün
Baş alıb sahilə yönəldim mən.

Bu zaman qarşıdan gəlir gördüm
Bir yığın dördayaqlı, zorbabədən.

Suya doğru gəlirdilər tələsik,
Hamsının görkəmi kobud, müdhiş;

Beş-on addımlığa yetişdi sürü,
Keçdiyim yol deyildi çox da geniş.

Ehtiyatla baxırdım ətrafa,
Axtarırdım yaxında bir sığnaq.

Tapmayınca, əlimdəki əsanı
Qalxan etdim, havayə qaldıraraq.

Bir daş üstündə bir uşaq birdən,
Bunu gördükdə oldu qəhqəhəzən.

Bir çobanmış o beşcə yaşlı uşaq,
Baxdım heyrətlə xırda cüssəsinə,

Belə bir tiflə bir sürü öküzün
Heyran oldum itaət etməsinə.



## AYRILMAM

Qara bir inci parlayır saçının
Nazlı qıvrımlarında gizlənərək,
Böyüyüb gah, gah kiçiklənərək...
Mən olaydım bu, yox inanma, yəqin:
İnci olsam dənizdən ayrılmam!

Sarı bir gül ipəkli korsajının[1]
Qəlbaçan ətri ilə valeh olur,
Orda məsud gülümsəyir və solur...
Mən olaydım, bu, yox inanma, yəqin:
Mən gül olsam filizdən[2] ayrılmam.

O baxışlardakı dərin məna
Mənə bir başqa inci ərz eləyir.
"Məndədir güllərin lətifi!" deyir...
Ey gözəl gözlər, aləm olsa fəna
Ölərəm mən də sizdən ayrılmam!

[1] Korsaj – qadın paltarının döşü örtən hissəsi
[2] Filiz – ağac və çiçək fidanı

## SƏNİN YERİNDƏ

Sənin yerində olaydım, gözəl çocuq, bilsən,
nələr edərdim mən,
Nələr edərdim o mübhəm baxışlı gözlərlə...

Sənin yerində olaydım o hüsni-əsmərlə,
o təzəliklə, o şux
Cavanlığın odu ilə coşardı məndəki ruh.

Yaxardım həsrətim ilə bütün könülləri mən
və sonra hər kəsdən
Uzaqlaşardım... O biçarə qəlblər o zaman

Məhəbbətimlə, fəraqımla müztərib, nalan,
sönüb gedərlərkən
Durub gülərdim uzaqdan, səmayi-hüsnümdən.

Sənin yerində olaydım, günəşləri eşqin
alovlarıyla, həzin
Dönərdi titrəşərək durmadan qürurumla.

Sənin yerində olaydım əgər, vüqarımla
ölərdi busələrim
Və ehtirasına olmazdı kimsənin xadim.

Yazıq deyilmi fəqət nazlı vücudi-mələk
sevilmədən ölmək?..
Sənin yerində olaydım, xeyr, sevərdim mən,

Və öncə hüsnümü başlardım öylə sevməkdən.
Bu ruh için bir haqq:
Bir az da mənliyi sevmək deyilmidir yaşamaq?



## ANLAŞILMASIN

Bir çöhrə istərəm ki, xəyal anlaşılmasın,
Bir nüktəyi[1]-cəmal ki, lal anlaşılmasın.

Bir üz, o bir təbəssümi-xülya ki, parlasın,
Ancaq nədir o üzdəki hal, anlaşılmasın.

Kəşf olsun hər bağın, çəmənin sirri gözlərə,
Baxdıqca sonra onda zaval anlaşılmasın.

Bir körpənin gülüşləritək eyləsin əsər,
Rəngində heç kədərlə məlal anlaşılmasın.

Qalsın baxışlarındakı gizli əməl nihan,
Könlüm dilər ki, ruhi-ləyal[2] anlaşılmasın.

Müjganı[3] kölgə salsın onun, gizli saxlasın
Nazında, qəmzəsində məal anlaşılmasın.

Fikrim nüfuz edər kimi olsun bu sirrinə,
Lakin xeyir, o sehri-cəmal anlaşılmasın.

Hər halı anlaşılsa da bir ehtimal ilə
Gültək dodaqlarında sual anlaşılmasın.

Mən qarşısında diz çöküm, həsrətlə ağlayım,
Gülsün... Fəqət bu vədi-vüsal anlaşılmasın.

---

[1] Nüktə – incə, dəqiq məna
[2] Ləyal – gecələr
[3] Müjgan – kirpiklər

## NƏĞMƏLİ BAHAR

Səba əsər, ağac, çiçək
Ki, hüsnə, eşqə lanədir[1].
Verər təbiətə bəzək...
Bu bir gözəl təranədir.

Axar şırıl-şırıl o su
Ki, bağlara rəvanədir.
Mələr başında bir quzu...
Bu bir gözəl təranədir.

Çoban tütək çalar həzin,
Həyatı şairanədir.
Gülər pərisi gülşənin...
Bu bir gözəl təranədir.

*Qızılgül aşiqi ötər,*
Bu nəğmə bülbülanədir.
Sevib ötər, ötüb sevər...
Bu bir gözəl təranədir.

Fəqət bu tifli görsənə
Ki, ruhdan nişanədir.
Gülərkən ağlayır... Mənə
Bu nə gözəl təranədir.

[1] Lanə – yuva



## EY YARİ-NƏĞMƏKAR

Çal, mən də olum şövq ilə ahənginə həmkar,
Ruhlardakı sevdaları cuşan edəlim, çal!
Çaldıqca doğar könlümə hərdən yeni əşar,
Hər nəğmənə bir şerimi qurban edəlim, çal!
Çal ruhları da eşqlə rəqsan edəlim, çal!

Eşqin duyularkən oxunan nəğmələrində,
Ağlar sənin hər incə məqamında məhəbbət.
Ruhlar da qanadlanmış, uçar dövrü dərində,
Bəxş etmədə ahənginə bir nəşəli riqqət,
Guya o qanadlarla uçur nəfxeyi-cənnət,

Ey zöhrəni məftun eyləyən! Nəğmeyi-sazın
Ta göyləri, ulduzları inlətsə rəvadır.
Ey nazlı mələklər həsədi! İncə avazın
Hurilərə, qılmanlara canbəxşi-səfadır...
Bax ağlayıram, kiryəmə min xəndə fədadır,

Zəbt eyləyə bilməz bu gözüm əşki-rəvanı,
Titrər belə bir nəğmə eşitdikcə səbatım.
Ey yari-nəğməkar aman, kəsmə nəvanı,
Vur, qopsa da mizrabın ilə tari-həyatım,
Çal, indi bu an olsa da canda səkəratın[1].

Çırpınmada bir yarəli quş sanki telində
Çıxmaqda bu avaz o qəribin cigərindən,
Udunmu[2] hünər? Yoxsa o cananın əlində,
Bir feyzmi var kim, daha möcüz hünərindən?
Vallah, o əldir qoparan ruhu yerindən!

Çal, mən də olum ahlərimlə sənə həmsaz,
Gəl parçalama sinəmi, eşqim, əməlim, çal!
Bu şadlıq ilə biz edərək qol-qola pərvaz,
Ta ərşə qədər birgə uçub yüksələlim, çal!
Çal, sevdiciyim, çal mələyim, çal gözəlim, çal!

[1] Səkərat – məstlik
[2] Ud – musiqi aləti

## ZƏLZƏLƏ

Min üç yüz ondu... Dünən bax bu köhnə daxmada sən
Müsafir olmuşdun.
İsitməli və sinirli azarlılar kimi yer
Birdən
İçin-için və uzun
Uğultular ilə çırpındı, yıxdı, qırdı... Kədər
Və qorxu üzləri sardı; yığın-yığın evlər
Uçub dağıldı; qalanlar tamam sınıq-salxaq,
Bir intibah-xəyal ən ağıllı başlarda.
Minarələr
də baş əymiş.

Bəşər bu möhnətə hərdən bu cür düçar olaraq,
Bir az oyaq görünər.
Bir az oyanmaq üçün min bəla... Müsiybətə bax!

* * *

Sənin özün də bu sərt günlərin müsafirisən.
Həyatın, əlbəttə,
Asan və nəşəfəza bir səyahət olmayacaq.
Bu sisli zülmətdə
Asan və zövq verən bir səyahətin ancaq
Xəyalı vardır; işin – bir sərab üçün qaçmaq,
Qazancın isə yorulmaq və boş yorulmaqdır.
Həyatı divi-həqiqətlə çarpışan qazanır;
Zəfər
Bir az da ziyan istər.
Müqəddəs hərbə girənlər şərəfli, lakin ağır
Bir izlə addımlar –
Önündə zəlzələlər, arxasında zəlzələlər!



## ŞƏHƏR ŞƏNLİYİ

Yenə biz dərdliyik... Bütün Bosfor
Həyəcanlar, işıqlar, alqışlar,
Nəşələr, nəğmələrlə şad, məsrur.

Hər il avqustun öylə aləmi var,
Sanki illərcə zülm içində ikən,
Zindanından edib o indi fərar.

Ələ keçmiş bu ani fürsətdən
Daha çox feyz, nəşə almaq üçün
Yeni yollar və çarələr düşünən.

Bir əsirin, ələmli bir könülün
Sanki birdən aşıb-daşıb fərəhi:
Dəf, düdük asimanə salmış ün.

Dinlə sahilboyu bağırtıları:
Qoynu hər cür səfillə dolmuş olan
Qayığın rəngi al, turuncu, sarı...

Elə fərz et, o möhtəşəm qayığı
Kimsə göy qurşağıyla rənglətmiş...
Çal-çağır çulğamışdır ortalığı.

Bir qayıq... Həm bəzəkli, həm də geniş
Neçə sandal əhatə etmiş onu,
Gör nə laqeyd yürüşdür, ah, bu yürüş!

Göy bu coşqun sevincə heyrandır,
Sanki əfsunlanıb suyun özü də,
Elə bil bir həqiqi bayramdır.

Hər tərəf nəşə, hər tərəf həyəcan,
Təpələr, dağlar asimanə çatır;
Nurə qərq olmuş hər tərəf, hər yan.

Gecə şadlıq içində; ulduzlar
Göstərirlər gözəl camallarını;
Girdələnmiş ayın da bayramı var.

Elə bil ərşə yer nə isə deyir,
Nəsə elan edir pıçıldayaraq,
Elə bil evlənir o göylə bu yer.

Belə bir kef-damaqlı aləmdə
Yenə biz yəs içindəyik, eyvah!
Qəlbimizdə xəyala, ümmidə

Nə işarət, nə bir əlamət var,
Nə kiçik bir parıltı, səy, inad...
Köhnə bir yurd məzarlığa oxşar.

Yox, həyatsız deyil bu yurd, bu ocaq,
Yaşayan var, işıq da var orda,
Gözə çarpmır bu od-ocaq ancaq.

Bir kiçik şəxs, əlində bir bayraq,
Bir vətən bayrağiylə şölələnir,
Bir yığın al fənarla parlayaraq.

Onda vardır sabaha sonsuz inam,
O əmindir: ədalətin bir gün
Edəcəkdir cülusunu[1] bayram.

[1] Cülus – təxtə çıxmaq



## DƏVƏNİN BAŞI

Vaxtilə böyük bir dəvənin bir başı varmış...
Başsız dəvə olmaz ki, nağıl, nəysə, bütün gün
Yaz, qış, bu beyinsiz, bu çürük baş
Çöl, qır[1], təpə, dağ, daş
Biçarəni bihudə sürüklər və yorarmış...
Biçarə ağır gövdə nə etsin, kimə küssün?
Bir qarğa tapıb dərdini açmış, o demiş: – Vah!
Başdan böyük Allah... başa gəlmiş, çəkəcəksən.
Artıq işə hürgüc belə çaşmış,
Quyruqsa dolaşmış
Başdan-başa ətrafı; fəqət kimsəni Allah
Başdan düşürüb quyruğa baxdırmasın; üzdən
Bir parça durub dinləyən olmuşsa da: – Get-get.
Aləm bu uzun dərdi eşitməkdən usanmış.
Artıq kimə dinlətməyə getsə,
Kimsə duysa, eşitsə
Üz vermədiyindən, dəvəcik sakinü sakit
Bir xəndəyə enmiş, başı soxmuş və uzanmış,
Birdən çəkilib: "Haydı, – demiş, – duzəxə[2], murdar!"

Haqsızlıq edən başları bir gün... qopararlar.

ır – səhra, düzənlik
uzəx – cəhənnəm

## XƏLUQUN İNAMI

Bir qüdrəti-külliyə var ülvi və eyibsiz,
Yüksək və müqəddəs, ona vicdanla inandım.

Torpaq vətənim, növi-bəşər millətim... insan,
İnsan olar ancaq bunu izanla[1], inandım.

Şeytan da bizik, cin də, nə şeytan, nə mələk var;
Dünya dönəcək cənnətə insanla, inandım.

Fitrətdə[2] təkamül əzəlidir, bu kəmalə
Tövrat ilə, İncil ilə, Quranla inandım.

Əbnayi[3]-bəşər bir-birinin qardaşı... xülya!
Olsun, mən o xülyaya da min canla inandım.

İnsan yeməz insan, bu təsəlliyə içimdən
Bir an üçün əcdadımı nisyanla[4] inandım.

Qan şiddəti şiddət qanı bəslər, bu ədavət
Qan atəşidir, sönməyəcək qanla, inandım.

Əlbət bu məzar ömrünü bir nurlu qiyamət
Təqib edəcəkdir, buna imanla inandım.

Əqlin, o böyük qüvvənin öz möcüzəsilə
Haqsız girəcəkdir yerə xüsranla[5] inandım.

Zülmət sönəcək, parlayacaq nuri-həqiqət
Birdən-birə bir qırmızı vulkanla, inandım.

[1] İzan – zəka, ağıl
[2] Fitrət – yaradılış
[3] Əbna – oğullar
[4] Nisyan – unutmaq
[5] Xüsran – ziyan, zərər



Qollar və boyunlar açılıb, bağlanacaqdır
Yumruqlar o zənciri-xüruşanla[1] inandım,

Bir gün edəcək elm bu qara torpağı altun,
Hər şey olacaq qüdrəti-ürfanla... inandım.

[1] Xüruşan – guruldayan, səs qoparan

## PROMETEY

Qəlbində hər dəqiqə bu yüksək üzüntünün
Can yandıran əzabını duy, hər zaman düşün:
Onlar neçün səmada, neçün mən çuxurdayam?
Gülsün nədən cahan mənə, mən ağlayım müdam?
Yüksəlmək asimana və gülmək, nə dadlı şey!..

Bir gün bu xəstəlikli vətən canlanarsa... Ey
Nurə və feyzə hey can atan xalqın öndəki
Məchul elektrikçisi, sən yer üzündəki
Miskinliyi atıb dala, iqbalı səsləyən,
Ruhu, xəyalı, mənliyi, idrakı bəsləyən,
Canlandıran nə varsa, gətir; işləsin əlin...
Gör daima önündə əsatiri-əvvəlin
Göydən alov çalıb gətirən qəhrəmanını...
Qoy heç tapılmasın biləcək namü şanını.



## XƏLUQUN VİDAİ

Sən qatar, mən vaporda pürtəmkin
Atılırkən – sən İskoç[1] ellərinin
Sisli, yağmurlu, qarlı, buzlu, fəqət
Səy, himmət, vüqarü hürriyyət,
Mədəniyyət, həmiyyət ölkəsinə.
Mənsə nazəndə Bosforun köhnə,
Köhnə, avarə, bixəbər, dərdli,
Bəlkə cənnət qədər təravətli,
Fəqət əzgin, sıxıntılı, tutqun
Bir kənarında xəstətək, yorğun
Bir həyatın dalıb qaranlığına,
Nə düşündüm, bilirmisən? Bu ana,
Bu gözəl torpaq ən sonunda... Yazıq
Bunu məndənmi bilməlidin!.. Arıq
Və baxımsız xarab olub gedəcək...
Acı şeylər, Xəluq, fəqət gerçək!

* * *

Hanı bir gün səninlə Topqapıdan
Biz gəlirik, yolüstü bir meydan,
Bir çinar gördük: ənli, boylu, vəqur[2],
Bir ağac, heç əyilməmiş məğrur
Qoca bir gövdə, bəlkə altı yüz il,
Bəlkə ondan da çox, sən artıq bil,
Qayğısız bir ömür sürüb gəlmiş,
Öylə sərpilmiş, öylə yüksəlmiş
Ki, civarında[3] qübbələr, damlar
Hamısı qarşısında səcdə qılar.
Onu qorxuyla seyr edən kimidir,
Hər kəs ondan deyir, o mədh edilir,
Görünür qaməti uzaqlardan,

[1] İskoç – İngiltərəni bildirir
[2] Vəqur – vüqarlı
[3] Civar – ətraf, yaxın yerlər

Fəqət əyyuqa[1] baş vuran, uzanan
Belə heybətli gövdə çır-çılpaq,
Nə yaşıl bir budaq, nə bir yarpaq...
Quruyur, ah, çox yazıq! Bu dərin
Yara böyründə hansı bir xain
Baltanın, bir qəzəbli ildırımın
Zəhridir... Söylə, ey çinar, bağrın
Hansı odlarla yandı, hansı qara
Qurd içindən gəmirdi? Bax, nə yara!..
Səni kim indi bağlayıb saracaq?
Kim şəfalar verib də qurtaracaq?
Bu dönən qarğalar başında sənin,
Söylə, bunlarmıdır zəhərləyənin?

Söylə, ey müztərib vətən, bildir:
Çəkdiyin hansı pis əməldəndir?..

* * *

Bəli, dardır və əyridir bu keçid;
Ey gülərüzlü yolçu, sən yürü, get!
Sən bu yollarda durma, qalma geri,
Bir işıq karvanilə get irəli.
Gəz, dolaş elm, sənət aləmini,
Çalış, əlləş, hər an düşün vətəni.
Çəkinib qorxma heç çətinlikdən.
Hər nə tapsan, buraxma: sənət, fənn,
Etibar, etina, cəsarət, ümid,
Hamsı lazım bu yurda, hamsı müfid[2].

Bizə bol-bol işıq qucaqla, gətir,
Düşmək ətrafı görməməkdəndir.

[1] Əyyuq – göyün yüksək yeri
[2] Müfid – faydalı



* * *

Əlvida, ey sevimli yolçu, gecən,
Gündüzün daima üzün kimi şən,
Saf, təmiz qəlbin ilə şad olsun,
Keçdiyin yer çiçək, çəmən dolsun...
Əlvida, ey şərəfli yolçu! Həyat
Bir qarış yol, fəqət onu əqəbat[1]
Hər zaman sapdırır, bükür, uzadır...
Ey gülərüzlü yolçu, gün qısadır,
Gecə bəzən məxof[2] olur, lakin
Sən cəsurlan, mətinləş, ən sakin
Yolçuluq uyqudur, böyük quşlar
Basmağa dalğa yox, qasırğa arar.

* * *

Getdiyin yol tikanlı, daşlıqdır,
Böylə bir yolda yüksəliş çox ağır.
Keçəcəksən bu dar keçidlərdən,
Keçəcəksən, əzablı olsa da, sən.
Fəqət alnın açıq, üzün parlaq,
Gözlərindən bu yolda nur axacaq.
Səni cəzb eyləyər, çəkər ideal,
Sən yaxınlaş ona, fəqət o xəyal
Buna baxmaz, uzaqlaşar səndən.
Sən məhəbbətlə tutmaq istərsən,
O qaçar, qolların açıq, təşnə
Atılarsan, o ta uzaqda yenə
Bir tikanlıqda gizlənər və gülər.
Sən gedərsən baxışlarında kədər,
Yaralar əllərində, qəlb məhzun,
Büsbütün qəmli, büsbütün yorğun

[1] Əqəbat – çıxılması çətin yoxuşlar, xatalı keçidlər
[2] Məxof – qorxunc

Sən yorulduqca yol, keçid artar,
Çalı sancar, daş ağrıdar yırtar,
Çırpınar hər tikanda bir parçan...
Yenə ümmid ilə önündə uçan
O işıqlı xəyalı tutmağa sən
Atılarsan, gedərsən, inlərsən.

Burax uçsun, bu gün deyilsə, yarın
O sənindir, sən olma heç darğın.

Gedən, əlbət, çatar, düşən qalxar.
Qara daşdan su damcı-damcı axar,
Toplanar, sonra bir gümüş göl olar.
Axtaran haqqı ən sonunda tapar...
Bunu hörmətlə dinlə sən, dünənin
Bu dərin səslərində, bil ki, sənin
Gələcək sakit illərin yaşayır
Oxu tarixi, elmi, gör nə yazır
Sənə insanlığın bəqasından[1],
Keçmişin dürlü macərasından
Bəhs edərkən, bəşər nə anladacaq:
Yaşamaq haqq, yaşatmamaq... O da haqq.

* * *

Adəm övladı doymamış ciddən
Nə əzilmək, nə haqqı əzməkdən.
Duymamış heç bir işdə yorğunluq:
Bir şikayət, həmən qapaz, yumruq.
Bu kifayət deyil, çomaq vurmuş,
"Haqq!" deyən ağzı qanla susdurmuş.
O da kafi deyil, bu gün qaralar
Və dənizlər zəhərli qumbaralar,
Bombalar, güllələrlə malamal[2].
Bir az acizmisən, zəifmisən, al

[1] Bəqa – həmişə var olma, davam etmə
[2] Malamal – dopdolu



Bir kötək, bir çomaq, ya bir güllə,
Budur haqqın... Fəqət gözəl bəllə:
Sən də bir gün, həyat budur, səndən
Daha aciz birilə istərsən
Olasan öylə biaman, kəskin,
Sən də coşqun bəlağətinlə səsin
Nə qədər çıxsa, çatsa, bir o qədər
Gurlayarsan... Səmada şimşəklər
İldırımlarla eyni dərsi verir:
Bütün aləm əsiri-qüvvətdir.

* * *

Buna razı deyil ağıl, əlbət,
Haqdadır, haqqdır ən böyük qüvvət,
Dünən ölgün yanan bu şübhə, yarın
Parlayan bir həqiqət... Ey sabahın
İnqilab ordusunda çarpışacaq
Qəhrəman, anla, bil ki, qüvvət – haqq!
Və bu düstur əlində, qorxmayaraq
Yürü, qalib gələr bu al bayraq.
Keçmişə yaxşı bax: düşən, qalxan
Hamı haqlı sözündə, haqqı yaxan
Yenə haqdan alınma bir şölə,
Haqqa baş kəsdirən silahda belə
Parlayan haqq... Fəqət sənin silahın
Haqqa sıyrılmasın, tərəf çıxsın!
Gözlərəm bir zəfər əsasən mən
Silahından ziyadə qəlbindən.

* * *

Ey Bizansın zəifləmiş, titrək
Qollarından, həvəslə yüksələrək,
Sıyrılan yolçu, baxma heç geriyə,
Sala bilməz səni o təhlükəyə
Onun əxlaqə zidd o baxmaları.

– Daima öndə, daima yuxarı! –
Belə fərmanla bağlıdır əzmin.
Uç get əflakə, sənətin, elmin
Çal qanad nurlu göylərində, dolaş,
Fərşi[1] keç, ərşi[2] atla, sədrəyi[3] aş,
Gör nə var orda aldıran ibrət:
Qurtuluş, yüksəliş, səbat, cürət...
Topla çatdır, nə varsa, daş, iynə
Bu mühitin keyişmiş əllərinə.
O bir az bəlkə canlanar və sənin
Zəhmətin, himmətin və səyin üçün
Alar, əlbət, vətən, bu xəstə anan
İsti bir busə tərli alnından!

[1] Fərş – yer üzü
[2] Ərş – göyün doqquzuncu qatı, ən yüksək təbəqəsi
[3] Sədrə – göyün yeddinci təbəqəsində düşünülən bir yer



## RƏSMİNİN QARŞISINDA

*Nəjadın atasına*[1]

Sən daima önündə o daşdan sükunətə,
Qərq olmuş intibah ilə hər an bu xilqətə.
Bir şeylər anladan kimi; yaxud soran kimi
Durduqca, mən bir az sıxılıb sirri-fitrətə
Kükrər və söylərəm, ki: "Ey ulduzlu örtüyü
Örtüb qaçan bu qəmli, fəlakətli səhnəyə!
Rəhmin nəzər salıb bizi fərq etməsin deyə
Gizlənmək istəyirsən, əmin ol bu nalələr
Bir gün bir odlu ox kimi yırtıb dələr, keçər
Sonsuz geniş fəzaları, qat-qat səmaları,
Aciz edər cəlalını, ey xaliqi-bəşər,
Əlbət bu müztərib bəşərin iştikaları[2]"
Əlbət bu körpənin anası etməyib dəvam
Övladdan ayrı düşməyə, bitabi-intiqam
Səndən sorar, səbəbi nədi bu zülmə... qəhr olan
Həqq axtaran qapında sənin istəyib aman
Öz dərdinə təsəlli arar dərddən inləyən,
Hətta bu xudpəsənd və həmişə mənəm deyən
Vicdanı buz kimi soyuq abid... Ki, vəhşidən
Heç fərqi olmayan bu rəzalət mühitinin
Qoynunda pərvəriş tapan... Hətta nə həqq, nə din,
Heç bir vəzifə anlamayan, bilməyən, fəqət
Hissiylə göydə axtaran ağuşi-mərhəmət,
Bir qəlbi-mərhəmət sezən avarələr belə
Aciz qalınca səndən umar ədlü-təsliyət[3]
Hər addımında var bəşərin qəhrü qailə[4].
Uçqundur hər tərəf, nə dayanmaq, nə düşmədən
Keçmək ümidi var... Kimi dutsun fəqət düşən?

[1] Yəni Ricaizadə Mahmud Əkrəmə
[2] İştika – şikayət etmək
[3] Təsliyət – təsəlli
[4] Qailə – bəla

Əlbəttə, səndən istəyəcək xəstələr şəfa
Hər qəlb ümid, nəşə, bütün başlar etila,
Gözlər işıq, düşən tutacaq şey, ölən nicat.
Hər dildə bir tərانə və hər teldə bir səda,
Vəhşi bir ərqənun[1] səsi fəryadi-kainat.
Əlbət, bu yüksəlib sıxacaq asimanını.
Əlbəttə, sən yerin bu usanmaz fəğanını
Rəhminlə gün gələr ki, duyarsan, o gün mənim
Hər nalə, hər şikayətin üstündə şivənim
Dəhşətlə titrəyib soruşar zarü-biqərar.
Ey çeynəyən yazıq bəşəri, tanrı, söylə bir
Məxluqi-əşrəfin bu oyuncaqmıdır, nədir?
Ey intiqam alan, bizə lazımsa bir vücud
Lazımmıdır cəhənnəm ilə dərdi-bihüdud?
Varlıq deyil, bu yoxluğa doğru gedən güzar...
Əlbət, bunun da bir yeri var, bir hesabı var
Lakin cahanda anlamamaq, bilməmək əzab
İnsan əzaba dözməyərək şübhəsiz sorar,
Əlbət, sual edər bu müəmmaya bir cavab...
Əlbət, bu möhtərəm ata ülvi Nəjadının
Bir sıfr olan hesabını səndən arar yarın!"

[1] Ərqənun – saz



## HƏQİQƏTİN ULDUZU

*Yeganə filosofumuza*

Təhqiramiz soruşulardı: – Neçün hər kəsdən
Ayrı düşdün? Niyə üstündə əsib-titrənilən,
Sevilən şeyləri təhqir edərək,
Aləmin ziddinə miskin, dolaşıq bir məslək
İntixab etməyə məcbur oldun?
Səni təklik nə üçün etdi ürəkdən məmnun?
Nə idi sövq edən amalını bihudə yerə
Ən çətin yollara, ən müdhiş, ağır zərbələrə?
Nə idi ruhunu, vicdanını düz yoldan edən?
Doğruluq eşqimi, düzlükmü? Fəqət sən dəlisən!
O sükut etdi; gərilmiş əsəbin gözdə nəmi
Bir təbəssümdə nihan qətrə kimi
Titrəyib qaldı üzündə...
– Dəlisən, həm də yəqin!
Bütün insanlar ağılsız, bütün aləm miskin,
Hamı fikrən kor imiş, doğrunu dünyada görən
Tək sənin ağlın imiş? Söylə görək, söylə, nədən
Hər kəsin getdiyi yoldan dönərək,
Hər kəsin düzdüyü uydurmaları haqq bilərək
Səcdə qıldın?
O inadcıl və qeyidsizcə durur,
Baxır heykəl kimi...
– Sən həm dəlisən; həm məğrur
Və müzürr bir dəlisən; həddini aşdın artıq,
Səni həzm eyləyə bilməz daha bu insanlıq...
Hərə bir daş götürüb kükrəyərək birdə ümum
Etdilər "haqq" deyərək haqqa hücum.
Ona hər zərbə şəfa, hər acı söz bir müjdə...
Daş atıldıqca sızan qan o müqəddəs üzdə
Bir kiçik nöqtə yaratdı... Baxaraq hər yolsuz
Doğru zənn eylədi alnında qızıl bir ulduz.

## FƏRDA[1]

Fərda sənin, sənin bu tərəqqi, bu inqilab,
Hər şey sənin deyilmidir? Ey gənc, sən ey şəbab[2]
Ümmidin ey fərəhli üzü, bir bax əksinə
Qarşında bir səmayi-səhər, saf, bisəhab[3]
Açmış geniş qucağını gör, müntəzir sənə,
Ömrün fərəhli dan yeri, ey gənc, indi sən
Hər bir kəsin gözündə həyatın ümidisən!
Alnında bir işıqlı sitarə, yox, aftab!
Parla, önündə qəmlə dolu keçmiş əsrlər,
sönsün də sərbəsər.
Sönsün həmişəlik o cəhənnəm! Sənin bu gün
Cənnət qədər gözəl vətənin var, bu gördüyün
Zümrüd baxışlı, inci şətarətli qızcığaz
Kimdir bilirmisən? Vətəni. İndi bir konaz –
Hərgah bu nazlı çöhrəyə – Allah əsirgəsin –
Bir pis nəzərlə baxsa, danış, heç dözərmisən?
İstərmisən ki, cəddimizin pak, möhtəşəm
Yüksək vüqarlı alnına, bir kirli əl dəməm,
Hətta bir yabançı əl uzansın? Bu məqbəri
Razı olarmısan daşa bassın o sərsəri?!
Əlbət, həyat bir də müqəddəs böyük məzar
Doğma vətən misalıdır, anla! Bu pak diyar
İnsanların çiyinləri üstündə yüksəlir.
Gənclər, bütün ümidi-vətən indi sizdədir!
Hər şey sizin, vətən də sizin, hər şərəf sizin,
Lakin unutmayın ki, zaman yatmamış, mətin,
Sakit addımlar ilə yəqin izləyir bizi,
Öndən gedir, fəqət yenə diqqətlə hər izi
Çox yaxşı anlayır, biz onun qarşısında, bax!
Birdən utansaq, onda yazıqlar bizə... Bayaq
“Fərda sənin” dedim, məni alqışladın? Xeyr,

[1] Fərda – sabah, gələcək
[2] Şəbab – gənclik
[3] Səhab – bulud; Bisəhab – buludsuz



Hər şey sənin deyil, sənə fərda vədiədir[1]
Hər şey əmanətindir, unutma, sən, ey cavan!
Səndən də bir hesab alacaq mütləqa zaman.
Sən keçmişə baxanda bu gün intibah ilə,
Ati[2] də qarşılar səni bir çox günah ilə.
Hər üzvü ehtiyacın əlində əsir olan
Bir nəslin oğlusan, bunu yad et zaman-zaman.
Əsrin, unutma, xariqələr, odlar əsridir
Hər ildırımda bir gecə, bir kölgə dövridir.
Aydınlaşar üfüqlər, o dəm yüksələr həyat.
Yüksəlməyən düşər, ya tərəqqi, ya inhitat[3]
Yüksəlməli, toxunmalı alnın səmalərə,
Doymaz bəşər dedikləri, yüksəl fəzalərə!
Uğraş, didin, düşün, ara, tap, qoş, atıl, bağır!
Durmaq zamanı keçdi, çalışmaq zamanıdır.

[1] Vədiə – əmanət
[2] Ati – gələcək
[3] İnhitat – aşağı düşmə, alçalma

## İTHAF

Yuva şəfqət yuvasıdır,
Analardır onu quran.
Fəqət, balam, sənin yuvan
Mədəniyyət yuvasıdır.
Bunu ancaq elm qurar,
Bunun ayrı dəyəri var.

Sev yuvanı orada sən,
Dostlarına qoşularaq,
Ötüşərək, oynaşaraq
Öyrənərsən – öyrənmədən
Nədir zəhmət, nədir kədər –
Mənfəətli bir çox şeylər.

Haydı yuvana, yavrucuq!
O, mərifət yuvasıdır
Və fəzilət yuvasıdır.
Orda fikrin oyanacaq,
Orda qanad açacaqsan,
Yüksəklərə uçacaqsan.



## XOXAN

Şərmin xoxanlardan qorxar
Zənn edənlər yanılırlar.
Səhvdir, Şərmində, doğrusu,
Yoxdur heç xoxan qorxusu.
Əvvəllər o da qorxarmış,
Onu da qorxudarlarmış:
"Odur, xoxan gəlir" deyə.
Uşaq aldanır hər şeyə.
Lakin daha ürəyinə
Qorxu vermir nə əcinnə,
Nə cadu, nə div, nə şeytan,
Çünki bunlar hamsı yalan!
Ona hər şeyi anladan
Qardaşı, bilmirəm hardan,
Bir gün bir qutu gətirir,
Qutunu Şərminə verir:
– "Oynat, bu cəftəni bir az",
Cəftəylə oynar-oynamaz,
Qutu uşağın əlindən
Çıxar. Qorxduğunu görən
Qardaşı deyir ki: "Şərmin,
Səni qorxudan bu xain,
Bu qorxunc şey ki, qutudan
Birdən çıxdı, bir quzudan
Qoparılmış bir ovuc yun,
Bir az kağız, dörd-beş uzun
Teldir. Məgər heç qorxulu,
Heç xatalı bir şeymi bu?
Səni qorxutdu, çünki sən
Yazıq, belə boş şeylərdən
Xəbərsizsən, anlamırsan.
Bütün cinlər, xoxu, xortdan...

Hamsı belə boşdu". Şərmin
Dedi: bundan sonra yəqin
Bil ki, daha aldanmaram.
Xoxanlara inanmaram.

Əqli başında insanlar
Yalnız yamanlıqdan qorxar.



## KAMAN

Pianonu sevər atam,
O da anacığım kimi.
Mənsə onu anlamaram,
Mənəsə qardaşım kimi
Təsir edir kaman səsi,
Do-re-mi-fa – fa-sol-lə-si.
Onun o incə nəğməsi,
Do-re-mi-fa – fa-sol-lə-si.

Bəzən ağlar için-için,
Bəzən gülməkdən qırılır.
Gəlir böyük qardaşımın
Odasından ağır-ağır
Həzin bir şərqi nəğməsi,
Do-re-mi-fa – fa-sol-lə-si.

Ah, o dərin kaman səsi
Do-re-mi-fa – fa-sol-lə-si.

Qardaşcığım yaxşı çalar,
Həm mənə də öyrədəcək.
Onun neçə kamanı var,
Birini mənə verəcək.
Hamısının gözəl səsi,
Do-re-mi-fa – fa-sol-lə-si.
Qulaqlarımda nəğməsi,
Do-re-mi-fa – fa-sol-lə-si.

## YETİM

"Hər gün məktəbə gələrkən,
Daxmacığının önündən
Keçdiyiniz yoxsul qadın
Bərk xəstədir; bəlkə yarın
Uşağı yetim qalacaq;
Görən ona kim baxacaq?
        Onlara siz
                    Yardım edin!"
Bu gün ilk dərsdə müəllim
Belə dedi, anacığım:
– Əziz anam, "yetim" – nədir?
– Yetim... Yetim... Ah! Sən də bir
Yarım yetim deyilmisən?
Böyümüsən, odur ki, mən
Danışıram, sənin anan
Neçə ildir bu dünyadan
Köçüb-gedib, mən xalanam,
Tutaq ki, sənin ananam.
Atan əsgər, uzaq yerdə;
Kim bilir, hansı çöllərdə
Xatırlayır indi səni!
Ananı görə bilmədin,
Sən dünyaya gəldiyin gün
O, dünyadan getdi, küsgün.
– "Mən bunu heç bilmirdim ki,"
– "Əlbəttə, bilməzdin, balam!"
– "Bir şeyi bilmək istərəm.
Sənə bənzərdimi anam?..
– "Xayır, bənzəməzdi, fəqət
Biz sənə bənzərik, balam.
Yetimik mən də, atan da
Əziz bala, bu cahanda.
Yarım yetimlər lap çoxdur,
Heç yetim olmayan yoxdur.



Eşit, təsəlli tap bir az.
Bil ki, həmişə yaşamaz
Kimsənin ata-anası.
Vətən yetimlər anası

Yaşada bilsək, o yaşar...
Yaşasın qoy həşrə qədər!

## MƏLƏKİN QUZUSU

Hər kəsin bir oyuncağı,
Bir topu, bir bəbəyi[1] var.
Oyuncağı olmayanın
Pişiyi var, köpəyi var.
Nə itim var, nə bəbəyim,
Mənə bəsdir öz mələkim.

Mənim kimi o da yetim,
Mənim kimi o da məlul.
Onun da bir kuklası yox,
O da mənim kimi yoxsul.
Ancaq ona mən baxıram,
Onunkudur yoxum-varım.

Mələkimə mən bir quzu
Qayırmışam məndilindən.
Onu o qədər sevir ki,
Düşürməyir heç əlindən.
Sayəsində quzusunun
Mələk indi bir az məmnun.

Qayırdığım şey, quzudan
Başqa bənzəyir hər şeyə,
Amma bu yumru-mumru şey
Çox xoş göründü mələkə.
Mələyim şeytan deyildir,
Nə desəniz başa düşür.

Hər sabah gedib çəməndən
O bir qucaq ot gətirir,
Onu oxşaya-oxşaya,
Öz quzusuna yedirir.
O yeyəndə, bu oturur,
Baş ucunda mələr durur.

[1] Bəbək – gəlincik



## AĞKİRPİK[1]

Bahar olsun da seyr edin,
Necə bəzər bayırları,
Zümrüd kimi çayırları,
Üzə gülən o nazənin.
Gəlinüzlü ağkirpiklər,
Altungözlü ağkirpiklər.

Tarlalarda xoşa gedir
Sarı, çəhrayı... rəngbərəng
Saya gəlməz hər növ çiçək.
Məncə hamsından gözəldir
Gülərüzlü ağkirpiklər.
Altungözlü ağkirpiklər.

Yarpaqları qıvrımlaşır.
O da ayrı bir gözəllik.
Boy-buxun, boynu incəcik.
Həm gözəl, həm də nazlıdır.
Gəlinüzlü ağkirpiklər.
Altungözlü ağkirpiklər.

Rüzgar əsər: gah o yana,
Gah bu yana, düz bərabər
Dalğa-dalğa əyilirlər,
Fərəh verirlər insana
Gülərüzlü ağkirpiklər,
Altungözlü ağkirpiklər.

[1] Ağkirpik – çobanyastığı

## QUŞLARLA YARIŞ

Quşlar uçar,
Mən qaçaram,
Onların qanadları var,
Mənim qanadım qollarım.
Quşlar qanadını çırpar,
Mən də qolumu sallaram.
Uçun quşlar, uçun quşlar,
Hamınızla yarışım var!

Quşlar uçdu
Mən də qaçdım,
Qaçdım yarı yola qədər;
Ta önümə bir uçurum
Çıxdı. Orda qaldım naçar.
Yox, sığışmaz qüruruma.
İstəyirsiz, gəlin təkrar
Yarışaq biz... Uçun quşlar!



## BAHAR GƏLİN

Bahar... Bahar... hətta adı,
O nazlı, sevimli adı
Başqa ada bənzəməyir;
O gözəli hamı sevir.
Günəşin doğduğu yerdən
Gəlirmiş o, odur ki, mən
Dedim, ona günəş qızı.
Günəşin altun ulduzu
Parıldayır kəkilində.
Yanaqlarının gülündə
Pənbə bir nəşə var; birər
Mavi nilufərdir gözlər.
Gəlin Bahar, gülyanaqlı,
Qırmızı, qönçədodaqlı,
Günəş qızıdır o dilbər,
Hər görəni məftun edər.
.........................
O gülə bülbül deyərdim,
Danışan bülbül olsaydı...
Qıvrım-qıvrım saçları var;
Onlara sünbül deyərdim
Altundan sünbül olsaydı.

## YAY ANA

Günəş çox qızğın görünür,
Od-alov saçır hər yana.
Oraq əlində Yay ana
Dərəyə doğru yüyürür.
Yanıq alnı tər içində,
Üzü atəşlər içində
Al-al olmuş, bir tərpətsən
Qan fışqırar üz-gözündən.
. . . . . . . . . . . . . . . . . . . . . . .
Günəşmi dəydi başına?
Ona nə oldu gedərkən?
Orağı atdı əlindən.
Həm özü də bir az sonra
Düşdü çayın kənarına...

Çinar dalı, çinar dalı,
Düşkünləri qorumalı.
Gəldi sənə qonşu deyə,
Sən kölgə ver Yay anaya.



## PAYIZ XALA

O, hər səhər yuxusundan
Oyanırkən məxmur-məxmur,
Bayğın gözlərində onun
Bir məhrumiyyət oxunur.
Yazıq, xəstə Payız xala;
Necə dözək ayrılığa?!

Yenə şimşək-şimşək olmuş
O sarımtıl-yaşıl gözlər.
Üstünü dumanlar almış,
Bir səhərçağına bənzər.
Yazıq, xəstə Payız xala;
Necə dözək ayrılığa?!

Yanar al-al qığılcımlar
Çökük, solğun yanağında;
Bu cür sönər, görən ağlar
O gözəli yatağında.
Yazıq, xəstə Payız xala;
Necə dözək ayrılığa?!

Bir həftənin içində, bax,
O gül üz necə saralmış?!
Mümkünmüdür acımamaq?
Üç aycığaz ömrü varmış...
Ölmə, dayan, Payız xala;
Necə dözək ayrılığa?!

## QIŞ BABA

Dağımızda bir çoban var,
Nə yeyib-içər? Nə yatar?
Soruşdum, atam bilmədi,
Kimliyini söyləmədi.
Onun gəzdiyini görən
Çox, fəqət salam verən
Yox, ona nifrət edirlər;
Adı nə? Dedim, dedilər
Ördək, qovan kimi, "Qış! Qış!"
O, ağappaq bir adammış;
Bəyaz əba, bəyaz papaq;
Saçı, saqqalı, bığı ağ.
Yalnız çirkin qorxunc üzü,
Bir də ölüm saçan gözü
Qara zülmət kimi qara,
Və sopsoyuq... Ara-sıra
Papağından düşən tüklər
Dağı örtər, düzü örtər.
Və onun şehtək ağlığı
Üşüdərmiş ortalığı.

Nəfəsində zəhər varmış,
Nəyə toxunsa solarmış.
Bəzən əlində bir boru,
Üflədikcə meşəboyu,
İnilti, uğultu dolar,
Hər bir yana; bütün sular
Buza dönər; zavallıcıq
Ağacların, quru, qırıq,
Çırıl-çırıl ağacların
Koma-koma, yığın-yığın
Yerdə yatan solğun, sarı
Ölüüzlü yarpaqları,
Acı-acı xışıldarmış.



Quşcuğazlar arayarmış,
Tapa bilməzlərmiş yemək;
Nə bir darı, nə bir böcək,
Çox acıyıram onlara;
Hələ sərçə, o biçarə,
Yuvasız, yemsiz nə edər?..
Ah.. o çoban, o dərbədər!
Tapsam onu, didik-didik
Eyliyərdim, mənim kiçik
Sərçəmi də qurtarardım,
Özüm də rahat yatardım.

. . . . . . . . . . . . . . . . . . . . . . . .

Mən bunları düşündükcə
Üşüyürəm, bütün gecə
Yatağıma dolubdur qar,
Türkürpərdən sərt rüzgarlar.
Əsir, görürəm, duyuram,
Qorxa-qorxa uyuyuram...
"Qış! Qış!" deyilərdi, baxın,
Bu ixtiyar qış olmasın!

## SÖHBƏT

Oh, uşaqlar! Mən görərkən
Sizi hər gün pəncərəmdən
Xatırıma nələr gəlir...
– Keçmiş, o bir xəzinədir.
Onu açsan, yada gələr
Çox zəhərli xatirələr.
O məzarın ilanları,
Əqrəbləri, çiyanları...
Fəqət qorxma, çalış, axtar,
Axtar, qarış-qarış axtar.
Görəcəksən sən keçmişin,
Bir az gizli, bir az dərin
Yerlərində nələr, nələr,
Nə tükənməz xəzinələr
Saxlanmışdır. Biz vaxtilə
Çəkişmişik dərdlər ilə.
Məqsədimiz: elm oxumaq!..
Düşünüb gülmüşəm bayaq.
Xoşbəxt olun, ay uşaqlar!
Gözəl kitablarınız var.
Yaxşı, təmiz müəllimlər
Sizə hər şey öyrədirlər.
Taxta-parta da mükəmməl,
Hər birisi yoxdu əvvəl.
Həsirlərdə sürünürdük,
Evlərə cahil dönürdük.
Bizə nisbət bu gün birər
Kiçik alimsiniz sizlər.
Oxuyunuz. Oxuyanlar
Çox şey bilər, çox şey anlar,
Məqsədinə onlar çatar.
Xidmətə də girər onlar.
Onlar, yəqin, məsud olar.
Bu yolda çox təhlükə var.



Öyrənməsək yolu-izi
Yolda qurdlar qapar bizi.
Oxumalı, oynamalı,
Heç işsiz oturmamalı.
İşlədikcə bu makinə
Çərxlərinə, dişlərinə
Qüvvət gəlir. Boş duranın,
Tənbəl-tənbəl oturanın
Bu əsrdə çörəyi yox.
Bəli, işsiz oturan çox,
Fəqət hamısı tox deyil,
İşsiz duran da çox deyil.
İşləməli əl-qol; bunlar
İşlədikcə qarın doyar,
İnsan gözlərilə görür...
"Alət işlər, əl öyünür".
Derlər hər sözə baxmayın,
Eşidin də inanmayın!
Əl tutarsa gedər kotan,
Əldir aləti yaradan.

## DÜLGƏR

Mən dülgərəm neçə gündür...
Çalışan hər işi görür;
İnsan üçün sənət çoxdur,
Görülməyəcək iş yoxdur.
Əlim işlər, işim gedər,
Alətlərim birər-birər
Keçərlər hər gün əlimdən.
Onları çox sevirəm mən,
Of... Sevgili alətlərim!
Mən sizi hər gün silərəm.
Dəzgahımın bir yanında
Düzülübdür sıra-sıra.
Bir mişarım, bir baltam var,
Rəndələrim par-par yanar.
Pərgarlarım, burğularım,
Cədvəllərim, qurğularım,
Qısqaclarım, kəlbətinim,
Hamsı mükəmməldir, bilin.
Çəkic, bıçaq, qələm, yeyə,
Torna, kərki, bıçqı, tiyə,
Avadanlığımdır bunlar,
Bunlarla işləmək olar.



## QIRIQ AT

Keçən həftə bayram idi,
Bayram hədiyyəsi babam
Mənə gözəl bir at verdi.
Həm at idi, həm araba.
Onu özüm sürüdürəm,
Təkər-təkər yürüdürəm.

Dünən atım xəstələndi.
– Atmı, arabamı? Nəysə!
Evdə söhbət çox uzandı;
Nalbəndə, xeyr, İdrisə...
İdris kəndin dəmirçisi,
Hamı tanıyır İdrisi.

Əvvəl nalbəndə göstərdim
Dedi: – "Apar dəmirçiyə!"
Dəmirçini gedib gördüm;
– "Onu çox ustadır" deyə
Mədh edirlər, eşitmişdim
Dükanına da getmişdim.

İş çəkdi, bir saat qədər,
Mən də ordan ayrılmadım.
Boş durmadım, fəqət nə var
Nə yox, gördüm də anladım.
Dükan, yepyekə geniş yer,
Kömür, dəmir dörd bir tərəf.

Qocaman, qara bir ocaq,
Qara, qocaman bir körük.
Dəmir dolu hər bir bucaq.
Birisi saf, biri çürük.
Külçə dəmir, çubuq dəmir,
Lövhə, parça... Bir çox dəmir.

Ocağın lap yanındaca
İki ucu sivrildilmiş,
Yerə bərkidilmiş yekə
Bir şey gördüm, zindan imiş.
Yanında bir qucaq yekə,
Çəkic, qısqac və sairə.

Usta əvvəla ocağın
Atəşini körüklədi.
Sonra qırılmış ayağı
Bir-birinə bənd elədi.
Mənim atım əvvəlkindən
Qəşəng oldu həqiqətən.

Bu kiçik iş bir çox zəhmət
Və hünərlə hasil oldu.
Usta İdris tam bir saat
Ocaq başında yoruldu...
Yer üzündə gözəl şeylər,
Çoxlu alın təri istər!



## ARI SANCAR

Pəncərəmizdə bir arı,
Halqa-halqa siyah sarı.
Tırtılını çıxardaraq,
Tamburunu da çalaraq
Qaçır ora, qaçır bura,
Çıxmaq istəyir bayıra.
– "Bunu iplə tutmaq gərək
Vızıldasın, baxıb gülək!"
– Yavrum, saqın, arı sancar,
İynəsindən zəhər axar,
Acısına dayanılmaz.
– Onlar sözdür? Həm biz qurnaz
Deyilmiyik? O sancmadan,
Zəhərini axıtmadan,
Biz sancarıq... İplik hazır,
Bir ucunda ilmək hazır,
Hər şey hazır, görək!.. Aman,
Nə var? – Arı. – Yetiş, Ana!
Sancdı məni. – Əcəb oldu!
Aradığın odur, olsun!
Al dərsini, otur indi!
Axı sənə demədimmi?
"Yavrum, saqın, arı sancar,
İynəsindən zəhər axar?"
Şişəcəkdir üzün, gözün,
İndi çıx da xalqa görün!
Heç söhbət də edəməzsən,
Məktəbə də gedəməzsən,
Oyun da oynayamazsan...
Halı budur yaramazın!

## KOR İLƏ ÇOLAQ

– Bax, arxadaş, nə mən sağlam
Bir adamam...
– Nə mən tamam
Bir insanam...
– Mən çolağam.
– Mən də koram.
Həm anadangəlmə koram.
– Mən də qırx ildir çolağam.
İki addım getmək deyil,
Ayağa da durammıram.
– Bəs mən? Mənə görmək deyil,
Hətta kirpiyimi qırpmaq
Mənə nəsib olmamışdır.
– Böylə yaşamaq çox ağır
Yükdür. Bundan qurtulaydım!..
– Mən də günlərimi saydım.
Günlər keçdi, say bitmədi.
Dünyaya gəldiyin kimi
Getmək də əlində deyil.
Dözmək asan, ölmək çətin...
– Dözməliyik. Bu – bəxtimiz.
Mən düşündüm ki, ikimiz
Tam bir insan olmaq üçün
Hər şeyimiz vardır: sənin
Qüvvətli bacaqların var,
Mənim də gözlərim baxar.
Mən sənin gözün olaram,
Gecən-gündüzün olaram.
– Mən də sənə bacaq ayaq.
– Öylə isə düşünmə, qalx.
Sənin üçün
Mən baxaram və görərəm.
– Mən də səni istədiyin
Yerə alıb götürərəm.
Bax, böyləcə:
İki möhnət birləşincə
Bir təsəlli hasil olar,
Möhnətlilər də qurtular.



## İKİ YOLÇU

Bir yay günü səhər erkən,
İki yolçu eyni kənddən
Qəsəbəyə gedirdilər,
"Yolçu olan yolda gərək"–
Qoşmasını söyləyərək.

İki yolçu yol gedərkən
Yolun döngəsində birdən
Biri durdu, biri sordu:
– "Niyə durdun? Tez ol bir az,
Yolçu olan yolda durmaz".

Durmaqda bir səbəb vardı,
Birdən gözləri qaraldı:
Yerdə iri bir şabalıd!..
– "Haydı, yoldaş, ağır-ağır,
Yol yürüməklə qısalır".
Acgöz olan söz eşitməz,
Gözü şabalıdda, dinməz,
Axtarırdı bir bahana...
– "Haydı, quzum, yeri gedək!"
– "Mən çataram, sən get görək".
Bəriki işi anladı,
Qaçıb şabalıdı aldı.
– "Ver bu yana, yoxsa...
– Necə?
Mən gördüm, götürdüm...
– Öncə
Görən mənəm.
– Alan da mən".
Biri yeyər, biri baxar,
Gurultular bundan çıxar.
Budur, vuruşma başlandı,
Yavaş-yavaş alovlandı.
Yumruq gəldi, şillə endi.

Tökülərdi bəlkə də qan,
İncəvara ki, bu yandan

Başısarıqlı bir molla
Yüyürüb birdən yetişdi,
Vuruşma da sakitləşdi.

Molla soruşdu, yolçular
Olanları birər-birər
Olan kimi söylədilər.
Nə gurultu, nə patıltı,
Molla şabalıdı qırdı.
Qabıqlarından birini
Bir yolçuya, o birini
Bir yolçuya uzadaraq,
Ləpəsini özü yedi.
Sonra:
        – "Haydı, gedin!" dedi

Yolçular baxa qaldılar,
Qismətlərini aldılar.
Nə göz qalmışdı, nə qulaq...
Anlayana bu ibrətdir:
Az tamah çox ziyan verir.



## YAYDA

Örtül pərdə, örtül pərdə,
Örtül tez ol; şüşələrdən
Günəş içəriyə vurur,
Dəftərimi soldurur.
Mənim parlaq
                Göy yazım, bax,
Gör necə bozarıb solub...
Soluq şeyləri sevmirəm!

## QIŞDA

Açıl pərdə, açıl qarda,
Sən açıldın günəş harda?
Yoxsa bizi unutmuşdur?
Xeyr, onu bulud udmuşdur.
Çox soyuq var,
                Hər tərəf qar;
Qar gözəldir, fəqət soyuq...
Soyuq şeyləri sevmirəm!

## QARA BACI

Mənim qara bir bacım var,
Adı Leyla,
            Gözü şəhla.
Qollarında, əllərində,
Saçlarının tellərində
Pullar, incilər parıldar.
Dilbər bacı!
            Ənbər bacı!
Yataram axşam olanda
Qara bacımın yanında.

Axşam gələr, səhər gedər,
Ənbər bacı!
            Dilbər bacı!
Bilmirəm gündüzlər harda,
Hansı dərələr, dağlarda
Gizli-gizli gedər gəzər.
Gözü şəhla,
            Adı Leyla.
Yataram axşam olanda
Dilbər bacımın yanında.

Qara bacım zinət sevər,
Adı Leyla,
            Gözü şəhla.
Bəzən axşam bir ay sancaq
Saçlarına verər rövnəq.
Onda hüsnünə güvənər,
Ənbər bacı!
            Dilbər bacı!
Yataram axşam olanda
Ənbər bacımın yanında.

## KİÇİK ƏSGƏR

Kiçik əsgər, silah əldə
Qəhrəmantək irəliləyir
Qabağında bütün el də:
"Qəhrəmanım, yaşa!" deyir.
Kiçik əsgər, kiçik əsgər!
Vətən səndən xidmət istər.

Vətən üçün çəkər əmək
Hər kəs, bu borcu hər kəsin.
Vətən demək, anan demək,
Sən ananı sevməzmisən?..
Kiçik əsgər, kiçik əsgər!
Vətən səndən şəfqət istər.

Vətən səndən həyat umar,
Sən yaşarsan, o canlanır.
Vətən üçün ölmək də var,
Fəqət borcun yaşatmaqdır.
Kiçik əsgər, kiçik əsgər!
Vətən səndən qüvvət istər!

Kiçik əsgər, dinlə məni,
Gözlə boşa silah atma.
Silahını, mərminini
Haqsızlığa qarşı saxla...
Kiçik əsgər, kiçik əsgər!
Haqq da səndən qüvvət istər.



## TARİXİ-QƏDİM

Bəşərin köhnə sərgüzəştindən,
Bizə əfsanələr tərənnüm edən,
Ulu əcdadi-bivücudumuzun,
Keçən əyyamda bir qara və uzun –
Gecə təşkil edən həyatından,
Laylalar uydurub bizi uyudan,
Bizə ən doğru, ən gözəl örnək
Deyə, keçmiş zamanı göstərərək:
– Gələcək günlərin keçən gecədən,
Fərqi yox, hökmü yox xəyalı verən,
Alnı üstündə altı min illik.
Qırışıqlarla şübhələr bitişik,
Başı keçmişdə, yeni röyadə,
Ayağı ati adlı dünyada,
Görünən köhnə iskilet, onu mən
Durdurub gah önümdə xoşca həmən
Soraram köhnə xatıratından.
O bir az filosof, bir az sırtlan
Və bütün heykəlilə bir xortlaq,
Unudulmuş məzarı yoxlayaraq,
Bir boğuq, paslı bir xırıltılə,
Mənə başlar birər-birər nəqlə
Keçmiş aləmdə batmış əsrarı.
Dediyi qəm, ələm yığıntıları!
Nə zaman keçsə şanlı bir leşkər,
Daima yollara ölüm səpələr,
Bir bulud kölgələr salar, axaraq
Başda, ən başda qanlı bir bayraq,
Onu da qanlı, zərli tac izlər
Sonra evlər yıxan bu alətlər:
Nizə, mizraq, qılınc, toppuz, balta,
Mancanaq, top, tüfəng, sapan... Arada
Qanlı əfsərlərilə əsgərlər,
Sonra saysız əsir düşən ərlər,

Mütləqa bir müzəffər, on məğlub,
Çeynəyən haqlı, çeynənən məyub[1],
Qəhrə alqış, təkəbbürə səcdə,
Doğulur hər kərəm məşəqqətdə,
Doğruluq dildə yox, dodaqlarda,
Xeyir ayaqlarda, şər qucaqlarda.
Bir həqiqət: həqiqəti-zəncir,
Bir bəlağət: bəlağəti-şəmşir,
Həqq, demək, güclünün – şəririndir,
Ən açıq hikmət: əzməyən əzilir.
Hər şərəf saxta, zahiri xoşluq,
Hər şeyin əvvəli, sonu boşluq,
Din şəhid istəyir, fələk qurban,
Hər zaman hər tərəfdə qan, qan, qan...
Söyləyir, dinləyir, baxır, düşünür,
Bəşərin anladır nə yolda, nə cür
Min fəlakətlə ömür sürdüyünü,
Görürəm qanların köpürdüyünü.
O qədidin[2] açılmış ağzından –
Səsinin xırçın ehtizazında,
Elə dəhşətli bir xəbər eşidir,
Öylə qəlbimlə inlərəm ki, bu yer
Sanıram titrəyib edir nifrin,
Endir ey cəngcu xəbis sənin
Pərdələr səhneyi-qiyamətinə,
Sönsün artıq bu daimi fitnə,
Ey rəzil donmuş iskilet, hələ sən
Əl çək artıq bu qanlı nəqşəndən,
Biz səbah istərik, səbah, o uzun
Gecələr yatmışına xeyir olsun.
Kimsən, ey kölgə, sən belə sərxoş,
Tələsirsən qaranlığa əliboş.
Qanlı bir şeylə oynamış kimisən,
Mənim həmcinsimə açıq düşmən,

[1] Məyub – eyibli, nöqsanlı, müqəssir
[2] Qədid – qurumuş cəsəd, meyit



Qəhrəmanlıq... Əsasi qan, vəhşət,
Ölkələr çeynə, ordular məhv et!
Kəs, qopar, qır, sürüklə, yandır, yıx,
Nə "aman" bil, nə "ah" eşit, nə "yazıq!"
Keçdiyin yer ölüm, ələm olsun,
Nə əkindən əsər, nə ot, nə yosun,
Sönsün evlər, sürünsün ailələr,
Qalmasın məhv edilməmiş bir yer,
Hər ocaq bənzəsin məzardaşına,
Damlar ensin yetimlərin başına...
Bu nə vicdandır? Ah, aman, bu nə ar?
Yerə keç dəhşətinlə, ey sərdar!
Hər zəfər bir xərabə, bir mədfən,
Ey cahangir, utan bu məqbərədən.
Yıxıl ey köhnə təxti-istiqlal,
Qəhrin etdi nəsilləri pamal.
Parçalan ey sönük və mənhus tac,
Bu hesabsız səfilü ac, möhtac,
Cümləsi, bil, sənin, sənin əsərin,
Gözyaşından düzülmə incilərin
Görsən artıq necə yosunlanmış,
Sizə keçmiş və hisslə aldanmış?
Bilsəm ey qarğalar, siz ey xunxar,
Dolu sizlə bütün qaranlıqlar,
Fikrə bu hökmünüz yetər, heyhat!
Bir əzabdır zor ilə bağlı həyat,
Sizi tarix himayədə yaşadır,
Gecə quldurların ki sirdaşıdır,
Gedin o məhv edən fəlakətdə,
Boğulun... Bax, bu ən gözəl müjdə,
Gələcək, gözlənən xoş atiyəyə,
Budur hürriyyəti-həqiqiyyə.
Nə döyüşçü, nə hərb, nə istila,
Nə sataşmaq, nə səltənət, nə bəla.
Nə şikayət, nə varlı, nə yoxsul,
Mən mənəm, sən də sən, nə bəy, nə də qul.
O zaman ey hırıldayan kəllə

İndi: fitnə, vuruş, döyüş, güllə...
Deyə saydıqların xəyala dönər,
Birər əfsanə ya nağıl görünər,
Ey fikirlər məzarı köhnə kitab!
Yırtılarsan sabah çəkilsə hesab,
Bunu kimdən fəqət ümid edəlim?
Bu böyük inqilabi-xilqəti kim –
Hankı qüvvət öz üstünə alacaq,
Kainat sahibi?! Bəli, ancaq –
Kainat sahibi olan qüvvət,
O əsəblər qıran donuq surət,
Odur əsli həmin bu fitnələrin,
Ey səma, hər axıb gedən əsrin.
İndi sərxoşca bir fərəhli həvəs,
İndi məhbəs içində bir quru səs.
Burda bir yandıran sönük nəqarət,
Bir geniş "oox!.." bir dərin "heyhat!"
Bir dua, bir qəsidə, xoş mənzər,
Gah şiddətli bir nəsimi – səhər,
Gah bir inləyən zavallı yazıq,
Gah bir səbirsizcə darğınlıq,
Gah canın titrəyən bir təranəsi,
Gahi dəhşətli bir nəqara səsi,
Burda iczin sükuti-giryani,
Orda qəhrin hücumi-tufanı,
Burda xoş vədələr verən söhbət,
Orda bir xəstəlik, pozuq sihhət,
Burda bir qəhqəhəylə, xoş dövran,
Orda dəhşətli bir gurultu, fəqan,
Rəngbərəng hal alıb duran böylə,
İnləyən ey boş asiman, söylə.
Söylə sən hər sədanın əksi isən,
Bu gurultu içində hansı səsin –
Əksi hansı səs üstə güc gəlmiş,
Və bu sonsuz səmayə yüksəlmiş?!
Dilə gəl, söylə, bəs o hansı dua
Müstəcab olmuş? Ey ilahi-səma,
Səni dinə ata olanlardan,



Dinlədim: "Misilsiz və binöqsan.
Diri, qadir, uca, ədalətli,
Ruzilər bəxş edən, kəramətli,
Tez xəbərdar olub da hər işdən,
Gizlini, aşkarı görən, eşidən,
İstəsə həm cəza verən qahir[1]
Zati hər yerdə hazırü nazir...
Deyə tərifləyirlər ən parlaq
Sifətin "la şərikə ləh"[2] kən, bax
Bu bataqlıqda çox şərikin var,
Hamsı qadir və adilü qəhhar[3],
Hamsının "la şərikə ləh" sifəti,
Hamsının əmri, nəhyi, səltənəti,
Hamsının bir səma qədər sarayı,
Hamsının ulduzu, günü və ayı,
Hamsına gizli çox pərəstişkar,
Hamsının vədəsi və cənnəti var,
Hamsının bir vücudu, bir ədəmi[4],
Hamsının bir nəbiyyi-möhtərəmi[5],
Hamsının cənnətində hurilər,
Hamsının öz cəhənnəmində bəşər.
Hamsı xalqından istəyir taət,
Daimi səbir, qatlanan qamət.
Mən ki heç bir şeyə inanmayıram
Kimə sorsam deyər ki, "qanmayıram".
Kim bilir, bəlkə hamsı mövhumat;
Bəlkə aldanmaq – ehtiyaci-həyat.
Kim bilir, bəlkə hamsı doğru da mən –
Bixəbər öz yanılmış hissimdən,
Varı yox, bilmək istədim, yoxu var,
Şübhələr nöqsanımsa, qoy, nə olar?
Şübhə bir nura doğru qoşmaqdır,
Haqqı tapmaq şüur üçün haqdır.

[1] Qahir – qəhr edən, cəza verən
[2] La şərikə ləh – şəriki olmayan
[3] Qəhhar – qahir, cəza verən
[4] Ədəm – boşluq, yoxluq
[5] Nəbiyyi-möhtərəm – hörmətli peyğəmbər

Kim bilir, bəlkə yoxluğun özü var,
Bəlkə məhşər də var... Fəqət zinhar,
Əbədi varlığın yaratdığı can
Neçin olsun əsiri-dərdü fəğan?
Həm neçin xəlq edib onu yoxdan,
Sonra vermək zavalına fərman?
Kim bilir, bəlkə əslimiz torpaq,
Onu qan yaşla bir çamur yaparaq
Ona can vermək ahü qəmlə dolu,
Hansı xain təsadüfün işi bu?
Bunu bir xaliq intixab etməz,
Xəlq edən məhv edər, xarab etməz.
Demək ən güclü düşmənin, ya rəb,
Səni ərşində məhv edən o səbəb.
Bizə vaxtilə hirsü qeyzin olan
Verdiyin zəhridir, odur bu ilan.
Biləcəksən bu xəsmi[1] əlbət sən,
Şübhə... Ən zalım, nə qəvi düşmən,
Buna sən qəlbimizdə yer verdin,
Onu etdin məkani hər dərdin.
Bax, bu gün hiylə, fitnə, şuru nifaq,
Səni mülkündən axırı qovaraq,
Üfləyir məbədində məşəlini,
Qırır öz əllərilə heykəlini,
Və bütün qüvvətinlə sən aciz
O geniş bürclərində qalmaz iz,
Çökəcəksən nə ildırım, nə qubar,
Nə cəhənnəm içində qaynamalar,
Nə baxanlar tutar sənə matəm,
Nə qulaqlarda bir sədayi-ələm.
Qopsa bir zərrəcik təbiətdən,
Duyulan bir sızıltı olsun, sən
Bax, köçürsən öz ərşü fərşinlə,
Yox təbiətdə bir inilti belə.
Əksinə hər tərəfdə qahqahlar,
Ağlayar aldanan küt axmaqlar.

---
[1] Xəsm – düşmən



## MOLLA SIRAT

*(Yaxud "Tarixi-qədim"ə zeyl)*

Buyurulmuş ki:
"İndi Allaha söyər, sonra bir az çox pul ver,
Heç utanmaz protestantlara zanqoçluq[1] edər".

Mən ki, üç-beş pula acgözlükdən
Protestantlara zanqoçluq edən
Şairəm... Minbəri zinətləyərək,
İslamı, dinini təbliğ edərək.
Yaşayan körpü sırat mollasına.
Ehtiram ilə durub doğrusuna,
Bitərəddüd deyirəm: zanqoçluq
Lütfünə, vəsfinə layiq olduq.
Lakin aldanma, yavaş, ay mollam,
Mənə də doğma olubdur islam.
Mənə öyrətmə o rəna dini,
Bilirəm mən də sənin bildiyini.
Oxudum mən də xitabi-ğeybi[2],
Dinlədim mən də xitabi-ğeybi.
Mən də lap sən kimi hər məsciddə,
Əyilib Allaha oldum bəndə.
Şövqi-cənnətlə xəyalım məşğul,
Ürəyim xofi-cəhənnəmlə məlul.
Mən də dırmaşdım ulu Tubayə[3],
Mən də çıxdım mələi-əlayə[4].
Mən də aşiqdim əzan nəğməsinə,
Bir qoşardım ki, o Allah səsinə.
Mən də təsbih, dua, sovm[5], səlat[6],
Hamsını, hamsını etdim, heyhat!

---
[1] Zanqoç – kilsə zəngini vuran
[2] Kitabi-ğeyb – Quran
[3] Tuba – cənnətdə bir ağac
[4] Mələi-əla – mələkllərin ən şərəfliləri və peyğəmbərlərin ruhları
[5] Sovm – oruc
[6] Səlat – namaz

Çünki təlqinlərə aldanmış idim,
Yalanı, əyrini düz sanmış idim.
Bilmədən, görmədən iman etdim,
Nəfsimi dinimə qurban etdim.
Sevdim Allahı da, peyğəmbəri də,
O alay qaldı bu gün çox geridə.
Anladım çünki həqqət başqa,
Başqa yoldan gedilirmiş haqqa,
Saydığın xariqələr, möcüzələr
O qədər sadə fokuslar ki, bəşər –
Durmadan yırtır, açır pərdəsini,
Susdurur möcüzəkarlar səsini.
Aldadıb, aldadıb İsa, Musa,
Köhnə tilsimli yalanlar o əsa[1].
Bəşərin böylə zəlalətləri var,
Bütünü həm qayırar, həm də qırar.
Ara, get deyrini[2] gəz Kəbəsini,
Dinlə təkbiri[3], eşit zəng səsini.
Görəcəksən ki, bütün boşluqdur,
Umduğun, gözlədiyin şey yoxdur.
Saxtadır Allahı da, şeytanı da,
Buddası, əhriməni, yəzdanı da.
Hamsı uydurması qorxaq fikrin,
Kölgələr, kölgələr... Onlarda dərin
Bir qaranlıq sezərək çevrildim,
Acı bir zərbə yeyib devrildim.
Bəli, cənnət də, cəhənnəm də yalan,
Baxıram xilqətə heyran-heyran.
Mən nə bəndə, nə də Allah bilirəm,
Özümü varlığa agah bilirəm.
Göydə minlər ilə məscid görürəm,
Orda vicdanımı sacid[4] görürəm.

[1] Əsa – Musa peyğəmbərin əjdahaya dönən əsası
[2] Deyr – kilsə, monastır
[3] Təkbir – Allahü-əkbər
[4] Sacid – səcdə edən



Bu inamla edirəm mən səcdə
Belə keçməkdə ibadət məndə,
Bu ibadətdə şadam, dincəm çox.
Deyəsən bir qayadan fərqim yox.
Bir kiçik quşla birik aləmdə,
Mən də Allah deyirəm, bülbül də.
Doğruluq, sevgi, vəfa, ünsiyyət,
Mərhəmət, xeyr, təvazö, ülfət,
Sonra bir şairə zanqoç deməmək...
Bəli, vicdanıma bunlar məhrək[1].
Düşünüb işləmək ayinimdir –
Yaşamaq dini mənim dinimdir.
Möminəm, varlığa imanım var,
Bunu hər kəs görüb, hər kəs anlar.
Nəmə lazımdı mənim peyğəmbər?
Bir hörümçək mənə haqqa rəhbər.
Kitabım lövhi-təbiət kitabı,
Məndədir xeyr ilə şərrin səbəbi.
Bu inamla dalaram son yuxuma,
Heç qiyamət günü girməz yuxuma.
Bu məhəbbət dolusu qəlbimdə
İnsanın eşqi də var, qəmləri də.

Məncə haqq dini, bu gün, dini-həyat.
Nə deyərsən buna, ey molla sırat?

[1] Məhrək – hərəkət yolu, hərəkət xətti

## RÜBABIN CAVABI

*"Sərvət fünun" əməkdaşlarına səmimi təşəkkür əlaməti olaraq ithaf olundu.*

Çoxdandır, ey rübabi-həzinim, susur səsin,
Vəqtilə sən ki, qəlbi əzən bir sükunətin
Üstündə dalğalandın. O dəhşətli məhbəsin
Çatlaq və kar divarları nalənlə inlədi,
Minlərcə qəlb o naləni, fəryadı dinlədi.
İllərcə susmadın və bağırdın dərin-dərin,
Zülmün kobud ayaqları altında tellərin
Qopmaq deyil, polad kimi bərk oldu. Bəs neçin,
Bir oxlarından ayrı düşən yay qədər, həzin
Səssiz bucaqda tozlara qərq olmusan? Əgər
Ölməkdəsənsə canə gəl artıq! Bəla, xətər,
Düşmənlərin rəzaləti, vəhşət, sitəm, cəfa,
Vicdanı, fikri, haqqı əzən qanlı əjdəha,
Öz zəhri ilə, öz qatı qəhrilə çağlayır.
Bax, ağlayır vətən yenə, bax annə[1] ağlayır.
"Bağrım! – deyir vətən, – acıyın, min ilan dişi
Bağrımda saplıdır, yaranın xeyli müdhişi
Yorğun cigərlərimdə, uzun öskürüklərəm,
Qızdırmalarla mən yenə sinəmdə bəslərəm,
Bəslər və saxlaram sizi sinəmdə qorxmadan
Lakin bir az nəfəs mənə bir parçacıq aman!"
Bir parçacıq tavanu nəfəs, ən böyük kərəm...
Heyhat! Eşitməyir kimisən, ey rübabi-qəm! –
Dünyanı inlədən bu müqəddəs iniltini.
Sən baxma sənətin belə ahəngü ritmini
Haqqın səsindən apaçıq üstün görənlərə
Sən bax necə donub tökülür nəğmələr yerə.
Sən bax necə bənizlər uçuq, əl-ayaq əsir,
Sən bax sitarələr necə də sönmək üzrədir.

[1] Annə – ana



Sən bax bu kinli dalğaların şum fəsadına,
Sən bax bu kitlənin zəhər olmuş həyatına!
Sən bax nə dudman dağıdır divi-inhitat[1]
Devrilmədə ümidü təsəlli, zəka, səbat,
Hər yan gecə, qaranlıq, ətalət uzaq-yaxın
Hər yerdə cəhlü qeyz... Amansızca bir axın
Hər üzdə qorxu, sonra nə bir ev, nə bir yuva,
Biçarə quşların da önündə açıq ova
Sahil tikanlı bir uçurum, sonra təknəsiz
Can qurtaran sükun və liman bilməyən dəniz
Balkan, yamac xətərli, bürünmüş dumanlara
Qartallarında pəncə, qanadlar qızıl, qara!
Göy daima buludlu, günəş daima nihan,
Üfqün yanan dodaqları üstündə laxta qan
Dəhşətli bir sükuta bürünmüş bu vadinin
Hər addımında şübhəli bir qazma, bir kəmin[2]
Qorxunc sükut içində gəzir canlı kölgələr,
Məcnunlar aləmi kimi hay-küylü bixəbər.
Qorxu və lərzə, sanki günah işləmiş hamı,
Milyonla teşnə gözləmədə məğfirət[3] suyu
Hər yerdə qorxu, lərzəli bir səs nihan, təmiz –
Yüksəlmək istəyir kimi... qəlbim bu səbirsiz
Avazi-ruhu duydu və ürpərdi nagəhan...
Sənsən sən, ey xəmuş[4] rübabım, bu haykıran,
Biz duymasaq da, gizli səsin susmayır sənin
Paslansa da uğuldayır hər anda tellərin.

– Hicran bitərmi, heç də sönərmi bu iztirab?
Bir ləhzə öncə nəydi o fəryadın, ey rübab?!
Səndin "o yuxlayır" deyə guya donuq dəni[5]
Bir qəlbi-dərbədər kimi lənətləyən məni.
Səndin başımda zarü sitəmkar inildəyən.

[1] İnhitat – enmə, alçalma
[2] Kəmin – pusqu
[3] Məğfirət – əfv, bağışlamaq
[4] Xəmuş (xamuş) – səssiz, sakit, susmuş
[5] Dəni – alçaq

Səndin "Vətən xəraba qalır, ağlayır" – deyən,
Sənsən vuran bu zərbəni, ey ruhum, indi sən,
Lərzişlərimlə ürpərərək, titrəyirmisən?
Zənn etmə mən özüm belə şəxsən mükəddərəm,
Heyhat, mən zəmanənin ahilə inlərəm!
Bil, əsdirən bu telləri, ey ruhi-münkəsir[1]
Dünyanı inlədən o müqəddəs iniltidir.
Hər ehtizazın əksi bu tellər, açıq, nihan,
Bəzən cəsur olan, gözəl ümidi anlayan
Bir güllənin sürəkli sədasilə titrəyir,
Nifrətlə inlərəm və səsim dərdli xəstə bir –
Surət xətində öylə fəciənə titrəşən
Həycanı bəstələr, bu yanıq ömrə, bəxtə mən,
Günlərlə inlər, inlərəm artıq... Xəyanətin,
Qəhrin dəmir dodaqları, cəhlin, fəlakətin
Kəskin və yırtıcı canavar dişlərində qan
İnsanlığın əsrlərə tapşırdığı fəğan,
Qəlb yandıran şikayəti dinlər, uzaq, yaxın
Hər növheyi-ələmdə görüb haqq boğulmağın,
Suzişli[2] bir kitabə oxur, inlərəm... Aman,
Gənclik qoşar qaranlığa, mən inlərəm nihan.
Üfqün qızartısında, o bilanə[3] quşların
Civcivlərində, kəndləri dəfn eyləyən qarın
Rəngində bir bəlanı duyub inlərəm. Vətən –
Hər bir cinayəti, əməli, zülmü haqq bilən,
"Qanun – Sözüm"! deyib quduran, xalqa zülm edən
Xalqın qanıyla bəslənərək əylənib, gülən,
İfritinin təsəllütü[4] altında: hey müdam,
"Bədbəxtəm, indi kimsəsizəm, bir zavallıyam,
Yox kimsədən kömək" – deyə inlərkən, ən cəsur,
Ən gur səsimlə inləməmək bir günah olur.

[1] Münkəsir – sınıq
[2] Suzişli – yanıqlı, təsirli
[3] Bilanə – yuvasız
[4] Təsəllüt – ağalıq



Ey gözlərində mavi günəşlər qürub edən,
Altun başında fırtınalardan, didişmədən –
Bir taci-nur olan o gözəl saç didik-didik,
Nazlı vücudu bir qucaq ot, bir yığın sümük,
Hüzn içrə qərq olub, əzəmətli həyatının
Keçmişdəki cəlalını dəfn eyləyən qadın!
Anlat: o bağra hansı ilan zəhridir axan!
Anlat: cigərlərin nə üçün yorğun! Ah, o qan –
Sinəndə, qollarında kimin, hansı canfəda –
Aşiqlərin bu hədiyyeyi-yaqutudur sana?
Onlar ki aldadıb səni "qurbanınıq!" deyə
Qurban edər rifahına, iqbalə... hər şeyə,
Sadiq uşaqların olamaz, həm də olmasın
Sən heç kədərli olma, sənin öz oğulların,
Şəfqətli qızların da var, onlar cəsur əsil,
Bir eşqi-fəzlü həqlə, sənin indi çox əlil,
Solğun, sönük duran bu müəzzəm cəbininə[1]
Parlaq hilalələr[2] hörəcəklər və sən yenə –
Şərqin mələk pərisi, mübarək mələkəsi –
Hüsnün, gözəlliyin və nüfuzunla, hər səsi
Qarşında nəğməkar edəcəksən günəş, misal.
Mən böylə istərəm səni: sönməz və bizəval
Şölə, işıq, səhər dolu bir çöhreyi-səfid[3],
Qarşında son təraneyi-ruhum mənim uzun
Bir nəreyi-ümid olacaqdır... Ümid... Ümid!

[1] Müəzzəm cəbininə – böyük, vüqarlı alnına
[2] Hilalə – aypara
[3] Səfid – ağ

## DOXSAN BEŞƏ DOĞRU

Bir dövri-fəlakət: yenə çeynəndi yəminlər[1].
Çeynəndi yazıq millətin amalı, ümidi.
Qanun deyə, torpaqlara sürtüldü cəbinlər,
Qanun deyə, qanun ayaq altında əzildi...
Bihudə fəğanlar yenə, bihudə əninlər!

Eyvah! Otuz üç il o zəhər giryələrilə,
Böhranları, dəhşətləri, yerdən göyə qalxmış
Fəryadları, qovğaları, sülhü, zəfərilə
Bir sel kimi, Allaha təvəkkül deyə axmış...
Yazsın bunu tarix əbədi xətti-zərilə!

Ey bir acı röya kimi keçmiş qara günlər,
Bir ləhzə edin siz o cəhənnəmləri təkrar,
Dönsün bizə keçmiş o müsibətlə bərabər...
Heyhat, otuz üç il, otuz üç il o əzablar,
Heyhat, nə bir dərs, nə ibrətli fikirlər!

Silməz fəqət öz yazdığını tarix inadla,
Doxsan beşi aç: kölgəsi bir taci-hərisin
Saxlar həyəcanlarla, tərəddüdlə, fəsadla
Qorxu və qaranlıq dolu halın o xəbisin.
İndi yenə fitnə, yenə hiylə, yenə layla!

Keçmiş gecənin kirli qaranlıqları təkrar,
Təkrar o avamlıq, o cəhalət, o səfalət,
Bədbəxt vətənin qisməti təkrar o bəlalar,
Kim doğru düşünsə onu sürgün, ona zillət,
Acgöz ağaran dişlərə ləzzətli qidalar.

Hər yan tərəfiyyət, həsəbiyyət, nəsəbiyyət,
Təkrar "o sənindir, bu mənim!" adəti işdə,
Təkrar qəzəb altında həqiqətlə həmiyyət...
Təkrar o tərənnüm, o yalan eyni yerişdə.
Son nəğməsi yalnız: Yaşasın sevgili millət!..

[1] Yəmin – and



Millət yaşamaz, haqqına həsrətlə solarkən,
"Sussun!" – deyə vicdanına yumruq vurularsa.
Millət yaşamaz, məclisi təhqir olunarkən,
Yüz hiylə ilə aldadılıb qorxudularsa.
Millət yaşamaz, ordusu, xalqı boğularkən!

Qanun deyirik, harda o qiymətli oyuncaq?
Düşmən deyirik, harda o? Xaricdəmi, bizmi?
Hürriyyətimiz var, deyirik, şanlı və parlaq,
Düşmən bizə qanunmu, ya hürriyyətimizmi?
Bir həmlədə biz bunları məhv eylədik ancaq.

Bir həmlədə birdən-birə qüvvətlə dəyişdik
Hürriyyəti şəxsiyyətə, qanunu qürura.
Heyhat, otuz üç il, otuz üç il geri getdik,
Qəflətlə inandıq, bu inamla dedik, urra!
Urra! – deyə alqışladıq, aldandıq, əzildik.

Ey millətə bir düşmən olan qanlı müzəffər!
Ey hörməti-qanunu pozan zərbeyi-bidad!
Milliyyəti, qanunu müqəddəs tanıyan hər
Vicdan səni lənətlə və nifrətlə edər yad...

Düşsün sənə tabe, sənə məhkum əyilən sər,
Sınsın səni bir haqq deyə alqışlayan əllər!..

## QARƏT SÜFRƏSİ

Bu süfrə ki, əfəndilər, udulmağa hazırlanır,
Hüzurunuzda titrəyir – bu millətin həyatıdır,
Bu millətin ki, çox zəlil, bu millətin ki, çox fağır!
Fəqət siz heç çəkinməyin, yeyin, udun hapır-hapır...
Yeyin, əfəndilər, yeyin, bu xani[1]-iştaha sizin,
Doyunca, tıxsırınca, çatlayıncaya qədər yeyin!

Əfəndilər, çox acsınız, bu çöhrənizdə bəllidir,
Yeyin, yeməzsiniz bu gün, sabah qalarmı, kim bilir?
Bu dadlı-dadlı hər taam sizinlə iftixar edir!
Bu haqqıdır qəzanızın[2], bəli, o haqq da əldə bir...
Yeyin, əfəndilər, yeyin, bu xani-pürsəfa[3] sizin,
Doyunca, tıxsırınca, partlayıncaya qədər yeyin!

Bütün bu nazlı bəylərin nə varsa ortalıqda say:
Həsəb, nəsəb, şərəf və mədh, oyun və toy, bina, saray.
Bütün sizin, əfəndilər, bina, səray, gəlin, alay,
Bütün sizin, bütün sizin, hazır-hazır, qolay-qolay...
Yeyin, əfəndilər, yeyin, bu xani-iştaha sizin,
Doyunca, tıxsırınca, çatlayıncaya qədər yeyin!

Böyüklüyün bir az ağır da olsa həzmi xoş olar,
Qüruri-ehtişamı var, süruri-intiqamı var.
Bu süfrə iltifaqınızdan indi abü tab[4] umar,
Sizin bu baş, beyin, ciyər, bütün bu qanlı loğmalar
Yeyin, əfəndilər, yeyin, bu xani-canfəza[5] sizin,
Doyunca, tıxsırınca, partlayıncaya qədər yeyin!

[1] Xan – süfrə
[2] Qəza – din uğrunda olan hərb və qalibiyyət
[3] Pürsəfa – çox səfalı, çox ləzzətli
[4] Abü tab – parlaqlıq
[5] Canfəza – təzə həyat verən



Verir zavallı məmləkət, verir nə varsa malını,
Vücudunu, həyatını, ümidini, xəyalını,
Bütün fərağı[1]-halını, olanca şövqi-balını[2].
Udun, udun, düşünməyin haramını, halalını!..
Yeyin, əfəndilər, yeyin, bu xani-iştaha sizin,
Doyunca, tıxsırınca, çatlayıncaya qədər yeyin!
Bu xırmanın gəlir sonu, qapışdırın, gedər ayaq!
Sabah baxarsınız sönər bu gün çatırdayan ocaq.
Bu gün ki medələr qalın, bu gün ki şorbalar sıcaq,
Daraşdırın, tıxışdırın, qapış-qapış, çanaq-çanaq...
Yeyin, əfəndilər, yeyin, bu xani-pürnəva[3] sizin,
Doyunca, tıxsırınca, partlayıncaya qədər yeyin!

[1] Fərağ – rahatlıq
[2] Bal – ürək
[3] Pürnəva – azuqə, yeyinti, dolu

## TAXTINDAN SALINMIŞIN PƏNCƏRƏSİ

Heyhat! Tək xətami nəsibi bu millətin?
Alqış və niqtlərlə biz haqqın, səadətin
Elan edincə məclisinin son süqutunu,
Haqsızca tapdayarkən ayaqlarla qanunu,
Ətrafı süngülərlə mühat bir xərabədən
Mənhus, kilidli pəncərə səsləndi qəflətən,
Qah-qah çəkib uğundu biri orda şadiman...
Yox, yox, – dedim, – bu lövhəni mən görməyim, aman!

Siz, ey həyatımızla bizim əylənən, gülən,
İstərsəniz bir anda qapansın kitabü fən,
Günlər qaralsın, arzu-əməllər də gülməsin,
İstərsəniz bu gözlər, ağızlar... Bir az görən,
Bir azca fikr edən, düşünən... "Haqq, şərəf, vətən,
Qanun!" deyən nə varsa silinsin, görünməsin,
Hətta səma üzüstə qapansın və ağlasın,
Yalnız o bağlı pəncərə əsla açılmasın,
Yalnız o gülməsin!



## BİR İÇİM SU

Gözəl çoban, bir içim, bir udum su dəstindən,
Bu gün sıcaq yenə çox, sanki hər tərəf oddur.

Gözəl çocuq, sənin olsun həyatım istərsən,
Neçin gözüm sənə baxdıqca böylə yaşla dolur.

Gözəl çoban, nə qədər dadlı söyləyirsən sən,
Yalan da olsa o sözlər, könülcə doğru olur.

Gözəl çocuq, mənə bax, aldadarmıyam səni mən?
Bu yaşlarım da sənə doğru qəlbimi oxudur.

Gözəl çoban, bir içim, bir udum su dəstindən,
Bu gün sıcaq yenə çox, sanki hər yanım oddur!..

## MÜNDƏRİCAT


*Tofiq Fikrət və Azərbaycan ədəbiyyatı* ....4

Oxucularıma (*işləyəni M.Sultanov*) ....17
Balıqçılar (*işləyəni M.Sultanov*) ....18
Nəsrin (*işləyəni M.Sultanov*) ....20
Xəstə uşaq (*işləyəni R.Zəka*) ....23
Təzələnən izdivac (*işləyəni B.Vahabzadə*) ....25
Kiçik ailə (*işləyəni Ə.Ziyatay*) ....26
Kənan (*işləyəni M.Rzaquluzadə*) ....27
Ana (*işləyəni Ə.Ziyatay*) ....28
Verin zavallılara (*işləyəni Ə.Ziyatay*) ....29
Orucluq sədəqəsi (*işləyəni M.Sultanov*) ....30
Şəkil çəkərkən (*işləyəni R.Zəka*) ....31
Öz-özümə (*işləyəni M.Sultanov*) ....32
Gizli dərd (*işləyəni Ə.Ziyatay*) ....33
Bir əyyaşın qarşısında (*işləyəni M.Sultanov*) ....34
Qəmgin bal ar (*işləyəni M.Rzaquluzadə*) ....35
Qəm iniltisi (*işləyəni Ə.Ziyatay*) ....36
Varlıq bat qı ğı (*işləyəni M.Rzaquluzadə*) ....37
Fənər (*işləyəni M.Sultanov*) ....38
Balıqçılar (*ikinci*) (*işləyəni M.Rzaquluzadə*) ....39
Zərriştə (*işləyəni Ə Ziyatay*) ....40
Ayrılıq gecəsi (*işl. yəni M.Rzaquluzadə*) ....41
Müvəqqəti bir hicra ıdan sonra (*işləyəni M.Rzaquluzadə*) ....42
Sükut içində (*işləyəni Ə.Ziyatay*) ....43
Təsadüf (*işləyəni M.Sultanov*) ....44
İkinci təsadüf (*işləyəni M.Sultanov*) ....45
Son təsadüf (*işləyəni M.Sultanov*) ....46
Çirkin (*işləyəni R.Zəka*) ....47
Təsəlli pərdəsi (*işləyəni M.Sultanov*) ....48
Bir an rahatlıq (*işləyəni M.Sultanov*) ....49
Mavi dəniz (*işləyəni M.Rzaquluzadə*) ....50
Xəluqun səsi (*işləyəni Ə.Ziyatay*) ....51





Xəluqun bayramı (*işləyəni Ə.Ziyatay*) ....52
Sabah (*işləyəni R.Zəka*) ....53
Yaşamaq eşqi (*işləyəni R.Zəka*) ....54
İnanmaq ehtiyacı (*işləyəni M.Rzaquluzadə*) ....55
Qılınc (*işləyəni Ə.Ziyatay*) ....56
Qəm qəhqəhəsi (*işləyəni M.Rzaquluzadə*) ....57
Zəvallı "əvət" (*işləyəni M.Sultanov*) ....58
Pul və həyat (*işləyəni M.Sultanov*) ....59
Bir az ümid (*işləyəni M.Sultanov*) ....60
Heykəli-səy (*işləyəni M.Sultanov*) ....61
Həyat (*işləyəni Ə.Ziyatay*) ....62
İzlər (*işləyəni R.Zəka*) ....63
Sabah olarsa (*işləyəni R.Zəka*) ....64
Keçmiş... Gələcək (*işləyəni M.Sultanov*) ....65
Cavab (*işləyəni Ə.Ziyatay*) ....66
Bacım üçün (*işləyəni M.Sultanov*) ....68
Sis (*işləyəni M.Rzaquluzadə*) ....71
Rücu (*işləyəni M.Rzaquluzadə*) ....74
Bir ləhzə yubanma (*işləyəni R.Zəka*) ....75
Millət şərqisi (*işləyəni M.Sultanov*) ....77
Vətən şərqisi (*işləyəni M.Seyidzadə*) ....78
Universitet marşı (*işləyəni M.Sultanov*) ....79
Füzuli (*işləyəni M.Rzaquluzadə*) ....80
Aylar silsiləsi ....82
- Mart (*işləyəni M.Sultanov*) ....82
- Aprel (*işləyəni M.Sultanov*) ....82
- May (*işləyəni M.Sultanov*) ....83
- İyun (*işləyəni M.Sultanov*) ....83
- İyul (*işləyəni M.Sultanov*) ....84
- Avqust (*işləyəni M.Sultanov*) ....85
- Sentyabr (*işləyəni M.Sultanov*) ....85
- Oktyabr (*işləyəni M.Sultanov*) ....86
- Noyabr (*işləyəni M.Sultanov*) ....86
- Dekabr (*işləyəni M.Sultanov*) ....86
- Yanvar (*işləyəni M.Sultanov*) ....87
- Fevral (*işləyəni M.Sultanov*) ....87

Əski şeylər (*işləyəni M.Sultanov*) . . . . . . . . . . . . . . . . . . . . . . . . .89
Keçmişdə (*işləyəni M.Sultanov*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . .90
İztirab (*işləyəni R.Zəka*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .91
Tülüə qarşı (*işləyəni M.Sultanov*) . . . . . . . . . . . . . . . . . . . . . . . . .93
Çiçəklər içində (*işləyəni Ə.Ziyatay*) . . . . . . . . . . . . . . . . . . . . . .95
Məhəbbət şeirlərindən (*işləyəni Ə.Ziyatay*) . . . . . . . . . . . . . . . . .96
Tərənnüm (*işləyəni R.Zəka*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .97
Şeir sevdası (*işləyəni Ə.Ziyatay*) . . . . . . . . . . . . . . . . . . . . . . . . .98
Şairin hücrəsi (*işləyəni M.Sultanov*) . . . . . . . . . . . . . . . . . . . . . .99
Bir lövhə üçün (*işləyəni M.Seyidzadə*) . . . . . . . . . . . . . . . . . . . .100
Bir yay lövhəsi (*işləyəni Ə.Ziyatay*) . . . . . . . . . . . . . . . . . . . . . .101
Ayrılmam (*işləyəni M.Seyidzadə*) . . . . . . . . . . . . . . . . . . . . . . . .103
Sənin yerində (*işləyəni B.Vahabzadə*) . . . . . . . . . . . . . . . . . . . . .104
Anlaşılmasın (*işləyəni M.Seyidzadə*) . . . . . . . . . . . . . . . . . . . . . .105
Nəğməli bahar (*işləyəni R.Zəka*) . . . . . . . . . . . . . . . . . . . . . . . . .106
Ey yari nəğməkar (*işləyəni M.Sultanov*) . . . . . . . . . . . . . . . . . . . .107
Zəlzələ (*işləyəni Ə.Ziyatay*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .108
Şəhər şənliyi (*işləyəni Ə.Ziyatay*) . . . . . . . . . . . . . . . . . . . . . . . .109
Dəvənin başı (*işləyəni M.Sultanov*) . . . . . . . . . . . . . . . . . . . . . . .111
Xəluqun inamı (*işləyəni M.Sultanov*) . . . . . . . . . . . . . . . . . . . . . .112
Prometey (*işləyəni Ə.Ziyatay*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .114
Xəluqun vidai (*işləyəni R.Zəka*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . .115
Rəsminin qarşısında (*işləyəni M.Seyidzadə*) . . . . . . . . . . . . . . . . .121
Həqiqətin ulduzu (*işləyəni Ə.Ziyatay*) . . . . . . . . . . . . . . . . . . . . .123
Fərda (*işləyəni M.Sultanov*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .124
İthaf (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .126
Xoxan (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .127
Kaman (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .129
Yetim (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .130
Mələkin quzusu (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . .132
Ağkirpik (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .133
Quşlarla yarış (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . .134
Bahar gəlin (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .135
Yay ana (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .136
Payız xala (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .137
Qış baba (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .138



Söhbət (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .140
Dülgər (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .142
Qırıq at (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .143
Arı sancar (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .145
Kor ilə çolaq (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . .146
İki yolçu (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .147
Yayda (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .149
Qışda (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .149
Qara bacı (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .150
Kiçik əsgər (*işləyəni F.Sadıq*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . .152
Tarixi-qədim (*işləyəni M.Sultanov*) . . . . . . . . . . . . . . . . . . . . . . .153
Molla sırat (*işləyəni M.Sultanov*) . . . . . . . . . . . . . . . . . . . . . . . .159
Rübabın cavabı (*işləyəni M.Sultanov*) . . . . . . . . . . . . . . . . . . . . .162
Doxsan beşə doğru (*işləyəni R.Zəka*) . . . . . . . . . . . . . . . . . . . . .166
Qarət süfrəsi (*işləyəni M.Sultanov*) . . . . . . . . . . . . . . . . . . . . . .168
Taxtından salınmışın pəncərəsi (*işləyəni Ə.Ziyatay*) . . . . . . . . . . .170
Bir içim su (*işləyəni M.Sultanov*) . . . . . . . . . . . . . . . . . . . . . . . .171

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Ələkbər Kərimov* |
| Korrektorlar: | *Cəmilə Məcidova*<br>*Elnaz Xəlilqızı* |

Yığılmağa verilmişdir 22.06.2006. Çapa imzalanmışdır 14.07.2006.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 11. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 86.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.